*Allah – Tanrı – Xuda – Həqq – Rəbb – Xaliq – İlahi – Çələb – Yaradan – Yaradıcı*: Məgər ol kim *Xuda* etmişdi məhbub [13, s. 326], Bulmuş idi Xızır kibi *Həqqə* yol [13, s. 246], *Tanrı* bilür ki ki, qalımadı, ey şux dilbərim [16, s. 340], Ey bəni tanışdıran *Allah* ilə [13, s. 242], Ya *Rəbb,* müyəssər eylə yar ilə həmdəm olmax [13, s. 364], Ana kim rəhnüma olmadı *Xaliq* [15, s. 171], Həman birlik nəsib eylər *Yaradan* [15, s. 227], *Çələb* vermiş olara bir əcəb xan [14, s. 168], *Yaradıcı* ana şöylə yaradır [15, s. 231].

Hidayətin dilində işlənən *qurban olduğum* ifadəsi də bu sinonimik cərgədə canlı danışıq dilindən gələn xəlqiliyə söykənərək üslubi mövqeyini gücləndirir: Başımın üstündə *qurban olduğum* [16, s. 337].

*Gög – səma – asiman - ərş*: Yağubən başinə *gögdən* dolu kimi dərdü ğəm [11, s. 350], Dəlü dutdı yüzini *asimana* [14, s. 150], Səltənət təxtinə kürsiyi-*ərş* Bilqeyis ilə [11, s. 592].

*Çox – köp – ögüş – yügüş*: Əgərçi baği-cəhandə *ögüş* bitər qəysi [13, s. 400], Bu cahan bağında *köp* xari-cəfa çəkdim, vəli [6, s. 9], Əzəl nəqqaşi hüsnin tək *yügüş* surət nigar etdi [16, s. 321], Bu gün bunda yeyən az, anda yer çoq [13, s. 185].

*Ev – mənzil – saray – iqamət – mülk – köşk – hücrə - yuva*: Vardı getdi *evinə* gəzdi çoq [5, s. 34], Ki, xoş cayi-*iqamətdür, iqamət* [6, s. 11], Dilü canü zərü simü *evü mülki* neder, yarəb [6, s. 16], Ali-Yəqub *mənzilinə* ərdilər [5, s. 28], Baxdı *köşkdən* yüzinə Züleyxa anın [5, s. 33], Gecə Yəqub *hücrəsinə* yetdi ol [5, s. 51], Həvadən gözlədi məğrib *yuvasın* [15, s.161].

*Bitik – namə – kağız*: Yar göndərmiş *bitik* kim, Kişvərini öldürün [6, s. 6], *Kağızı*, kömləgi qoydi, söylədi [5, s. 91], Hər dəm əgər cənabına yüz *namə* yazıram [16, s. 329].

*Sabah – tan – səhər – sübh*: Yüzün *sübhi*-kəramətdür, kəramət [6, s. 11], Vəsiyyətin bu kim, andan qoparma, ey *səhər* yeli [6, s. 12], *Dan* atanda anda vadurdı yenə [5, s. 45], Gəldi təbirçiyə *sabah* ol aydır [5, s. 26].

*Əsrük – sərxoş – məst – huşyar*: Hər necə *əsrükdürür,* var anda bir *huşyarlıq* [6, s. 33], *Sərxoşan* beli açuq, aşüftə kakil, *məst* naz [6, s. 11].

*El – oba – ulus – yurd – vətən – diyar – vilayət – şəhər – məskən – köy – ölkə:* Kişvərinün könlini tapdum xiyalın *məskəni* [6, s. 10], Gözümdə qıl *vətən*, ey sərv boylu [6, s. 11], Ol *diyarə* sən əgər qılsan güzar [5, s. 22], *Elimizdə, şəhrimizdə* yok bizim [5, s. 31], *El-ulus* yığılıb kəbin qıldılar [5, s. 72], Ki Məğrib *mülkindən* iç *vilayət* [15, s. 218], *Yerin-yurdın* qoyub cümlə köçələr [15, s. 218], Yakıncakdurur ol *köy* şəhri-Misirə [15, s. 219], Gözün könül aluban büzdi canım *ölkəsini* [16, s. 297].

*Yağma – talan – qarət*: Şəha, yet ölkəlünin ğövrünə ki *talandır* [16, 297], Mənim evimdə *ğarətdür*, görünməz eldən heç baqi [5, s. 112], Məgər ögrəndilər *talanı* gözlər [16, s. 316], Səbrümi *yəğmayə* verdi çeşmi-fəttanun sənün [12, s. 240].

*Qat – hüzur – tapu – eşik – qapu – asitan*: Baxa qalmışam *eşigində* surəti-divar olub [6, s. 7], Saqın qazi *hüzurunda* gəvahın [13, s. 325], Ol əziz *qatında* qaldı bir zaman [5, s. 36], Hər cahilin *qatında* sirr sözün anmaq olmaz [13, s. 420], İki gözüm *qapında* çün oldi iki irmax [13, s. 364], İrişdi çünki yarın *qapusinə,* Qulami kibi turdi *tapusinə* [12, s. 191], *Tapun* buyurdu çün sövmü səlati, *Tapuna* tapmağı həccü zəkatı [13, s. 207].

*Gecə - qaranqu – axşam – dün – zülmət – şəb – şam:* Görərəm zülfini hər *şəb* duşimdə, bildim axır kim, Bulur tilbə *gecə* hər kim, pərişan görsə uyxular [6, 25], *Axşam* olanda dönürdi evinə [5, s. 45], Bu *qaranqu* yerdə əhvalın nədür? [5, s. 21], Gün dolandı nuri *zülmət* oldu dün [5, s. 22], *Gecə*, gündüz, sübh-*şam* ağlardı ol [5, s. 54].

*Sayru – xəstə - bimar - azar:* Ol gözi *bimardən* ayru ğəribü *xəstəmən* [6, s. 15], Hər necə *azar* qılsa yar yarımdur haman [6, s. 16], *Sayrudur*, dərman içün həbbi-nəbat almış gəlür [6, s. 21].

*Yuxu – uyxu – düş*: Gözün *uyxudan* uyar, qulağun aç [11, s. 251], Oyanubən sevgili *yuxusunu* tərk edən, *Düş* görübən eşq ilə bildi xiyalum nədür? [11, s. 451].

*Budaq – qol – dal*: *Budaqlar qollarına* həna yakdılar [15, s. 250], Yuva bir sərvdə dutmuş iki *dal* [16, s. 327].

*Ün – səs – avaz:* Böylə *ün* salub quşlar saz idi, Hər biri yüz nalan *avaz* idi [5, s. 16], Karvan qorxulu yerdə səs çıxarmaz söyləşüb, Hər kim ol dəm söylər olsə, derlər rtdi *səs* ğərib [11, s. 351].

*Sin – tabut – məzar – qəbir*: Şükür kim, *tabutuma* nəzzarı qıldın aqibət [6, s. 10], *Məzarı* üstünə ağla yalançı növhəgərlər tək [6, s. 40], Yeməksiz evdür ana ölü *sini* [15, s. 267], Götürübən Şeyxi *qəbrə* getməğə [14, s. 186].

*Yalanac – yoxsul – dilənşi – çılpaq – lüt – üryan – sərgərdan – bisərü saman*: Gah ac qor, gəh *yalanac* ol qəni [14, s. 140], Könüldən bay olan dilənci olmaz [15, s. 333], Başı açuq, əgni həm *üryan* idi [14, s. 136], Böylə yatam xəstə olub *yalınac* [13, s. 255], Padşahü bayü *yoxsullarımı*? [14, s. 225], Kim asisi degəyin *yoxsul* olana bayın [14, s. 344], Çin-*çilpaq* yalın qat etdilər ani [5, s. 20], Biqərarü dəngü *sərgərdan* gərək... Biqumaşü *bisərü saman* gərək [13, s. 415], Kim evdə etmişəm çoğ lüt ilə hərb [13, s. 209].

*Dərd – qəm – qüssə – kədər – məlamət – həsrət – nalə – möhnət – bəla – əzab – hicran*: Səndən ayru yüz *ğəmü dərdü məlamətdür* mana [6, s. 6], *Həsrətindən* oda yanduğı içün qul Kişvəri [6, s. 9], *Nalə* kim göynüklü dillərdən gəlür [14, s. 179], Fariğül-mədhü *məlamətdə* gərək [14, s. 26], Darar könlümi hər yandən yüz *ğəmü möhnət* [16, s. 308], Tədbir yoxdurur, yeticax tanrıdan *bəla* [16, s. 278], Çün cənnət əhlidir, nə verürsən *əzab* ana [16, s. 281].

*Ürək – bağır – dil – könül – cigər:* Çünki dərd imiş dəvası bu *yürək* yarasının [11, s. 394], Gözlərim giryanü köksüm yarəvü *bağrım* yanıb [6, s. 8], Bu sözdən *cigərlər* yarələndi, Bu *dil* zəxmi yenidən parələndi [12, s. 201], Çün *könüldən* naləsi oldı bu gün [14, s. 179]

*Yazı – çöl – düz – biyaban – səhra*: Anların qoyunları *səhradadır...Yazıya* gəlsün bizimlə ol böylə [5, s. 17], *Səhrayi*-hüsnün hər necə mişkin ğəzali çoxdur [6, s. 24], Yazıya düçdü yenı baş açuban yalın ayaq [16, s. 321], Bu biyaban içrə xoş abi-rəvan [14, s. 216], *Çöl* idi ol yol, həm su napədid [14, s. 214].

*Damu – cəhənnəm – qiyamət:* Tamu nurindən anı uçmaq eylər [15, s. 254], Ta ola aləm *cəhənnəmdən* əmin [14, s. 163], Rəvan ol kim qopə xəlqə *qiyamət* [11, s. 357]

*Cənnət – behişt – uçmaq: Varmazam uçmağa kuyindən anın get, zahid,* Damuya nişə vara kim ki, anın *cənnəti* var [16, s. 286], Demə ariz kim, *behişti*- cavidan vermiş san [6, s. 6]

*Qazanc – gəlir – mənfəət – assı – fayda – xeyrət – pul – aqçə - sərmayə:* Nə *assı* eylər ana kəhli-kəhhal [15, s. 231], Ki, bundan *mənfəət* bula xəlaiq [15, s. 224], Üç *akçaluq* sana *assısı* yoxdur [14, s. 174], Ya İlahi, müflis olub ölməsün bikəs ğərib, Olur imiş günbəgün şün *aqçəsüz* bikəs ğərib [11, s. 351], Kəsrət ilə vəhdəti həqq elminə *xeyrət* verür [11, s. 458], Ki, səvgün əlinə *sərmayə* düşmüş [11, s. 559], Səninlə olcaq, altı axçayam mən, Özümlə olsam, vəli bir pula dəymən [13, s. 157], Ki, ta kim fayda eyləyə guşiş [13, s. 180]

*Qonaq – mehman – müsafir:* Nəsim altun ilə doldurur *qonağ* ətəgin [16, s. 359], Eşidüb ğürbət bəlasin hər *müsafir* başinə, Necə yanməsün örənlər odə *mehmanun* ğərib [11, s. 346]

*Çəri – ləşkər – qoşun – bölük – dəstə* : Ol *çəri* həm çün bu qövlə yetdilər [5, s. 68], Ədunun *ləşkəri* səf-səf uşana [15, s. 163], Görəydün varmıdır yanmda *qoşun*? [14, s. 174], Xaslar bölügidür uş bu *bölük* [14, s. 148].

“Əsrarnamə”nin dilində bu sinonimik cərgəyə başqa abidələrdə rast gəlmədiyimiz ***bukavul*** “şahı qoruyan şəxsi qvardiya” sözünü də əlavə etmək olar: Padişah atlandı ol dəm xəşm ilə, Biləsində çox *bukavullar* bilə [14, 236]. *Bukavul//bukavıl* leksemini Radlov öz lüğətində “şəxsi qvardiya” mənasını göstərsə də, hansı türk dillərində işləndiyini qeyd etməmişdir [20, IV, s. 694]. “Əsrarnamən”in dilində rast gəlinməsinə mübasibət bildirən M. Nağısoylu hesab edir ki, bu, “Əhmədinin tərcüməyə etdiyi əlavədəndir, yəni sözün farsca qarşılığı Əttarın “Müsibətnamə” məsnəvisində yoxdur” [14, s. 105].

*Sərvət – var-dövlət – mal-mülk – tac-taxt – xəzinə*: *Təxtü-tacü-mülki-mal* getmiş yelə [5, s. 66], *Sərvəri-malü mülkü taci-təxtün* [15, s. 164], *Mülkü malımdan* mən əl çəkdim həman [14, s. 216], Yemək, içmək, eyşü-vardan keçmişəm [5, s. 69], Ki sağəşdan gələn birdir hesabə [14, s. 238], Bilmədin iblis anı, sən sana şeytan nədür? [11, s. 413], xəzinəmdir bənim, ey binəva [16, s. 223].

**Feili sinonimlər.** XV əsr Azərbaycan ədəbi dilində feli sinonimlərin əksəriyyəti üslubi xüsusiyyətlərinə nisbətən fərqlilik yaradan sadə danışıq vahidlərindən ibarətdir. Bəzən görürük ki, ədəbi dil nə qədər müəyyənləşmiş normalarla məhdudlaşmağa məcbur qalsa da, canlı danışıq dili əksinə, daha geniş imkanlarından istifadə edərək nitq fəaliyyətində sərbəst olur. Yazılı və şifahi ünsiyyət zamanı meydana çıxan bu sərbəstlik canlı danışıq dilində işlənən sözlərin ədəbi dildəki leksik vahidlərlə paralelləşməsinə, asanlıqla birgə sinonimik cərgələr yaratmasına səbəb olur. Sadə danışıq ifadələri, frazeoloji vahidlər, çoxmənalı sözlər, alınma sözlər, tərkibi feillər fikrin dildəki ifadə etmə məhdudluğunu aradan qaldırır, sinonimik cərgəni genişləndirir və sərbəst nitq faktlarına çevrilir. Bu vəziyyət dilin bütün inkişaf dövrlərində aktualdır, zənginliyi ilə diqqəti cəlb edir.

XV əsr yazılı mənbələrində təkrarçılıqdan, yeknəsəklikdən yayınmaq məqsədilə öz sözlərimiz əsasında zəngin feili sinonimik cərgələlə rast gəlinir. Dövrün ədibləri emosional-ekspressiv, semantik çalarlıqlar yaratmaq üçün öz fərdi üslublarının daha rəngarəng, obrazlı təsvirində adlarla yanaşı, feillərin sinonim müvaziliyinə xüsusi önəm vermişlər. Bildiyimiz kimi, Azərbaycan dilində "*fellər leksik-semantik, morfoloji, sintaktik, üslubi, fonetik və digər xüsusiyyətləri ilə, bu xüsusiyyətlərin zənginliyi, rəngarəngliyi, fərdiliyi ilə başqa nitq hissələrindən əsaslı şəkildə seçilir*" [17, s.4]. Leksik-semantik cəhətdən yaxın, oxşar məna çaları yaradan feili sinonim cərgədəki leksik vahidlərin çoxu dövrü üçün işlək olsa da, sonrakı mərhələlərdə get-gedə məhdulaşaraq dildə işləkliyini itirmişdir. Müasir ədəbi dilimizlə müqayisədə arxaizmlər statusu qazanan bu sözlərin izlərinə bəzi şivələrimizdə rast gəlmək mümkündür. XV əsr ədəbi dilinin lüğət tərkibində hərəkətin keyfiyyəti və kəmiyyətini müxtəlif üslubi məna fərqləri ilə ifadəsində obrazlıq yaradan, ekspressivliyinə görə sinonimik cərgə yaradan feillərdən biri mənaca əsas, aparıcı olduğu halda, digəriləri isə həmin mənaya yaxın ümumi bir məfhumun ifadəsini əks etdirir. Fikrimizi nümunələr üzərində izah edək:

*Aymaq//aytmaq – demək – söyləmək – dinmək – danışmaq – ağız açmaq – sözə başlamaq – dil uzatmaq – totağın dəprətmək*: Söz *degə* kim, Ol *ayıtmışdı* mana [5, s. 61], Bunlar *aydır* neynədük biz, ey əxi [5, s. 23], Deyən bir, eşidən bir, söyləyən bir [12, s. 253], Su girər ağzıma *tinər* olsam [13, s. 419], *Söyləməgil* bir süxən dərviş isən, Heç *demə* kun, məkun dərviş isən [13, s. 410], Susən *ağız açub dil uzadur deməgə* raz [15, s. 167], *Söz açalumü sözə başlayalum* [15, s. 265], *Todağın dəprədür* xəlq içrə, yəni [15, s. 334].

Müasir ədəbi dilimizdə əsasən bu sinonimik cərgədə *demək-söyləmək-danışmaq-sözə başlamaq* feilləri mənaca sinonim müvaziliyinin eyniliyini qorusa da, *aymaq//ayıtmaq* feili tamamilə arxaikləşərək dili tərk etmişdir. Füzuli rayon şivəsində bu feilin ilkin formasının (aymaq) işləndiyi qeyd olunur [3, s. 230]. Müasir dilimizdə *ağız açmaq* ifadəsi mənaca dəyişərək "xahiş etmək", *dil uzatmaq* isə "müdaxilə etmək, danışarkən həddini aşmaq" mənasında sinonimik cərgədəki mövqeyini itirmişlər.

*Susmaq – danışmamaq – ağzına bənd qılmaq – dilini kəsmək – ağzına möhür vurmaq :* Nə artux dedi kim, *qılır bənd ağzına* [16, s. 344], Başun kəsilməsün dersən, *dilün kəs* [11, s. 551], Xatəmi-ləlinlə, *ağzıma möhür urməz* isən [13, s. 368].

*Öldürmək – qanın tökmək – dəpələmək – başın kəsmək – qətl etmək – boğazlamaq*: Gördü dərdimni dedi: *öldürəyim* qurtulasan [16, s. 311], Alub könlimni *qanım tökdü* ləlin [16, s. 312], *Başımı kəsmağa* qəsd ol gözləri cəllad edər [16, s. 301], Aşiqləri nahəq *dəpələr*, verməz əmani [12, s. 214], Tutub boğazlasın gəlməz sənə ğəm [13, s. 194].

*İrmək – irişmək – yetmək – çatmaq – ulaşmaq:* Ol kamandarın *yetəndə* canına navəkləri [16, s. 355], İrmədən vəslinə, hicran göstərür [11, s. 412], Vəhdətə *ulaşanun* kəsrəti biganədür [11, s. 389], Bana dərdündən, ey məh, *irişibdür* [11, 399], Üçüncü gündə İstanbulə yetdüm [12, s. 218].

*Dolanmaq – cizginmək – firlanmaq – sarımaq – dövrə girmək – həlqələnmək – burulmaq*: Nöh fələk bir cam içübən *cizginür* leylü nəhar, Gecə-gündüz *dövrə girüb* döyünər tərrar məst [11, s. 355], Bərkidüb başda bir ucun, yeri dutmuş *cizginir* [16, s. 360], Gah tilənür, gah tolanur, gah ürər [13, s. 247], *Tolanur* səni başdan-ayağadək [15, s. 187], Qəddində gözüm zülfini ta gördü *dolanmış*, İlan gör özin der ki, necə ərərə *sarar* [16, s. 308], Arizində iki yandan *həlqələndi* zülfiniz [16, s. 291], Oddan *burulub* xaçımlu bir parəvü xandır [16, s. 309].

Bu sinonimik cərgədəki leksik vahidlərdən yalnız *çizginmək* leksemi "dolaşmaq, dönmək, fırlanmaq" mənasında müasir ədəbi dilimizdə işləkliyini itirsə də, o dövr yazılı abidələrin dilində işləkdir. Maraqlı bir sinonimik fakt isə "Gülşəni-raz" əsərində rast gəldiyimiz *ağıllanmaq* "ayın halqa kimi dövrəyə alınması" mənasında işlədildiyi üçün mənaca yaxın olan bu sıraya əlavə etmək olar: Ay *ağıllandıvü* həm oldı yıl düz [15, s. 250]. Elə həmin əsərdə *ağıllanmaq* lekseminin söz kökündə olan *ağıl* (ay ağılı "ayın ətrafında görsənən ağ dairə") sözünə də təsadüf olunur: Ay *ağılında* ol rəsmə ki yılduz [15, s. 304]. Ağıllanmaq leksemınə "Oğuznamə"də də eyni mənasında rast gəlinir: Ayun ağıllansa, ağəlun böyüt, gün ağıllansa quyun böyüt [18, s. 64]. V.Radlovun lüğətində eyni mənada qeydə alınmışdır [20, I, 166].

*Dönmək – qayıtmaq – ayax çəkmək:* Qəbul eylədi, *qayıtmadı* yoldan [14, s. 152], *Döndərən* ey rifq ilə bəndəm deyü [13, s. 245], Qalan göglər anun *dönməgiylə* [15, s. 187], Ayəx çəküb o yoldən, qorxub gərü qəyitməz [11, s. 541].

*Yanmaq – yaqılmaq – göymək – tutuşmaq – alışmaq – oda düşmək – pişmək – dağlanmaq – bağrı kəbab olmaq – kül olmaq* : *Yandurubən* bizi *yaxdı*, dedi [5, s. 56], Sən sərv qamət ilə əl *alışub* sallanmax?...Pərvanə kimi işi *yanmaqdurur, yaqılmax* [13, s. 364-365], *Tutuşubən* şövq ilə *yanməx* gərək [11, s. 607], Dön, yenə duruşmagil, *yanar oda düşməgil,* Hirs oduna *pişməgil*, qılıb ol oddan həzər [11, s. 420], Yel kimi yelüb gəzərkən od kimi *tutuşduğum* [11, s. 340], *Dağlənüb* canun kimi *bağrın kəbab olsun*, rəqib [11, s. 350], Yanubən külli *kül oldum*, bəs dəxi nəm yandurur [11, s. 393], Məni *göydür* sənü xakəstərim, sadirsən ey gərdun [6, s. 55]

*Ölmək – həlak olmaq – canından keçmək – can tapşırma*q *– can vermək – dünyadan getmək – qəra yerə girmək* : Kişvəri yüzün görüb *can tapşurursa* nə əcəb [6, s. 22], Var əgər həsrətlə *verəm canımu* axır nəfəs, Görmədən səvdüklərimi *dünyadan gedəm* qərib [11, s. 344], *Qəra yerə* dirilmə *girdürür* eşq [11, s. 576].

*Yürümək – getmək – varmaq – qədəm basmaq – qədəm qoymaq – yola düşmək – ayax qoymaq – yola girmək – yönəlmək* : *Yürüyəməzəm* bidilün, ey dilbəri-məhru [11, s. 383], Budur həq yolu, *varub* yabana getmə [15, s. 230], Gər *qədəm bassan* hənuz dirilməgin imkanı bar [6, s. 23], Dur *yola düş gedəlüm*, yoxluğu zar edəlüm [11, s. 370], Aydın eli yolunə başdan *ayəx qoyana* [11, s. 368], Yoxlığ ilə gir yolə, varlığ olanun burax [11, s. 371], Eşq elinə *yönəlib* hikməti yox gedəməz [11, s. 445], Tərk edübən səalunu, *qoy qədəmini* bu yolə, Sanmə ki, eşq əri olan *yolə girüb* məal edər [11, s. 455]

*Oxşamaq - əzizləmək – sevmək – ögmək – mədh etmək – təcrifləmək* : Yenə apardı sürüyə *oxşuyu* [13, 245], *Sevdi*, yaratdı səni həyyi-ğəni [13, s. 408], Necə *ögüm* bən də, şaha, kuyini, *Mədh edibdir* Həq-təala kuyini; Dedi: Ol bizi *mədh* etdi beğayət [13, s. 198]

*Qaqımaq – sögmək – dögmək – dalaşmaq – coşmaq – boynuna yumrux urmaq – yəxasın yırtmax – daşlamaq – təpmək* : *Qaqımadı* heç pöşüb *sögmədi*, Arqasını yudu, tutub *dögmədi* [13, s. 245], *Coşmağını* tərk edüb ola həlim...*Dalaşuban* irdigünə *dögmiyə* [13, s. 243], *Talaşubəni yırtma çəküb xəlq yaxasın*...Qol qalduruban *urma yetən boynuna yumrux*...*Ün çəkübəni səgmə*, urub xişm ilə xəlqə [11, s. 483], *Daşlayubənü təpmə* eşək xuyidir eşit [11, s. 484]

Yuxarıdakı sinonimik cərgədə verilən leksik vahidlər ümumi *dalaşmaq* anlayışını ifadə ediklərinə görə bir-birinə yaxın mənalı sözlərdir. Qaqımaq "qarşış etmək", təpmək "təpik vurmaq" sözləri müasir ədəbi dildə arxaik fakt kimi işləkliyini itirmişdir.

Tədqiqat zamanı XV əsr yazılı mənbələrində sinonimləri təhlil edərkən misra daxilində sinonimlərin həmcinsliyi - yanaşı işlədilməsi xüsusilə diqqətimizi cəlb etdi. Dövrün klassiklərinin

əsərlərindən seçilən sinonimlərə aid yuxarıdakı nümunələrin əksəriyyətində bədii ifadə vasitəsi kimi həmcins sinonimliyə üstünlüyünü müşahidə edirik. Tək Kişvərinin "*Əbirim, ənbərim, mükim, ğəzalim, Çinü Maçinin, Bənəfşəm, sünbülüm, laləm, gülüm, tazə gülüstanım*" [6, s. 127] misraları ilə başlayan 13 beyitlik qəsidəsi əvvəldən axıra kimi adlarla ifadə olunmuş həmcins sinonimlərdən ibarətdir. Bədii mətnlərdə sinonimlərin həmcinsliyi əsasən fikri daha aydın, əhatəli, obrazlı, təsirli etmək üçün geniş imkanlar yaradır, eyni zamanda, bir sözün mətn daxilindəki üslubi mövqeyini gücləndirir, başqa bir söz vasitəsilə semantikasını genişləndirir. Söz oyununa yol açan həmcins üzvlər haqqında C.Xəndanın maraqlı fikri var: "*Mənaca çox yaxın olan və eyni suala cavab verərək təkrar olunan bu sözlər eyni sözlərin təkrarı nəticəsində yaranan təkrardan heç də zəif deyil, əksinə qüvvətlidir. Həm də bunlar şəkilcə ayrə, mənaca yaxın olan sinonimlərdir*" [9, s. 138].

**Nəticə**. XV əsr Azərbaycan ədəbi dilində işlənən sinonimlərin işlənmə tezliyinə və leksik-semantik cəhətdən üslubi imkanlarına nəzər yetirsək, görərik ki, dildəki sinonim sözlərin fəaliyyəti ədəbi-bədii yaradıcılıqda daha da genişlənir, üslubi imkanları ümumxalq dil materialları ilə zənginləşirdi. Şairlərin fərdi üslubundan asılı olaraq sinonimik söz cərgələrinin sıraları çoxalır, əmələgəlmə yolları artırdı. Belə ki, hər bir söz sənətkarı dildəki mütləq sinonimlərlərdə istifadə etməklə yanaşı, mətndaxilində nisbi sinonimlər yaratmaqla öz bədii dillərini daha da emosional, obrazlı, rəngarəng edirdilər. Bu da dilimizin lüğər tərkibinin zənginləşməsinə səbəb olur. XV əsr Azərbaycan ədəbi dilində bir-birindən uzaq, müxtəlif məqamlarda işlənən sözlər konteksdə sinonim kimi işlənə bilir, mənaca yaxınlaşaraq və ümumi məzmun ətrafında birləşərək dövrün ədəbi dilinin leksik-semantik mənzərəsinin dolğun şəkildə əks etdirir. Bu dövrdə adi sinonimlərlə yanaşı, poetik-üslubi sinonimlərə geniş yer verilməsi, sözsüz, bədii ədəbiyyatın təbiəti ilə bağlılığından deyildir, söz sənətkarlarının dünyagörüşü, məntiqi düşüncəsi ilə yanaşı, milli dilə bağlılığından irəli gələrək şairlərin öz yaradıcılıqlarında xalq dilinin incəliyini, sadəliyini canlandırmasıdır. Araşdırma zamanı bu cəhət diqqəti cəlb edir və dövrün ədəbi dilinin leksik-semantik xüsusiyyətlərini izlədikcə fərdi üslubunu özünəməxsus səciyyəvi rolunun lüğət tərkibinin zənginləşməsinə təsiri izah olunur.

## ƏDƏBİYYAT


1. Cavadova, M. Şah İsmayıl Xətainin leksikası / M.Cavadova. –Bakı: Elm, –1977. –141 s.
2. Dəmirçizadə, Ə. Azərbaycan dilninin üslubiyyatı / Ə.Dəmirçizadə. –Bakı: Azərtədrisnəşr, –1962. –272 s.
3. Əzizov, E. Azərbaycan dilinin tarixi dialektologiyası / E.Əzizov. –Bakı: Bakı Universiteti, –1999. –354 s.
4. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası / H.Ə.Həsənov. –Bakı: Maarif, –1988. 306 s.
5. Təbrizi, X. Yusif və Züleyxa / X.Təbrizi. Elmi-tənqidi mətni və transfoneliterasiyası T.Əkbərov. –Bakı; Nurlan, –2004. –532 s.
6. Kişvəri. Əsərləri / –Bakı: Yazıçı. –1984. –164 s.
7. Qurbanov, A.M. Müasir Azərbaycan dili: [2 cilddə] / A.M. Qurbanov. –Bakı: Nurlan, cild 1, –2003. –450 s.
8. Məhərrəmova, R.C. Sabirin dili / R.C. Məhərrəmova. –Bakı: Maarif, –1976. –107 s.
9. Məhərrəmova, R.C. "Kitabi-Dədə Qorqud"un söz xəzinəsi / R.C.Məhərrəmova. –Bakı: Nurlan, –2007. –591 s.
10. Mirzəyev, H.M. Azərbaycan dilində sadə fellər / H.M.Mirzəyev. –Bakı: Elm, –1984. –318 s.
11. Musabəyli, A. Şeyx İbrahim Gülşəni Bərdəi və türk divanı: [2 cilddə] / A.Musabəyli. –Bakı: Elm və təhsil, –c. 2, –2012. 611 s.
12. Musabəyli, A. Türkiyədə yaranan Azərbaycan ədəbiyyatı və Xəlilinin "Firqətnamə"si / A.Musabəyli. –Bakı: Nurlan, –2010. 380 s.
13. Musayeva, A. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar [2 cilddə] / A.Musayeva. –Bakı: Nurlan, –c. 1, –2003. –493 s.
14. Nağısoylu, M. Əhmədi Təbrizi və "Əsrarnamə" tərcüməsi / Nağısoylu M. [tekstoloji-filoloji araşdırma, mətnin transfoneliterasiyası]. –Bakı: Nurlan, –2012. –260 s.

15. Nağısoylu, M. Şirazinin “Gülşəni-raz” tərcüməsi / M.Nağısoylu. (filoloji-tektoloji araşdırma, mətnin transfoneliterasiyası). –Bakı: Elm və təhsil, –2011. –380 s.
16. Paşalı, A. Əfsəhəddin Hidayət və “Divan”ı / A.Paşalı. –Bakı: Nurlan, –2011. –448 s.
17. Rəcəbli Ə. Ə. Göytürk dlinin leksikası. Bakı, “Nurlan”, 2004.
18. Oğuznamə / tərtib edən S.Əlizadə. –Bakı: Yazıçı, –1987. 223 s.
19. Будагов, Р.А. Ввдение в науку о языке / Р.А.Будагов. –М.: Учпедгиз, –1958. 432 с.
20. Радлов, В.В. Опыт словаря тюркских наречий: [в 4 томах] / В.В.Радлов. –Санкт-Петербург: Императорская академия наук, –т.1, ч.1, –1893. –1048 с.
21. Ефимов А.И. Стилистика художественной речи / А.И.Ефимов. –М.: Изд-во МГУ, –1961. –519 с.

## РЕЗЮМЕ
## РОЛЬ И ПОЛОЖЕНИЕ РАЗВИТИЯ СИНОНИМОВ В ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ АЗЕРБАЙДЖАНА XV ВЕКА

***Пашаева А.Ф.***

***Ключевые слова:*** *Азербайджан, XV век, литературный язык, синоним, позиция развития.*

В статье рассматриваются лексические единицы - синонимы, различающиеся по форме и значению, стилистическим моментам в литературном языке Азербайджана XV века. Таким образом, создавая стилистическое разнообразие в языке, синонимы не только придают словам определенные оттенки значения, но и художественно обогащают язык, усиливают его образность и выразительность. Функция синонимов в литературном языке зависит от индивидуального стиля писателя, а также языкового ландшафта того времени - рабочего языкового материала в словаре. Создание синонимических строк обогатило словарный запас языка и расширило возможности выражения. То есть слова, не являющиеся синонимами в обычной ситуации, становятся у поэтов синонимами в контексте и разными способами служат для уточнения общего содержания. С этой точки зрения роль и стилистические возможности синонимов, широко употребляемых в литературном языке Азербайджана XV века, выделяются своим своеобразием. Отражая все тонкости общенационального языка, поэты этого периода широко использовали синонимы, чтобы сделать отдельные события более эффектными и эмоциональными и в то же время дистанцировать язык от повторов и однообразия. В ходе исследования отобранные образцы из языка классиков XV века были сгруппированы в виде существительных и глагольных синонимов и включены в исследование.

## SUMMARY
## THE ROLE AND DEVELOPMENT POSITION OF SYNONYMS IN THE LITERARY LANGUAGE OF THE 15TH CENTURY AZERBAIJAN

***Pashayeva A.F.***

***Key words:*** *Azerbaijan, XV century, literary language, synonym, development position.*

The article deals with the lexical units - synonyms, which differ according to their form and meaning, stylistic points in the literary language of the 15th century Azerbaijan. Thus for creating stylistic diversity in the language, synonyms not only adding specific shades of meaning to the words, but also enrich the language artistically and strengthen its imagery and expressiveness. The function of synonyms in the literary language depends on the individual style of the writer, and the language landscape of the time - the working language materials in the vocabulary. The creation of synonymous lines enriched the vocabulary of the language and expanded the possibilities of expression. That is, words that are not synonyms in the usual situation become synonyms in the context by poets, and serve to clarify a common content in different ways. From this point of view, the role and stylistic possibilities of synonyms, which are widely used in the literary language of the 15th century Azerbaijan, stand out for their uniqueness. Reflecting all the subtleties of the common national language, the poets of this period widely used synonyms to make individual events more effective and emotional, and at the same time to distance the language from repetition and monotony. During the research, samples selected from the language of the 15th century classics were grouped in the form of noun and verb synonyms and included in the study.

Daxilolma tarixi: İlkin variant 29.01.2024
Son variant 20.02.2024

UOT 82-1 DOI 10.54758/16801245_2024_20_1_21

# STUDY OF ANTONYMS IN KAZAKH LINGUISTICS

**RAINBEKOVA GULMIRA SAILAUBAEVNA** ORCID

*Eurasian national University named after L.N. Gumilyov, Kazakhstan, Astana, doctoral student*
*g.rainbekova@mail.ru*,

***Keywords:*** *antonyms, text translation, language, words with the opposite meaning*

**Introduction.** The article deals with the study of antonyms in Kazakh linguistics, as well as the use, and the nature of words. In the introductory part of the article, it is said that in the XVIII-XIX centuries, opposite words were marked by various names: "opposites" (M. Lomonosov); words "opposing, opposite in meaning, opposite in title" (I. Sreznevsky); "contradictory" (I. Davydov) and others. Antonymy is one of the main phenomena that is less explored in the lexical system of a language than in other systemic categories such as Synonymy. The aim of the article is to consider the research of antonyms in Kazakh linguistics. It is interesting to note the introduction of the linguistic term "antonym" into the field of Linguistics. V. Ivanov gave a very detailed account of how antonym became a part of Linguistics. I. Kalaidovich, used the term "Antonym" for the first time to explain its origin in his book "A brief outline of rules for compiling a manual dictionary of the current Russian language, with an appendix of sample dictionary sheets", which was published in 1926. There are several types of antonyms dictionary in the modern lexicography. They differ from each other by their general concept, vocabulary structure, volume and who they are intended for.

**Materials and Methods**. One of the phenomena of great interest for lexicology is antonyms. One of the most interesting phenomena in lexicology is antonymy relations, which is one of the expressions of the semantic paradigm in the language. If we are stating that words with approximate meanings are Synonyms, then Antonyms are the words with opposite meanings. Antonymy is a lexical unit having opposite semantic meanings. Antonymy is a universal phenomenon that is typical for all languages. The similarity of semantic and structural classification of antonyms in each language will depend on the common structure of their opposite meanings. The basis for the Antonymy is the ability of the human mind to compare concepts about objects and phenomena in the objective world and to contrast this concept with each other. Logical and cognitive specificity is specific to Antonymy.

**Results and Discussion**. However, the concepts of "logical contrast" and "linguistic contrast" correspond to each other only in a certain sphere. Logical (logical) opposition describes the relations of incompatible concepts; this row includes contrari (lat. contrarius - opposite) opposition. Linguistic opposition, arising from logical opposition, describes in language the essential differences of objects and phenomena of the subject world in terms of their thinking. These differences are reflected in antonyms, which correspond or do not correspond to logically unrelated concepts.

The psychological basis of anatomy is the opposing relationships in human consciousness. Thus, antonyms are used together in the course of speech and are accepted as they are, they cannot be separated from each other: far - close, hungry - fed, run – chase.

Antonymy is primarily a lexical phenomenon; sentences and grammatical objects are taken in an opposite sense due to the opposites of their constituent entities.

Lexical units presenting antonymy are characterised by commonality, i.e. in the meanings of antonyms by the fact that they exclude each other to the last limit: lie-truth, (here: lie is not true; truth, rejects truth to the last limit, as well as truth - do not lie; denies truth to the last extreme).

Nowadays, there are several types of antonyms grouping in the linguistic studies. Such systematisations are based on the following different principles: logico-grammatical, psycholinguistic and linguistic principles of studying linguistic units-personalities with opposite meanings. So far, antonyms in Kazakh linguistics have been grouped only according to the linguistic principles. The main features of systematisation are: the history of origin of the words in the language ( native and borrowed antonyms: rich (Kaz.) - poor (Arab.); usefulness (Arab.) - harmfulness (Persian); peculiarities of grammatical structure (antonyms of the same and different origin: owning cattle - without cattle, good - bad); main and derivative roots (hungry - fed, hunger - abundance), personal features of linguistic units in pairs of antonyms (separate word, regular word combination: (separate word, regular word combination: hostile - friendly, unity - isolation), certain lexical belonging to a grammatical group: antonyms of nouns: lie - truth, wealth - poverty; adjectives: heavy - light, explicit - implicit; verbs: leave - come, increase - decrease; adverbs: early - late, slow - fast; pronouns: this - that, here – there. A. Bolganbayev, G. Kaliev in their works noted that: "...antonyms are mainly adjectives, followed to a greater or lesser extent by verbs, nouns, and adverbs. And antonyms made up of other classes of words are too few, almost non-existent," pointed they out. A. Bolganbayev grouped antonyms not only based on their linguistic properties, but also according to their logical nature. The scholar has classified as follows: 1) the words that are antonyms must have an opposite meaning (birth-death, brave- coward); 2) pairs of antonyms must be from the same class of the words (life-death, departure-arrival). The author showed an intermediate level of antonymic oppositions: "ancient-old-new", "early-exact-late", however, he did not reveal the difference between the concepts and meanings of the words, but used them interchangeably. "In the language there is an intermediate concept along with the opposite concept" [1, 51].

The first work on antonyms in Kazakh linguistics was the work of scientist Zh. Musin, who published a dictionary of antonyms. The scientist made a great contribution to the development of the theory of antonyms in Kazakh linguistics. The scholar focused his attention on the study of antonyms and studied antonymic relations at the lexical, collocational, morphological and stylistic levels. Some theoretical conclusions are given from a logical standpoint about the relation of the words with opposite meaning to the category of negation. The antonymic phrasal expressions, stylistic antonyms, and antonymic contexts unaccounted for by the researchers are grouped according to their nature and meaning and divided into several groups. A. Zhumabekova, having analyzed the oppositional system of phrases-antonyms [2, 44], rejects the statement of Zh. Musin stated that "... one of the most necessary conditions for defining antonyms is to use them in opposition to each other" - and says that he gives examples from different sentences. On the one hand, it seems right, but given the latest news, we can say that this is not a serious question.

Typological research of antonymic phrases in English, Russian and Kazakh languages by Zh.K.Konakbayeva was carried out in the direction of determining the interlanguage idiomatic connection of these units [3, 35].

Since there have been no unified approaches to the phenomenon of antonymy in research so far, the general picture of the semantic relations of opposites in the language (tongue) and speech (conversation) has not been fully determined.

It is necessary to have a comprehensive direction in the study of antonyms, that is, it is advisable that research should be conducted at the junction of logic, philosophy, psychology and linguistic sciences. In world science, scientist N.S. Trubetskoy's opposition method, first used in phonology, has gained wide support, and linguists have been using this method effectively for various linguistic branches.

Based on N.S. Trubetskoi's method of opposition, we distinguish antonyms in the Kazakh language into gradational, privative and equivalent antonym oppositions.

As mentioned above, according to the opinion that has developed so far, Language Unity is only an antonym pair, while the opposition method makes it possible to group opposites arising from logical, psychological, linguistic concepts into large-scale antonym opposites [4,14].

In general, the existence of accumulated opinions and conclusions about antonyms in Turkic languages is obvious. A. Memetov studied antonyms in the Crimean-Tatar language, analyzed them according to their origin, morphological structure, according to which antonyms have different roots. However," one productive form of the formation of antonyms in the Crimean-Tatar language is those that are formed by affixes that require additional, special study, for example – akylli-akilless; yurekli-yurekless and so on [5, 48]. "There are scientists who support these single-root antonyms. They are: In Uyghur-A. Kaydarov, G. Saduakasova, T. Talipov, in Bashkir – Zh.Kiikbayev, in Tatar – L. Khabibov, in Turkmen – B. Baizhanov, in Kyrgyz – B. Usubaliyev, in Kazakh – A. Bolganbayev and A. Zhumabekova. As for the supporters of A. Memetov's statement that there are no single – root antonyms, they are S. Gudzhikov in Turkmen, E. Berdimuratov in Karakalpak, Zh.Musin, S. Kenesbayev, and G. Musabayev in Kazakh. Special mention can be made of the work of the scientist R. Shukurov, who studied the antonyms of Uzbek language [6, 76]. The scientist attributes the following to the criteria indicating the antonym relationship between single – root words: 1) these words should give a complete meaning, without indicating the existence or absence of a single object or phenomenon-like the pairs indicated by A. Memetov "jurekli (hearty)-jureksiz (heartless)", "brave - timid", "akkli - aklsiz"-"clever-stupid". 2) full – form lexical units should be taken as synonyms for single – root words-"bakhtli – saodatli, bakhtiere, tolemand", "bakhtsiz-tolesiz, shurpeshona" (happy-unhappy). 3) Translations of antonyms in other languages are taken – "happy-unhappy", "glucklich-ungluklich" [7, 68].

**Conclusion,** antonymy has not been studied in Kazakh and Russian for a long time. Taking and analyzing many recently published works, we show that in Kazakh linguistics the phenomenon of antonyms has not found its place in the field of psycholinguistics, it is necessary to clarify the distinctive features of the term of antonym, the use of antonyms in a figurative sense, the study of the phenomenon of enantiosemia in Kazakh linguistics, the analysis and differentiation of stylistic figures is still a problem that remains to be solved. Research, which began in the 50s of the twentieth century, shows that the vast majority of problems in Russian linguistic literature have been solved, and research in the Kazakh language is used only in a narrative direction.

## LITERATURE


1. Bolanbayuly, G., Kalievich, G. Kazirgy Kazak tilinyn leksikologiyasy men frazeologiyasy. [Lexicology and praseology of modern Kazakh language]. Textbook / –Almaty, –1997, –p. 121.
2. Musin, Zh. Kazak tilinyn antonimder sozdigy. [Dictionary of antonyms of the Kazakh language] / –Almaty, –1984, –201 p.
3. Konakbayeva, Zh. Antonymous phrases in English, Russian, and Kazakh / –Almaty, –1989, –321 p.
4. Zhumabekova, A. Kazak tilinyn antonimder sozdigy. [Dictionary of antonyms of the Kazakh language] / A.Zhumabekova. –Almaty: Publishing House "Dictionary-Dictionary", –2000. –184 p.
5. Shukirov, R. Vocabulary-the semantic nature of the antonyms of the Uzbek language / R.Shukirov, –Tashkent, –1973, –131 p.
6. Zhusupov, A.E. Kazirgy kazak tilindegy karama-karsylyktyn stildyk koldanystagy magynalyk orisy. [The semantic field of contrast in modern Kazakh with stylistic use] / A.E.Zhusupov, –Kokshetau, –2004. –89 p.
7. Zhumabekova A. Fundamentals of a systematic description of the vocabulary of the Kazakh and Russian languages / A.Zhumabekova. –Almaty: Ulagat, –2015. –205 p.

8. www.sozdikgor.kz

**XÜLASƏ**
**QAZAX LÜĞƏTİNDƏ ANTONİMLƏRİN ÖYRƏNİLMƏSİ**
***Raynbekova G. S.***

***Açar sözlər:*** *antonimlər, mətn tərcüməsi, dil, əksmənalı sözlər*

Məqalədə ən vacib ümumi nəzəri məsələlərdən biri – antonimiyada məntiqi və dil aspektlərinin nisbəti nəzərdən keçirilir. Antonimiya kimi bir dil fenomenini nəzərdən keçirərkən məntiqə ekskursiyalar qaçılmazdır. Təhlil etdiyimiz materialdan göründüyü kimi, funksiya fərqi ilə izah olunan "dil əksi" və "məntiqi əks" anlayışlarının həcmlərinin tam üst-üstə düşməsindən deyil, yalnız qismən danışa bilərik.

**РЕЗЮМЕ**
**ИЗУЧЕНИЕ АНТОНИМОВ В КАЗАХСКОЙ ЛЕКСИКИ**
***Райнбекова Г.С.***

***Ключевые слова:*** *антонимы, перевод текста, язык, слова с противоположным значением*

В статье рассматривается один из важнейших общетеоретических вопросов – соотношение логического и языкового аспектов в антонимии. При рассмотрении такого языкового явления, как антонимия, экскурсы в логику неизбежны. Как свидетельствует анализируемый нами материал, можно говорить лишь о частичном, а не полном совпадении объемов понятий «языковая противоположность» и «логическая противоположность», что объясняется различием по функции.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 29.01.2024 |
| | Son variant | 05.03.2024 |

Sumqayıt Dövlət Universiteti – **"ELMİ XƏBƏRLƏR"**– Sosial və humanitar elmlər bölməsi
**Cild 20 № 1 2024**

**UOT 82-1** DOI 10.54758/16801245_2024_20_1_25

# ÇAĞDAŞ POEZİYADA ÜSLUB VƏ İSTİQAMƏTLƏR, MÖVZU AXTARIŞLARI

**MƏMMƏDOVA TÖRƏ KAMAL qizi** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*
tora.mammadova@sdu.edu.az

***Açar sözlər:*** *vətən mövzusu, torpaq həsrəti, qələbə motivi, müstəqillik dövrü, çağdaş poeziyası, modernist poeziyası*

Məqalədə müstəqillik dövrü poeziyadakı fərqli üslublardan, mövzu axtarışlarından bəhs olunur, poeziya sahəsində ədəbi-nəzəri, elmi fikirlər incələnir. Ə.Cahangir, E.Akimova, N.Cabbarlı, R.Karaca, T.Əlişanoğlu və başqa müəlliflərin çağdaş poeziya ilə bağlı fikirləri araşdırılır. Çağdaş poeziyaya təsir edən müəlliflər, onların şeirləri nəzərdən keçirilir. R.Rövşənin, V.Səmədoğlunun modernist axtarışları, onların çağdaş ədəbi prosesə təsiri təhlil olunur. Müasir modernist poeziyada fəlsəfilik, mənəviyyat axtarışları, mətn içində mətn yaratmaq ənənəsi 1970-1980-ci illər poeziyasında da vardı. Çağdaş şeirlərdə real həyatla bağlı təsvirlər, tənhalıq, milli-mənəvi bütövlüyə çağırış, siyasi motivlər, torpaq həsrəti, qələbə motivi, milli-mənəvi və əxlaqi dəyərlər, qloballaşma, nəhayət Allah axtarışları kimi mövzular diqqət mərkəzindədir. Bu obraz və mövzuların yaranması özlüyündə dövrün sosial-ictimai prosesləri ilə bağlı olsa da, həm də 1960-80-ci illər poeziyasının mövzu-ideya axtarışlarının davamıdır. Məqalədə S.Balayar, R.Qaraca, R.Rövşən, V.Səmədoğlu, Q.Nəcəfzadə və başqa şairlərin şeirləri üzərində təhlillər aparılır.

Azərbaycan ədəbiyyatında poeziyaya maraq həmişə üstünlük təşkil edib. Baxmayaraq ki, dünya ədəbiyyatında mənzərə tamamilə əksinədir. Hətta bəzi tədqiqatçılar müəllifinə qazanc gətirmədiyi üçün şeiri lazımsız janr adlandırır, Azərbaycan ədəbiyyatında şeirə bu qədər dəyər verilməsini anlaya bilmirlər. Məsələn, "Azərbaycan" jurnalının səhifələrində türk ədəbiyyatşünas alimi Akpınarın İntiqam Qasımzadə ilə söhbətində alimin jurnalın səhifələrində kifayət qədər şeir nümunələrinin çap olunmasını görüb təəccüb hissini gizlədə bilməməsi fikrini dilə gətirməsi dediklərimizə sübutdur. Bəlkə də roman daha gəlirli sahə olduğu üçün dünya ədəbiyyatında ona maraq həmişə daha çox olub. Bizdə isə bu gün də kifayət qədər poeziya nümunələri yazılır. Azərbaycan şairlərinin əsərləri təkcə Azərbaycanda yox, Ukrayna, Türkiyə, Rusiya, Polşa, Almaniya, İran kimi bir çox xarici ölkələrdə nəşr edilir. Şeir almanaxları, şeir topluları alman, ingilis, fransız dillərinə tərcümə olunur.

Müasir poeziyada fərqli üslub və istiqamətlər mövcuddur. Bir tərəfdən ənənəvi xalq şeiri tərzi, digər tərəfdən Qərb ədəbiyyatından gələn təsirlər, fərqli üslubların sintezi müasir şairlərin yazı tərzini, şeir pafosunu, məzmun-ideya istiqamətini formalaşdırır. Çağdaş Azərbaycan poeziyasında R.Yusifoğlu, V.Bəhmənli, E.Z.Qaraxanlı, E.Başkeçid, M.Abdulla, A.Mirseyid, S.Babullaoğlu, Q.Nəcəfzadə, S.Şəkərli, R.Qusarçaylı, A.Ağbaba, Kəramət, M.Soltan, İ.İlyaslı, S.Sarvan, Tərlan, Ə.Həsrət, Salam, H.Herisçi, R.Qaraca, Z.Əzəmət və b. bir çox şairlərin yaradıcılığında ənənədən gələn təsirlərlə yanaşı, yeni deyim tərzi, fərqli üslublar özünü göstərir. Ədəbi aləmdə də yeni nəzəri fikirlər, elmi mühakimələr diqqəti çəkir. Son on illər ərzində T.Əlişanoğlu, V.Yusifli, R.Qaraca, N.Cabbarlı, E.Akimova, Ə.Cahangir və digər tənqidçilər poeziyanın problemlərini təhlil edir,

poeziyada müasirlik, forma, janr, sənətkarlıq, dil-ifadə xüsusiyyətləri, poetik ənənə və s. kimi məsələləri araşdırırlar.

**Poeziyada üslub və istiqamətlər, mövzu axtarışları**

Müasir poeziyanı təhlil edən tədqiqatçılar poeziyada üslub və istiqamət məsələlərinə toxunur və fərqli mövqe nümayiş etdrirlər. Belə ki, 2000-ci illər poeziyasını hədəf alan Ə.Cahangir poeziya ilə bağlı fikirlərini sərgiləyərkən şeiri dörd – milli realist, simvolik, modernist, postmodernist istiqamətə bölür [3]. Müəllif birinci istiqamətə M.İsmayıl, M.Yaqub, B.Vahabzadə, F.Qoca, S.Rüstəmxanlı, N.Həsənzadə, B.Azəroğlu, Z.Yaqub kimi şairlərin poeziyasını daxil edir. Bu istiqamətin əsas özəllikləri kimi, real həyatla bağlı mövzular, tənhalıq, milli-mənəvi bütövlüyə çağırış, siyasi motivlər, torpaq həsrəsi, qələbə motivi, milli-mənəvi və əxlaqi dəyərlər, qloballaşma, nəhayət Allah axtarışları kimi mövzular önə çəkilir. İkinci istiqamət R.Rövşən, V.B.Odər, E.Zal, Salam, B.Pərviz, R.Behrudi kimi müəlliflərin yaradıcılığı ilə əlaqələndirilir və ün, bulud, şam, göy üzü, şeytan, mələk, pərvanə, dilənçi, kimi obrazlarla diqqəti cəlb edir. Xanəmir, İ.Fəhmi, R.Qaraca, M.Köhnəqala, S.Babullaoğlu üçüncü- modernst, H.Şəmi, Aqşin, Z.Əzəmət, F.Əsəd, A.Şərif kimi şairlər isə dördüncü postmodernist qolun nümayəndələri kimi dəyərləndirilir.

Azərbaycan ədəbiyyatında yeni nəsil poeziyasını təhlil edən N.Cabbarlı Ə.Cahangirdən fərqli olaraq realist və romantik poeziyaya paralel olaraq epik və konstruktiv şeirdən bəhs edir. Müəllifə görə, [2, s.10], məntiqi oynatmaq və təzad yaratmaq konstruktiv şeirin əsas xüsusiyyətləridir. Burada şair duyğunu, hissi şeirə birbaşa ötürmür, fikri birbaşa ifadə etmir, fərqli məntiqləri, bir-birinə zidd hissləri söz oyunu vasitəsilə ifadə edir, təzadlı təsvirləri, duyğu və fikirləri qarşılaşdırır. Belə şeirlərdə süjetsizlik, bir çox məqamlarda isə üç bənddən ibarət şeirlərdə bəndlər arasında ideya-məzmun əlaqəsi, məntiqi ardıcıllıq, fikir dağınıqlığı özünü göstərir. Belə şeirlərdə fəlsəfilik önə keçir, müəllifin dağınıq mətnlərinin hər biri özlüyündə daha çox fəlsəfi xarakter daşıyır.

Məqalədə konstruktiv şeirin əsas elementlərini təhlil etmək üçün N.Cabbarlı bir neçə şeir nümunəsinə müraciət edir. Bu nümunələr, özlüyündə, müəllifin qənaətlərini təsdiqləsə də, konstruktiv şeiri sərbəst şəkildə realist və romantik üslubla yanaşı bədii üslub kimi təhlil etmək mübahisəli görünür. Lakin, məsələn deyək ki, konstruktiv şeirdən modernist üslubun bir forması kimi danışmaq olar.

N.Cabbarlı yeni nəsil ədəbiyyatı (burada əsas 2000-ci illər poeziyası nəzərdə tutulur) nümayəndələrinin mövzu axtarışlarından bəhs edərkən şairləri iç aləmindən ayrıla bilməməkdə günahlandırır. Müəllifə görə, şairlər mənəvi və psixoloji "daxili parçalanma"lardan qurtula bilmir, dərd və əlacsızlıq ucbatından tanrıyla çəkişirlər. Bunu poeziyada mövzu axtarışları ilə əlaqələndirən tənqidçi, əslində haqlıdır. Ancaq belə mövzular öz başlanğıcını 1970-1980-cı illər poeziyasından götürür, ölüm, Tanrı motivləri, Tanrıya müraciət, fəlsəfi düşüncə kimi motivlər 1980-ci illər poeziyasında artıq təsdiqini tapmışdı. "Söz oyunu", poetik fikirdə azadlığa meyllər bu gün də yeni modern poeziyanın mövzusudur.

R.Qaraca [6, s.111] doğru vurğulayır ki, hələ Sovetlər dönəmində ənənəvi şeirlə paralel yeni bir dəst-xətt yaranmışdı. O, bu dəst-xətti N.Hikmət yaradıcılığının Azərbaycan ədəbiyyatına təsirləriylə bağlamaqda haqlıdır. Müəllif həmçinin bu üslubun ən bariz nümayəndəsi kimi Ə.Kərimdən bəhs edir. R.Qaraca belə hesab edir ki, məhz şairin vəfatından sonra realist poeziyada tənəzzul yaranır, klassik və folklor ənənədən gələn təsirlər üstünlük təşkil edir. R.Qaraca R.Rövşən kimi, V.Bayatlı kimi şairlərin yaradıcılığında özünü göstərən yeni təsirləri mənfi hal kimi dəyərləndirir. Simvolikadan qaynaqlanan bulud, ay, göy üzü kimi obrazların şeirdə daimi təsvir obyektinə çevrilməsini, kədər, mücərrəd sevgi, ölüm, "qara paltarlı qadın", Allah axtarışları, mələk kimi motivləri nihilistcəsinə inkar edir. Halbuki biz yaradıcılığı mənfi hal kimi dəyərləndirilən R.Rövşən, V.Bayatlı kimi şairlərin bu günki poeziyaya müsbət mənada təsirini inkar edə bilmərik, əksinə bu təsirlərin geniş olduğunu görürük və aşağıdakı təhlillərdə bunu bir daha təsdiqləyəcəyik.

E.Akimova doğru olaraq, belə qənaətdədir ki, müasir poeziyada 1990-cı illərin xaotik durumunda baş verən proseslər, cəmiyyət hadisələrindən doğan çöküş fəlsəfəsi milli poeziyaya 1990-cı illərdən də əvvəl, hələ sovet dövrü ədəbiyyatında ayaq açır. Müəllifə görə, "çağdaş şeirimiz birmənalı təfsirə gəlmir, onun kökləri bir qədər dərinlərə işləyib mövcudluğunu bir-neçə onillik əvvəldə, sovet ədəbiyyatı daxilində yaranmağa cəsarət etmiş "son" problematikalı poeziya mətnlərində tapır. Poeziyada bu ovqat daha çox Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Bayatlı Ödərin yaradıcılığında intişar tapmışdır" [1, s.143].

Diqqət etsək, 1970-1980 -ci illərdən başlayaraq Azərbaycan ədəbiyyatında sərbəst şeirin yeni, fərqli nümunələrini görə bilərik. Məsələn, R.Rövşən Azərbaycan poeziyasında o illər üçün yeni bir nəfəs idi. Onun yaradıcılığında "Soğan acısı, dərd", Bu güzgüyə bir vaxt qoşa baxardıq", "Adamlari yemək olmur", "Analar aldatdı bizi", "Azad qadın", "Çərpələng uçuran bir uşaq kimi"," "O ğözlərə baxmaram...", "Dünya qəfil işıqlansa", "Qara paltarlı qadın", "Qorxu", "Köhnə məktublar", "Göy üzü daş saxlamaz", "Bir durna oxuyur", "Bu ağac öləcək" və s. kimi fərqli bənzətmələr poeziyada yeni dəst-xəttdən, yeni üslubdan xəbər verirdi. R.Rövşənin təsvir etdiyi obrazlar, qələmə aldığı mövzular həm fəlsəfiliyi, həm də qaldırdığı ümumbəşəri problemlərilə cəlb edirdi. Məsələn, şair müraciət etdiyi vətən mövzusuna yeni ideya gətirmişdir. Daha öncə, vətən mövzusunda yazılan şeirlərdə vətənin gözəlliklərini, təbiətini, el-obalarını tərənnüm təsvirləri yer alırdısa, R.Rövşən yaradıcılığında bu mövzuya artıq fərqli yanaşma var idi.

"Səni sevmək çətindir, Vətən, nə gündəsən ki" [8] söyləyən şairin şeirində vətənin real mənzərəsi təsvir olunur. Daha çox ağını xatırladan "Vətən, səni sevmək çətindir" adlı bu şeirdə müəllif ideyası yenidir, onu "için-için ağladan" vətənin ağrı-acılarıdır ki, şairin özünün də təsdiqlədiyi kimi bunu dilə gətiməyə həm qorxur, həm də utanır. XX əsrin sonlarında Azərbaycanda baş verən hadisələr fonunda yazılan bu şeirdə şairin ideya məramını "milli şüur və milli vicdan məsələsi təşkil edir" [2, s.32].

Allaha müraciət motivlərini R. Rövşənin 1970-ci ildə yazılmış şeirində görürük. Bu şeirində şair torpaqdan Allaha şikayət edir:

"*Bu nə torpaqdı, Allah?!*  
*Ürəyimin başından*  
*Qabardı-qalxdı, Allah.*  
*Bir ah çəkdim, ahımdan səpələndi,*  
*Qəbir kimi təpələndi üstümdə.*  
*Uddu,uddu,uddu bu torpaq məni;..."* [ 9, s.362].

Belə təsvirləri, Allaha şikayət, yaxud müraciət motivlərini şair V.Səmədoğlunun yaradıcılığında da müşahidə edirik. Müəllif ölüm, kədər, ayrılıq, üsyan, azadılığa çağırış, etiraz kimi motivləri önə çəkərək, özünəməxsus poetik təsvirlər yaradır, fəlsəfi və mənəvi məsələləri şeirin ideya mərkəzinə çəkir.

*Allah varmı,*  
*Yoxmu Allah?*  
*Nə bu gün, nə sabah,*  
*Bu sualın dənizinə*  
*girib, batan deyiləm.*  
*Bir də bunu bilmək üçün,*  
*Göyə dua yerinə,*  
*kəmənd atan deyiləm...* [11, s.227].

"Allah varmı?" deyən şair həqiqətin gözünə dik baxmağa çalışır. Haqq və ədalət axtarışında olan şair Allaha müraciətlə paralel olaraq, həm də ona üsyan edir.

Yuxarıdakı təhlillər sübut edir ki, son illərdə Azərbaycan şeirində müşahidə etdiyimiz poetik təsvirlər 1970-1980-ci illər poeziyasının avanqard şairləri Əli Kərimin, Ramiz Rövşənin, Vaqif Səmədoğlunun yaradıcılığında artıq mövcud idi. Ancaq bunu da nəzərə almaq lazımdır ki, 1970-

1980-ci illər poeziyasına qədər də Azərbaycan şeirində sərbəst vəznin maraqlı nümunələri vardı. Sərbəst şeir ənənəsi hələ 1920-ci illərdə Mikayıl Rəfilinin poeziyasında özünü göstərirdi. Daha sonra M.Müşfiq, Ə.Cavad, S.Vurğun, R.Rza və b.-ları bu vəzndə şeirlər yazdı. Sovet dövründə ədəbiyyatşünaslıq sərbəst vəzni yalnış olaraq R.Rzanın adı ilə əlaqələndirirdi. Bu ənənə, bəzən bu gün də təkrar olunur. Hətta Azərbaycan şeirinə, o cümlədən R.Rza yaradıcılığına rus şairi Mayakovskinin, ələlxüsus onun "Sovet pasportu" şeirinin təsirlərindən də bəhs olunurdu. Lakin qətiyyətlə demək lazımdır ki, Azərbaycan ədəbiyyatına Mayakovskidən öncə Nazim Hikmətin təsiri olmuşdu. Rus ədəbiyyatşünaslığı özü Mayakovskiyə təsirlərin Nazim Hikmətdən gəldiyini vurğulayır. Nazim Hikmətlə yaxın münasibətləri olan M.Rəfili onun şeirlərindən təsirlənərək Azərbaycan ədəbiyyatına yeni şeir forması gətirmişdir. Bu günki poeziyada da biz bu formanın yeni-yeni çalarlarını görürük.

Modernizmin mətn içində mətn anlayışı bu gün poeziyada da aktuallıq qazanır. Müəlliflər ideya-məzmunu, məhs assosativ fikirlərin təsviri fonunda ifadə edirlər. Məsələn Balayar Sadiqin "Dörd sualın cavabı" [10, s.9] adlı şeirində bu tendensiyanı görürük. Şeirin hər misrası ayrı-ayrı suallardır və müəllif bu sualların cavabını palçıqlı kənd yoluna bənzədir. Əslində suallara cavab tapmaq müşgül məsələdi, palçığa batan ayaq palçıqdan təmiz çıxmır, kirlənir. "Kişnəyən at", "hürən it" deyimlərinə assosativ olaraq müəllif "kişnəyən çöllər", "qaraltıya hürən ağaclar" ifadələrini işlədir. Müəllif oxucunu fəlsəfi düşünməyə ayrı-ayrı dağınıq mətnlər arasında əlaqəni tapmağa, "mətni istədiyi kimi oxumağa" təhrik edir. "Sükutun köynəyini cırıb kişnəyən çöllər", "qaraltıya hürən ağaclar", "yaddaşın ürək döyüntüləri", "uğursuz abuturiyentin əhvalı" kimi misralar sərbəst şəkildə bir xəstənin sayıqlamaları kimi ilk baxışda əlaqəsiz və mənasız görünür və mətni dərk etmək o qədər də asan deyil. Lakin burada müəllifin qoyduğu suallar fəlsəfi xarakteri ilə seçilir. Şeirin ideyasını oxucu (labirint kimi) özü tapmaladır. Müəllif demək istəyir ki, gecə döyülən qapılar sükutu pozur, yaddaşda iz buraxan ağrılar unudulmur, ürək ağrısına çevrilir, gecənin qaranlığı içində gizlənən sirlər, əslində nə vaxtsa faş olur. Ancaq nəticədə hər şey "palçıqlı kənd yoludur". Yəni insan paklıqdan, yaddaşdan, bəlkə də, ədalətdən, həqiqətdən uzaqdır. Şeirin ideyası da, məhz budur.

Belə təsvirləri müasir poeziyada tez-tez müşahidə edirik. Q.Nəcəfzadənin şeirlərində buna xas təsvirlər kifayət qədərdir. Müəllifin "Ay Vətən" şeirində yuxarıda bəhs etdiyimiz "Vətən, səni sevmək çətindir" şeiri ilə səsləşmələr diqqəti çəkir. Şeirlərdən birincisi heca, ikincisi sərbəst vəzndə yazılmışdır. Şeirlər Zəfərdən qabaq, torpaqlarımız işğal altında olarkən yazılıb. Adı çəkilən şeirlərin hər ikisində ağı janrının elementləri özünü göstərir. Q.Nəcəfzadə vətənin ağrı-acılarını dilə gətirir, faciələri sadalayır, vətən dərdini ictimai-sosial problemlər əvəzləyir, vətənin daxili düşmənləri ilə xarici düşmənləri qarşılaşdırılır.

*Mən bilmirəm axşam nədi, gün nədi?*
*Qız-gəlinin əsir-yesir gündədi.*
*Şuşam getdi, bir balam var, dinmədim,*
*Mənim kimi balan ölsün, ay Vətən*! [7, s.10]

Şair A.Mirseyidin şeirlərində də yeni deyim üslubu, assosativlik, mətn içində mətn yaratmaq ənənəsi diqqəti cəlb edir. Müəllif bir çox şeirlərində V.Səmədoğlunun, R.Rövşənin simvolik deyim tərzinin maraqlı çalarlarını izləyirik. Onun şeir kitablarını təhlil edən T.Əlişanoğlu doğru vurğulayır ki, modern üslubun bir çox xüsusiyyətlərini yaradıcılığında əks etdirən A.Mirseyid özünün şeirləri ilə bərabər bir sıra yazılarında da "Şərq genişliyindən gəlir, modernizmin dar "izm"lər dünyasına bənd olmur" [11].

Murad Köhnəqalanın şeirlərində tez-tez üslub dəyişikliyi özünü göstərir. Tənqidçilər onun yaradıcılığından bəhs edərkən qeyd edirlər ki, onun mövzu dairəsi əhatəlidir, eksperimentlər aparmağı sevir, mətndə xaos, qarmaqarışıqlıq yaradır. Bununla belə, düşünürük ki, onun apardığı eksperimentlər bəzən özünü doğrultmur. Nə məzmun-ideya baxımından, nə də forma elementləri

baxımından onları bədii-estetik nümunələr hesab etmək olmaz. Belə şeirlərdə şairin fikirləri aydın olmur, təsvirlər vulqar və uğursuzdur. Məsələn, şairin

*"Mən hansı bir meymuna*
*bənzədim ki, insanı*
*meymun onun yanında toya getməli olsun...* [5]

misralarında hansısa bədii-estetik məzmundan danışmaq mümkünsüzdür.

Şeir R.Rzanın sovet dövründə yazılmış ("Lenin poeması") əsərinin dekonstruksiyasıdır. R.Rza həmin şeirdə Lenini ("Mən hansı bir insana, bənzədim ki, Lenini...") tərənnüm edir. M.Köhnəqala da guya postmodern üslubun elementlərinə üz tutaraq şeiri destruksiya edir və "Mən hansı bir meymuna..." başlığı ilə heç bir ideya-məzmunu olmayan şeir yazır. Təbii ki, bu gün poeziyada əlaqəsiz fikirləri, dağınıq mətnləri tez-tez görürük və belə şeirlərdə fəlsəfilik önə keçir. Yuxarıda da bunların bəzilərindən bəhs etdik. Lakin M.Köhnəqalanın bu şeirində heç bir məntiq, məzmun, fəlsəfilik görə bilmədik. Belə şeirlərin modern poeziaya adı altında pərdələnərək çap olunması ikrah doğurmaqla yanaşı, həm də oxucu zövqünü korlayır.

**Nəticə**

Müasir poeziyada üslublar qarışır. Müstəqillik dövrü poeziyasının yeni nümayəndələri 1960-80 illər şairlərinin istər üslub, istər mövzu axtarışlarını davam etdirir, həm lirik-romantik, həm realist təsvir üslubarını fəlsəfi deyim tərzi ilə zənginləşdirir, düşündürücü, məntiq üzərində formalaşan modern poeziya nümunələri yaratmağa üstünlük verirlər. Hələ 1912-ci ildə İtaliyalı futuristlər bir bəyənnamə irəli sürmüşdülər. Həmin bəyannamədə (söhbət poeziyadan gedir) təxəyyülü ləngidən köməkçi nitq vasitələrindən uzaqlaşmaq təklif olunur. Bu və buna bənzər başqa qərbyönümlü bəyənnamələr təbii ki, sovet dövründə Azərbaycan ədəbiyyatında özünə yer edə bilməzdi (vurğulamaq istərdik ki, 1920-ci illərə qədər Azərbaycan ədəbiyyatında sərbəst şeir, onun maraqlı nümunələri avanqard poeziya adı altında formalaşmışdı. Hətta formalizm, simvolizm kimi ədəbi istiqamətlərlə ədəbiyyatşünaslıq tanış idi. Avropa təsirləri Türkiyə ədəbiyyatı ilə paralel Azərbaycan ədəbiyyatında da hiss olunurdu. Sovet işğalından sonra ədəbiyyatda yaranan yeni istiqamət realizm idi, onun özünəxas konsepsiyası vardı və bu konsepsiyadan uzaqlaşmaq asan məsələ deyildi). Müstəqillik dövrü poeziyasında artıq bu bəyənnamə bir növ təsdiqini tapır. Müasir poeziyada bədii təsvir və ifadə vasitələri, təşbeh və metaforalardan istifadə artıq dəbdən düşür. Bununla belə, bu ənənəni hələ ki, qorunur. Məsələn:

*Belə gündə*
*Darıxıram evimdə,*
*Musiqili filmdə*
*Sözsüz rol oynayan müğənni* ***kimi****...*/R.Rövşən/,

yaxud elə bil yüz illik çaxırdır hava

*Dadına baxanlar məst olasıdır.*
*Adamın içini çıxardar hava*
***Sanki*** *qız şıltağı, gəlin nazıdır.* /Aqşin/

Müasir poeziyada bir ənənə də yaranmağa başlayıb. Şairlər sanki şeir yox, şeir adı altında hekayə yazırlar. Nəsrlə nəzmin qarışması müasir modern üslubun bir xüsusiyyətinə çevrilib. Rus alimi Y.Tunyayev qeyd edirdi ki, elə bir zaman gələcək ki, şeirlə nəsrin arasında sərhəddi müəyyənləşdirmək mümkün olmayacaq. Lirik və epik əsərlərin funksiyaları birləşəcək. Başqa sözlə əsərin hansı janrda, yaxud növdə yazılmasının əhəmiyyəti qalmayacaq. Bu gün artıq bu fikirlər təsdiqini tapır. E.Zal, R.Qaraca, Yaşar, A.Mirseyid, H.Herisçi, F.Məmmədli və b. şairlərin şeirlərində bu cür təsvir üsulu yer alır.

Bu gün şeirdə durğu işarələri də ixtisar olunur. A.Mirseyid, R.Qaracadan yuxarıda gətirdiyimiz sitatlarda bunun şahidi oluruq.

## ƏDƏBİYYAT


1. Akimova, E. Çağdaş poeziya və ədəbi təmayüllər / E.Akimova. –Bakı: YYSİB (Q) Elektron kitab, N 53 (23 - 2018), –2018, –374 s.
2. Alıyeva, A. A. Ziya Göyalpın əsərlərində türkçülük və turançılıq ideyaları / A. A. Alıyeva // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2023. – Vol. 19, No. 2. – P. 31-34. – DOI 10.54758/16801245202319231. – EDN KZUVAH., https://www.elibrary.ru/download/elibrary_54235913_83363625.pdf
3. Cabbarlı, N. Yeni nəsil ədəbiyyatı / N.Cabbarlı. – Bakı: Nurlan, –2006, –173 s.
4. Cahangir, Ə. Ötən ilin ədəbi yekunları / Ədəbiyyat qəzeti. –2002, –3 may
5. Əlişanoğlu, T. Rənglər dünyasında / Ədəbiyyat qəzeti, –1999, –27 avqust
6. Köhnəqala, M. Şeirləri / M.Köhnəqala https://kayzen.az/blog/poeziya/6196/murad-k%C3%B6hn%C9%99qala.html
7. Qaraca, R. Çağdaş Azərbaycan şeiri haqqında açıqlama/ Alatoran. –2010, yanvar, –№ 15, s.111-117. https://www.academia.edu/6318499/alatoran
8. Nəcəfzadə, Q. Barış / Q.Nəcəfzadə. – 230 s. http://www.anl.az/el/Kitab/2019/10/cd/Azf-309387.pdf
9. Rövşən, R. İstədim son dəfə basım bağrıma/ R.Rövşən. https://analoq.az/%C9%99d%C9%99biyyat/2002/
10. Rövşən, R. Nəfəs kitablar kitabı/ R.Rövşən. – Bakı: Qanun, –2006, –760 s.
11. Sadiq, B. Allahın unutduğu adam / B.Sadiq. – Bakı: Yazıçı, –2010, –202 s.
12. Səmədoğlu, V. Uzaq yaşıl ada / V.Səmədoğlu. –Bakı: Şərq-Qərb, –2004, –264 s.


## РЕЗЮМЕ
## СТИЛИ И НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОЙ ПОЭЗИИ, ТЕМАТИЧЕСКИЕ ПОИСКИ

***Мамедова Т.К.***

***Ключевые слова:*** *тема Родины, тоска по земле, мотив победы, эпоха независимости, современная поэзия, модернистская поэзия*

В статье говорится о различных стилях и темах современной поэзии периода независимости а также разрабатываются литературно-теоретические и научные идеи в области поэзии. Рассмотрены мнения А. Джахангира, Э. Акимовой, Н. Джаббарлы, Р. Караджи, Т. Алишаноглу и других авторов о современной поэзии. Дан обзор авторов, оказавших влияние на современную поэзию, и их стихотворений. Анализируются модернистские поиски Р. Ровшан, В. Самадоглы и их влияние на современный литературный процесс. Традиция философствования, интертекстуальности, поиска духовности присутствовала и в поэзии 1980-х годов. В современной поэзии такие поэтические образы, как разлука, Родина, женщина, смерть, Бог и свобода, темы связанные с реальной жизнью, боли одиночества, призыв к политическому и национальному единству, потеря земли, радость победы, национально-духовные ценности, богоискательские мотивы, единство философских оттенков свидетельствуют об уникальном литературно-эстетическом образе мышления. Хотя возникновение этих образов и тем связано с общественно-социальными процессами времени, оно также является продолжением поиска идей в поэзии 1960-80-х годов. В статье анализируются стихи С.Балаяра, Р.Гараджи, Р.Ровшан, В.Самадоглы, Г.Наджафзаде и других поэтов.

**SUMMARY**
**STYLES AND TRENDS IN CONTEMPORARY POETRY, SUBJECT SEARCHES**
***Mammadova T.K.***

***Keywords**: the theme of the Motherland, longing for the land, the motive of victory, the era of Independence, modern poetry, modernist poetry*

The article talks about different styles and topics in the poetry of the period of independence, literary-theoretical and scientific ideas in the field of poetry are elaborated. The opinions of A. Jahangir, E. Akimova, N. Jabbarli, R. Karaca, T. Alishanoglu and other authors on contemporary poetry are examined. Authors influencing contemporary poetry and their poems are reviewed. The modernist searches of R. Rovsha and V. Samadoglu and their impact on the contemporary literary process are analyzed. In contemporary modernist poetry, the tradition of philosophizing, searching for spirituality, and creating a text within a text was also present in the poetry of the 1980s. In contemporary poems, interesting poetic images such as separation, motherland, woman, death, God and freedom, topics related to real life, pains of loneliness, call for political and national unity, loss of land, joy of victory, national-spiritual values, motives of seeking God, unity of philosophical shades indicates a unique literary-aesthetic way of thinking. Although the emergence of these images and themes is related to the socio-social processes of the time, it is also a continuation of the search for ideas in the poetry of the 1960s and 80s. The article analyzes the poems of S. Balayar, R. Garaja, R. Rovshan, V. Samadoglu, G. Najafzadeh and other poets.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 12.01.2024 |
| | Son variant | 26.02.2-24 |

**UOT 82-131** DOI 10.54758/16801245_2024_20_1_32

# КАРТИНА МИРА В АЛАНСКОМ ИСТОРИКО-ГЕРОИЧЕСКОМ ЭПОСЕ

**ХАПЧАЕВА ТАТЬЯНА ХАДЖИБЕКОВНА**

*Карачаево-Черкесский государственный университет,*
*Институт филологии имени У.Д. Алиева, Карачаевск, Россия, доцент*
tatyana_khap@mail.ru

***Ключевые слова:*** *язык, общество, контакты, экстралингвистические факторы, история, культура, менталитет, изменчивость лексики, традиции, обычаи, одежда, защита Отечества, набеги, заветы потомкам.*

В последние десятилетия стали чаще говорить о культуре во всех ее проявлениях. А слово это имеет много значений. В первую очередь культура подразумевает всю духовную и материальную стороны жизни общества. Другими словами - это мировая культура и национальные культуры, которые отражаются при помощи языков и созданных на них произведениях. И человек приобщается к этой культуре в процессе изучения, освоения мира.

А этого можно достичь только при этноязыковых контактах. И резуль-таты этих контактов отражаются на лексическом уровне. Этот факт отмечал Б.А. Серебренников [3, с.221-223]. Помимо непосредственных экстралингвистических контактов есть еще и государственная политика, определяющая развитие языков. Младописьменные языки СССР благодаря проводимой правильной национальной политике за короткое время обрели письменность, обучение на родных языках. Произошел культурный бум: появились переводы русской и зарубежной литературы на родные языки. Карачаево-балкарский язык вошел в это число.

«Духовная культура нации включает все этапы ее развития, начиная с самых ранних, архаических стадий, истоков народной культуры, традиционного мировоззрения, которое является стержнем духовной культуры этноса, т.к. складывавшееся веками, вобравшее опыт многих поколений мироощущение каждого народа заключает в себе целую гамму этнически окрашенных переживаний, без которых невозможен поиск человеком своего места в мире» [5, с.143].

На нем говорят карачаевцы и балкарцы, проживающие в Карачаево-Черкесской и Кабардино- Балкарской республиках РФ. За пределами России в Турции, Сирии, Европе и США живут потомки кавказских махаджиров. Как было отмечено выше, письменность на карачаево-балкарском языке появилась после победы Советской власти. Если жители двух республик имеют возможность говорить, учиться в школах и вузах, то карачаевцы и балкарцы, проживающие за пределами РФ, к сожалению, лишены такой возможности. До недавнего времени не было общения между теми, кто жил на исторической Родине и теми, кто оказался на чужбине. С развитием современных СМИ, появлением интернета появилась возможность общения между ними. У зарубежных носителей языка велико стремление познакомиться с жизнью своих соплеменников. За рубежом их родной язык функционирует только на бытовом уровне. Многие из них для того, чтобы научиться читать и писать на родном языке, самостоятельно изучают кириллицу и русский язык. Используют малейшую возможность приехать на историческую Родину и изучить родной и русский языки [6, с.314]. Какова же перспектива развития языка за рубежом? Сами носители считают, что недалеко

то время, когда под влиянием разных языков (турецкого, арабского и др.) их язык будет ассимилирован, т.е. в недалеком будущем изчезнет. Наша задача заключается в том, чтобы этого не произошло.

Язык есть самая живая, самая обильная и прочная связь, соединяющая отжившие, живущие и будущие поколения народа в одно великое историческое живое целое. [4, с.206]. А для того, чтобы эта связь не оборвалась: «Нужна оптимальная концепция национальной политики и национального развития, концепция цивилизованных национальных отношений» (Г. Г. Гамзатов: Язык – душа и имя народа).

Каждая национальная картина мира отображает менталитет народа. И через язык народа мы можем себе представить всю духовную культуру, которая отражается в религии, литературе, поступках людей, которые отличают этносы друг от друга.

Представления о мире и те знания, которые зафиксированы в языке –это то, что отличает этносы друг от друга.

Этногенез карачаевцев и балкарцев был превращен в неразрешимую проблему. Исследователи с сожалением отмечают тот факт, что не было своих специалистов, которые бы смогли на основании имеющихся источников, правильно осветить данную проблему. Этот вопрос до сих пор остается дискуссионным. И в разрешении этого вопроса большая роль отводится фольклорным текстам, в которых закодированы сообщения о прошлом. Этим объясняется не только научно-теоретическое, но и практическое значение фольклора в использовании духовного наследства

Для бесписьменных народов фольклор, нартские сказания и историко-героические песни остаются единственными источниками информации, откуда можно черпать наши знания о прошлом нашего народа. В них послание наших пращуров потомкам в иносказательной форме, передача всего накопленного за историю народа, его жизненный опыт. И наша задача заключается в расшифровке древних сказаний для использования в нашей сегодняшней жизни. Достоянием карачаевцев и балкарцев являются три монументальным эпоса – нартский, мифологический и историко-героический. Главное место в сказаниях о нартах отводится космогоничес-ким и космологическим мотивам, в которых нарты сражаются с врагами своей Земли, истребляя всякую нечисть в виде драконов, страшных великанов. Все в их жизни происходит по велению Тейри-хана. М.Ч. Джур-тубаев считает, что карачаево-балкарский мифологический эпос был создан «в период деградации тенгрианства и до принятия аланами ислама; он состоит из гимнов в честь богов и мифологических повествований» [1, с.21].

Остановимся на анализе языка историко-героического эпоса (XIII-XVвв.), в котором речь идет о противостоянии войскам Тамерлана(Акъсакъ Темир бла сермешле (Сражение с Аксак-Темиром), Азнаурну кюйю (Кюй по Азнауру), Чонг кала(Башня Чонг) и др. В этих песнях-плачах повествуется о тех неисчислимых бедствиях, которые пришлось пережить. В эпосе описывается подготовка к встрече с могущественным врагом, сама битва и результат битвы с превосходящим по численности грозным и жестоким врагом. Яркая картина предстает в следующем описании этой бойни: Къалабызны **къач къаннга-сын**, марап атып, Буза элле, буза элле.(Целились в крест крепостной и разрушали его)**; Акътотайла** жау къолуна тюшмейик деп Ау, къазла кибик, къаяладан аталла (Знатные женщины, не желая попасть в руки врага, словно гуси бросаются со скал). **Арба тохун** ёлчеу болуб ёрюмге, Жашчыкъланы башларын кесип алалла. Арба тохунлагъа ёлчеленнген жашлагъа (Колесо телеги служило приговором, т.е. убивали всех мальчиков, которые ростом были выше колеса). **Къан чериуле** туман болуп келелле;(Кровавые отряды надвигаются словно туман). Мен бу **согъушда** жан берсем(Если я в этом бою погибну). Аскерчини хар кюню той тюйюл, **согъуш-ду(**Жизнь воина это не праздник, а ежедневный бой). Жукълагъан заманында **къалауур** салады (Во время сна выставил часовых). Элибизде ёзденлени **къоду** бла жыйыгъыз Эй, хей, ингир ала сырт башлада **дыпла,** отла жансынла (Глашатаи, соберите,

объявите сбор воинов, к вечеру зажгите на вершинах сигнальные огни). Эки **къайырбеги** тоюп, чыгъа тебредиле (Два наевшихся телохранителя, стали выходить). Эски **обалад**а асрайдыла(Хоронят в старых склепах). Чыкъмады аланы не атлары, **не чуулары** (Они пропали вез вести). Къала, **тохана** бары чачылгъан эд(Крепости, дворцы все были разрушены). Къылычларын **къылкъайракъгъа** билейдиле **(**Заточками точат сабля**]**. Эй, хей, аталадан къалгъан эски садакъгъа **бакъма къой (Эй, дайте посмотреть на сабли отцов).** Атландыла, батылдыла **уллу орманнга,** ойра (Всадники исчезли в густом(большом)лесу).

Перед нами предстают страшные картины битвы за свою независи-мость, героизм и мужество защитников своей Родины. Лексический анализ свидетельствует о том, что много слов составляют архаичную лексику, в большинстве своем непонятную современному носителю языка. Методом сплошной выборки проанализируем материал 1 тома с точки зрения употребления слов в современном карачаево-балкарском языке. Архаичный материал предстает перед нами и в географических названиях, в именах собственных, названиях одежды, вооружения, еды:

а) в географических названиях -топонимах:

Акътопракъ, Ачей къала, Ахмат Къая, Ачысуугъа, Байлыкъ, Уллу Басхан, Бездирген, Борагъан, Букъа-Башы, Лыха-Башы, Бызынгы, Жалукъа, Жашы-рын Дорбунла, Ёрюзмек къала, Инал тёбе, Къала Сырт, Къарча сырт, Мезгич, Къапчыгъай, Жемегей, Мырзамек, Сибилда, Татартюпге , Ташлы Сыртда Чууанагъа, Эльджурт, Эменликле, Эндреуюк, Эсенлик, Заба, Гумайыл, Тагъа, Шам, Баба, Ючкум (Урусбиево).

Страшные эпидемия чумы и холеры, косившие народ также нашли отражение в историко-героическом эпосе: Шам Теберди тамыры бла къуруп къалгъан эд, Эллерине Эль Къырылгъан, Сынлы, Къырылгъан, Тёбеле, Джамагъат аталгъан эди (Священная(сосновая) Теберда вымерла вся, до корней. После чего населенным пунктам дали такие названия: Вымершее село, Надгробные памятники, Уничтоженные, Холмы, Джамагат);

Можно с уверенностью сказать, что системы личных имен при всей их немалой устойчивости всегда находятся в постоянном развитии и совершенствовании. Карачаево-балкарский материал ярко это иллюстрирует. Карачаево-балкарская антропонимика отражает всевозможные контакты этноса на протяжении своей истории [Хапчаева,2023: 339]

б) в женских именах: Акъкъуу, Асыл, Атийма, Боюнчакъ, Жумарукъ, Къарачач, Кегюрчюн, Къутлукъыз , Кюнсулуума, Минсели.

Оймакъ, Чомпарас -мать сновидений жукъу анасы;

в) в мужских именах: Асхакъ Темир, Биберт-бий, Гилястан, Гюргёкъа, Дюгербийни, Ёрюзхан, Жанкъуш, Жаубермез, Жюжей-батыр Иналукъ, Къамгъут, Къасполат, Къобал-батыр, Къусай, Къырымхан, Кючюк, Тохтамиш, Шаметти, Шибижия, Чюелди, Эльбуздукъ, Эльжорукъ;

г) в названиях женской и мужской одежды, вооружения:

***Кёк гюлменди** къысылгъанды тойлада,*
***Акъ гюлменди** кийилгенди отоуда*

Гюльменди – тонкие шелковые платки. На праздники повязывали платок с голубой каймой, а на свадьбу – с белой.

Надевали рубашки, брюки, войлочные шапки, сапоги, ноговицы, башлыки, наряды (верхнюю одежду) с газырями (Юслерине кёлек, кёнчек, кийиз бёркле, чарыкъ, ышым, башлыкъ, чепкен, хазырла).

Их вооружение составляли клинок, сабля, штык, кольчуга (Сауутлары къама, къылыч, сюнгю, кюбе). Кючюк с тоской (с трепетом) взял пистолет отца (Кючюк, атасыны **тапанчасын** тансыкълап, алгъанды). Знал, куда попадет брошенный им дротик (**Союл** атсанг, тиер жерин билиучю).

д) быт, описание местности: Алан Тюзю гюргюлюшге къалгъанды(На аланской долине (пляска)танцуют все). Тайларына **жеметей тамгъа** саллыкъды(Жеребят таврили

тамгой жеметея). Сора кенг бир **сарайда** орналыб къалады (Затем остановился в широком городе). Болмаса уа **сырларын** ачыкълаб къояр ючюн (А если не получится, то раскроет секреты). **Досча** келиб юйюме, душман болуп кетесе(Пришел ко мне как друг, а уходишь врагом). **Халджар** (загон)юйледе, жамчы **тюбюнде (Ночевали в загонах по бурками) . Суу къылычла (агъачла)** салыб, суугъа чыкъсала((Взяв коромысла, отправлялись за водой). **Заба**[кочка] юсю бла бир хыны да секирген эди **(**Перепрыгнул со злостью через кочку).

е) обычаи, занятия, характеристика героев: **Ант таякъ этиб тюбю бла ётдюле** (Дали клятву и прошли под палкой). Бирде **сатраш** ойнай(Иногда играли в шахматы**).** Къмичиле **чакъдыла**(взыграли плети); кёзлери бла **къычырымда** чибин кёзюн кёргенди(о зорком зрении: на далёком расстоянии видел (попадал) в глаз мухи).

Одним из развлечений знати являлся разбой, угон скота. К этому готовились заранее, подыскивали хороших проводников. Об этом повест-вуется в песне «Нарик улу Чора»: Атасы да Чорагъа **батасын** берген эди (Отец Чоры дал свое согласие). Тапдыкъ, узакъ да бармай**, кенчеклик**,- дедиле(Недалеко нашли то, что хотели - угнали скот).

Мы узнаем о родственных, сословных отношениях**:** эм**и**лдеши[молочный брат]**. Дигизасына** чапханды(Бросилась к служанке, сопровождавшей госпожу). Мен **хайран болдум,** тилим тутулуп, **Тос къатыны** болур ханны деп, келди кёлюме(Я был удивлен и подумал, что у него есть и тайная жена). Саркъгъан суу, **кёз жашларым** (Мои слезы как ручьи).

Для истории языка немаловажно сохранение в эпосе архаических грамматических глаголов:

*Жуукъ да болсакъ да, сабан ёгюзюнгю*
*Ай* ***соярмысан,***
*Биз да жуукъ болсакъ да,*
*Бизни къонакъ кибик,*
*Ой,* ***къоярмысан****, орайда?*

Вместо *соярмыса, къоярмыса*

**Название еды:** Ашаргъа **къазы бла жал** аллынга салгъан эдим (колбасу и жирное мясо подал тебе).

Чакъгъан **балли** терекле (Расцвели вишневые деревья**).**

Толу аякъны **токгъан эди**(Выпил полную чашу).

Проиллюстрируем архаизмы, встречающиеся во фразеологических оборотах:

**Тамам нарт къобханча да (Словно нарты (богатыри)встали).**

**Къап-къара кёсеу** болду (Превратился в черную-пречерную головешку)

Душманладан аланы **къанларын аллыкъма**! (Отомщу врагам!)

Алларына чыкъгъанны **эшиклерин жабадыла (**Убивают тех, кто встает на их пути).

**Келечиге уа ёлюм жокъ** деп, сёзю бар (Парламентёру смерти нет).

**Антымы ичге жутмам**, (Буду верен данной клятве).

**Кёнчекликге барыр кибик** сай бийле (Представители господствующих родов, готовые на разбойное нападение**).**

**Жол билмеген телисине азап чегер** (Тому, кто не знает дороги (метода, способа)по глупости придется туго)

**Уллу селешмегиз да уллу къабыгъыз** (Не говори гоп, пока не перепрыгнешь).

**Къоркъакълыкъдан ёт ашхы, аман жандан бет ашхы** (Лучше смерть, чем позор).

Жашауундан **къол жууду** (Потерял надежду выжить).

**Чёп сынмай аякъ тюблеринде**(Парить в небесах от счстья).

Ачемезни огъу чыпчыкъ кёзден **да** джазмайды (Ачемез стреляет без промаха Ачемез попадает точно в цель).

Карачаево-балкарским народом создано три монументальных эпоса – нартский, мифологический и историко-героический, в силу разных причин в полном объеме издан до сих пор.

## ЛИТЕРАТУРА


1. Аланский историко-героический эпос: [в 3-х томах] / сост. М. Ч. Джуртубаев. –Нальчик: Тетраграф, –Т. I. –2015. –656 с.
2. Романенко, А. П. Советская словесная культура: отечественная история ее изучения / А.П.Романенко // Вопросы языкознания. –2002. –№ 6. –с.118-139
3. Серебренников, Б.А. Общее языкознание / Б.А. Серебренников, –М. : Наука, –1970. –404 с.
4. Ушинский, К. Д. Избранные педагогические сочинения / К.Д.Ушинский, –М.: Учпедгиз,1945. –566 с.
5. Хапчаева Т.Х. Карачаево-балкарско-огузские параллели // Материалы Международной научной конференции «Роль художественной литературы в межкультурном диалоге». СГУ, 04-05. –Сумгаит, –2018. –с.143-145 https://sdu.edu.az/userfiles/file/conferences/KONFRANS%20-F%C4%B0LOLOG%C4%B0YA.pdf
6. Хапчаева Т.Х. Перспективы развития карачаево-балкарского языка // Материалы Международной научной конференции «Межнациональная интеграция: лингводидактические, лингвокультурологические и психолингвистические аспекты». СГУ, 19-20 декабря, –Сумгаит, –2019. –с.313-316 https://sdu.edu.az/userfiles/file/conferences/BEYN%C6%8FLXALQ_ELM%C4%B0_KONFRANSIN_MATER%C4%B0ALLARI.pdf
7. Хапчаева Т.Х. Имена собственные – источник изучения языка //Материалы Международной научной конференции «Гейдар Алиев и тюркский мир: общественные, экономические и культурные связи. СГУ, 04-05 мая, –Сумгаит. –2023, № 3, –с.349-351 https://www.ssu-conferenceproceedings.edu.az/pdf/filologiya_2023__.pdf



## XÜLASƏ

### ALAN TARİXİ VƏ QƏHRƏMANLIQ DASTANINDA DÜNYANIN MƏNZƏRƏSİ

***Xapçayeva T.X.***

***Açar sözlər**: dil, cəmiyyət, əlaqə, ekstralinqvistik amillər, tarix, mədəniyyət, mentalitet, lüğətin dəyişkənliyi, Adət-ənənələr, adətlər, geyimlər, Vətənin müdafiəsi, basqınlar, nəsillərə əhdlər*

Məqalədə alan tarixi və qəhrəmanlıq eposunun təhlili əsasında Qaraçay-balkar Cəmiyyətinin həyatının mənəvi və maddi tərəfinin formalaşması və inkişafı müzakirə olunur. Və bu məsələnin həllində keçmişlə bağlı mesajların kodlandığı folklor mətnlərinə böyük rol verilir. Bu məsələnin aktuallığı təkcə nəzəri tədqiqatda deyil, həm də folklor materialının Praktik əhəmiyyətindədir. Məhz müasir cəmiyyət tərəfindən mənəvi mirasın istifadəsində gənclərə vətənlərinə, mədəniyyətlərinə sevgi öyrətmək, əcdadların əhdlərini xatırlamaq.



## SUMMARY

### THE PICTURE OF THE WORLD IN THE ALAN HISTORICAL AND HEROIC EPIC

***Khapchaeva T.Kh.***

***Keywords**: language, society, contacts, extralinguistic factors, history, culture, mentality, vocabulary variability, traditions, customs, clothing, protection of the Fatherland, raids, covenants to descendants*

The article examines the formation and development of the spiritual and material aspects of the life of the Karachay-Balkarian society based on the analysis of the Alan historical and heroic epic. And folklore texts, in which messages about the past are encoded, play a big role in resolving this issue. The relevance of this issue lies not only in theoretical research, but also in the practical significance of folklore material. Namely, in the use of spiritual heritage by modern society, to teach young people love for their Fatherland, for their culture, to remember the precepts of their forefathers.



Daxilolma tarixi: İlkin variant 12.12.2023
Son variant 01.02.2024

**UOT 82`0** DOI 10.54758/16801245_2024_20_1_37

# ŞUŞA ƏDƏBİ MÜHİTİ “AZƏR” TƏXƏLLÜSLÜ İBRAHİM BƏY FULADOVUN YARADICILIĞI FONUNDA

**CABAROVA MƏDİNƏ AĞAKƏRİM qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d., müəllim*
*madina.cabarova@sdu.edu.az*

***Açar sözlər**: ədəbiyyat, XIX əsr, Şuşa, ədəbi mühit, Ibrahim bəy Azər*

1872-ci ildə “Məclisi-üns” ədəbi məclisi Xurşidbanu Natəvanın himayəsinə keçdikdən və onun yaşadığı saraya köçdükdən sonra Mir Möhsün Nəvvab bu məclisdə “unudulanlar”ı yeni bir məclisin - “Məclisi-fəramuşan”ın ətrafında toplamağa qərar verir. “Məclisi-fəramuşan” ədəbi məclisi Mir Möhsün Nəvvabın evində, axşam saatlarında təşkil olunurdu. Bu ədəbi məclisin üzvləri müxtəlif peşə sahibləri olduğu üçün yalnız işdən sonra bir araya gəlməyə müvəffəq olurdular. “Məclisi-fəramuşan” ətrafına yalnız şairləri deyil, dövrünün sayılıb seçilən elm və incəsənət adamlarını da toplamışdır. Müxtəlif mənbələrə istinadən deyə bilərik ki, bu ədəbi məclisin 40-a yaxın üzvü olmuşdur və onlar içərisində Qarabağda öz sənəti ilə şöhrət qazanmış xanəndə və sazəndələr də yer almışdır.

“Məclisi-fəramuşan”ın daimi üzvlərindən biri də İbrahim bəy Azər olmuşdur. İbrahim bəy Əli bəy oğlu Fuladov 1836-cı ildə Şuşada doğulmuşdur. Şair Qarabağın əsasını qoymuş Cavanşirlər tayfasının soy-kökündəndir. Ana babası XIX əsr Azərbaycan satirik poeziyasının böyük ustadı Qasım bəy Zakir idi. İbrahim bəyin qardaşları – Abdulla bəy Asi və Xudadad bəy də Şuşada öz qələmi ilə tanınan söz ustaları olmuşlar. Abdulla bəy və Xudadad bəyin təlim-tərbiyyəsi, təhsili ilə babaları Zakir məşğul olsa da, İbrahim bəy Azər Mehdiqulu xanın himayəsində böyümüşdür. 1925-ci ildə Salman Mümtazın redaktorluğu ilə nəşr olunmuş “Qasım bəy Zakirin əsərləri”ndə İbrahim bəyin atası Əli bəy Fuladovun Qasım bəyin qızı Nənəş xanımla evliliyi, Mehdiqulu xanla yaxınlığı, İbrahimin xanın himayəsində böyüməsi haqqında məlumat yer almışdır: “Əli bəy, nəhayət, Nənəş xanımı alıb toyunu etdi. Bu izdivacdan Əli bəyin 1251 1835/31 tarixi-hicri Zülcüməül həram ayının 19-cu günü axşamdan iki saat keçmiş bir oğlu oldu. Mehdiqulu xanın zükur övladı olmamağa görə onu oğulluğa götürüb öz atası İbrahim xanın adiilə adalandırdı və İbrahim xanın möhürünü uşağın cibinə qoydu. Mehdiqulu xan on yaşına kimi İbrahimi öz qucağında böyüdərək pərvəriş etdi” [1, s. 19]. Mehdiqulu xan öz övladı kimi sevdiyi İbrahimə mükəmməl təhsil verməyə çalışmış, onun sayəsində şair bir neçə dilə - ərəb, fars, rus dillərinə yiyələnmişdir. Mənbələrdə onun bir müddət rus məhkəməsində vəkil kimi fəaliyyət göstərməsi də yer almışdır.

Şairin doğum və ölüm tarixi haqqında müxtəlif mənbələrdə məlumat olsa da, ən dolğun və dəqiq məlumata Firidun bəy Köçərlinin “Azərbaycan ədəbiyyatı” əsərində rast gəlinir. Tənqidçi alim Azərbaycan ədəbiyyatına dair bu mötəbər məxəzdə İbrahim bəyin təvəllüd tarixini hicri təqvimi ilə 1251 (Miladi 1835), vəfatı tarixini isə hicri təqvimi ilə 1302-ci il (Miladi 1885) kimi göstərmişdir [2, s.132].

Mir Möhsün Nəvvab “Təzkireyi-Nəvvab”da qeyd edirdi: “İbrahim bəy Həllac Əli bəyin oğludur. Asinin böyük qardaşı, Qasım bəy Zakirin nəvəsidir. Yuxarıdakı tarixdən 6 il əvvəl vəfat edib.”Yuxarıdakı tarix” yazarkən Nəvvab təzkirənin İbrahim bəyin həyat və yaradıcılığından bəhs edən səhifənin yuxarı hissəsində yer almış “Cəmadiyəl-əvvəl, 1309-cu il, yanvar, 1892” qeydini

nəzərdə tuturdu [4, s.144]. Digər mənbələrə zidd olaraq Nəvvab şairin 55 yaşı olduğunu da vurğulamışdır: "Əlli beş yaşı var idi. Xoşəhval bir kişi idi" [4, s.144] .

Şair haqqında məlumat verən qaynaqlardan biri də Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsidir. Təzkirədə Məhəmmədağanın İbrahim bəylə bağlı qeydləri Mir Möhsün Nəvvabın şairlə bağlı verdiyi məlumatlar ilə üst-üstə düşür. Müctəhidzadə də müasiri Nəvvab kimi şairin doğum tarixini 1251, ölüm tarixini isə 1302 kimi göstərmişdir: "Məğfur Əli bəy isə rizvan-məkan mərhum Medi Quluxan Cavanşir həzrətlərinə müqərrəb bir şəxs imiş ki, xani-mərhum əksər işlərini müəzzəməleyhə rücü buyurarmış. Müxtəsər bu nüktəşinas ki, əvaxiri-ömründə dövlət əmrlərində vəkalət etməklikdə beyn-ən-nas məşhurdur, bu vilayətdə tarix min iki yüz əlli birdə ketmiədəmdən vücuda gəlib və sənəyi min üç yüz ikidə aləmi-fanidən dari-bəqayə rihlət edib" [3, s.159] .

AMEA Əlyazmalar İnstitutunda XIX əsr ədəbi məclislərinin fəaliyyətini müxtəlif əlyazma və cünglər əsasında tədqiq edən tədqiqatçı alim Nəsrəddin Qarayev "Poetik məclislər" adlı əsərində şairin doğum tarixini müxtəlif mənbələrə istinadən 1836-cı il kimi qeyd etmişdir. Bütün qeyd olunan faktları nəzərə alaraq belə bir qənaətə gələ bilərik ki, şair 50 illik bir ömür sürmüşdür.

İbrahim bəy Azərin ədəbi irsinə klassik üslubda, Azərbaycan və fars dillərində qələmə aldığı əsərlər daxildir. Amma təəssüflə qeyd etmək istərdik ki, bu əsərlərin böyük qismi əlimizə gəlib çatmamışdır. Nəvvab "Təzkireyi-Nəvvab"da İbrahim bəyin iki qəzəlini qeyd etmişdir. Aşiqin məşuquna müraciəti şəklində yazılmış bu iki şeir nümunəsi məzmunu, bədii təsviri baxımından şairin babası Qasım Bəy Zakirin klassik janrda yazdığı şeir nümunələrinə olduqca yaxındır. Bu mövzuda yazdığı şeirlərdə şair babasının məsləyinin ardıcılı kimi çıxış edərək dini ehkamları dünyəvi eşq ilə qarşı-qarşıya qoymuşdur. Onun əsərlərində saf məhəbbət dinin təbliğ etdiyi Kəbə ziyarətindən daha üstün hesab edilmişdir:

*Zahid, sən Kəbədə, mən onun kuyində qalım,*
*Bizim hər birimiz bir yerə ümid bağlamışıq.* [4, s.144]

"Gözlərin" rədifli digər qəzəlində şair əsiri olduğu qadın gözlərinin gözəlliyindən bəhs etmiş, özünü klassik poeziyada tez-tez rast gəlinən Fərhad, Məcnun obrazları ilə müqayisə etmişdir:

*Fərhad kimi mən kimiyə dağı dəldirir,*
*Şirin baxışlı xosrovü xubanə gözlərin.*

*Eşqin edibdi Azəri-dilxəstəni cünün,*
*Məcnunsifət salıbdır biyabanə gözlərin.* [4, s.145]

Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsində İbrahim bəyin farsca 2 qəzəli, 3 rübaisi verilmişdir.

Şairin həyatı və ədəbi irsindən əlimizə gəlib çatan qəzəlləri haqqında Firidun bəy Köçərli də məlumat vermişdir: "Abdulla bəyin öz qardaşı İbrahim bəy Əli bəy oğlu Fuladov "Azər" təxəllüs çox zərif, bakəmal və xoşxülq bir adam idi. Sinnidə Abdulla bəydən böyük idi" [2, s.132] . O qardaşı Asi ilə müqayisədə Azərin şeiriyyəsinin nisbətən zəif olduğunu qeyd etmişdir: "Təbi-şeriyyəsi dəxi var idi, amma bu qədər rəvan deyildi, necə ki, Abdulla bəyin təbi səri idi" [2, s.132] . "Azərbaycan ədəbiyyatı"nda Azərin iki qəzəli yer almışdır ki, bunlardan "Qəzəli-digər"qeydi ilə qələmə alınan nümunəyə sadalanan digər qaynaqlarda rast gəlinmir:

*Çün könül məhbusdur zülfündə, gəl bir rəhm qıl,*
*Vurma əl zəncirə zindan əhli qovğalənməsin.*

*Gər sənin eşqində Azər olsa rüsva, eybi yox,*
*Kuhkən Şirindən ötrünecə rüsvalənməsin?!* [2, s.132] .

Nəsrəddin Qarayev "Poetik məclislər" adlı kitabında şairin məhəbbət mövzulu 3 qəzəlini qeyd etmişdir ki, bunlardan biri "Təzkireyi-Nəvvab"da yer almış "Gözlərin" rədifli qəzəldir. Digər iki qəzəl yuxarıda şair haqqında məlumat verən mənbələrin heç birində yoxdur. Bədii sual üzərində

qurulmuş “Sormazlar” rədifli qəzəl poetik nöqteyi-nəzərdən rəngarəngliyi ilə diqqəti daha çox cəlb edir:

*Məgər, ey bivəfa, heç yar olan yarı sormazlar?*
*Əsiri-möhnəti-qürbət olan bimarı sormazlar?*

*Məgər qayib olan yarı xəyalə bir gətirməzlər?*
*Məgər gözdən düşüb yaddan çıxan əfkarı sormazlar?* [5, s.271]

Şairin ədəbi irsindən əlimizə çox az nümunə çatsa da, mövcud şeirləri XIX əsrdə Qarabağda təşkil olunan ədəbi məclislərin fəaliyyətini dəyərləndirməyə yardım edir.

## ƏDƏBİYYAT


1. Kərimov? R. Qasım bəy zakir və müasirləri / R.Kərimov. –Bakı: Elm və təhsil, –2013, –252 s.
2. Köçərli? F. Azərbaycan ədəbiyyatı: [2 cilddə] / F.Köçərli. –Bakı: Avrasiya Press, cild II, –2005, –464 s.
3. Müctəhidzadə, M. Riyazül-aşiqin / M.Müctəhidzadə. –Bakı: Azərbaycan nəşriyyatı, –1995, –248 s.
4. Nəvvab, M.M. Təzkireyi-Nəvvab / M.M.Nəvvab. –Bakı: Elm, –2018, –740 s.
5. Poetik məclislər: XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrinin yaradıcılığından seçmələr / tərt.ed. Qarayev N. –Bakı: Yazıçı, –1987, –525 s.
6. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri / N.Qarayev. –Bakı: Nurlan, –2010, –324 s.



## РЕЗЮМЕ
## ЛИТЕРАТУРНАЯ СРЕДА ГОРОДА ШУША НА ФОНЕ ТВОРЧЕСТВА ИБРАГИМ БЕКА ФУЛАДОВА ПОД ПСЕВДОНИМОМ «АЗЕР»
***Джабарова М.А.***

***Ключевые слова**: литература, XIX век, Шуша, литературная среда, Ибрагим бек Азер*

Одним из постоянных членов «Маджлиси-фарамушан» был Ибрагим бек Азер. Поэт - потомок племени Джаваншир, основавшего Карабах. Его дедом по материнские линии был Касым бек Загир, мастер Азербайджанской сатирической поэзии XIX века. В статье на основе различных источников изучены даты рождения и смерти Ибрагим бека Азера, а также проанализированы некоторые примеры художественного наследия поэта, дошедшие до наших дней. Изучение жизни и творчества поэта позволяет составить представление о деятельности литературных собраний, организованных в Карабахе XIX веке.

## SUMMARY
## SHUSHA LITERARY ENVIRONMENT İN THE BACKGROUND OF CREATIVITY OF IBRAHIM BEY FULADOV UNDER THE PSEUDONYM “AZER”
***Jabarova M.A.***

***Key words**: literature, XIX century, Shusha, literary environment, Ibrahim bey Azer*

One of the permanent members of “Majlisi-faramushan” was Ibrahim bek Azer. The poet is a descendant of the Javanshir tribe, which founded Karabakh. His maternal grandfather was Gasim bek Zakir, a great master of 19th century Azerbaijani satirical poetry. The article examines the dates of birth and death of Ibrahim bey Ozera on the basis of various sources, as well as analyzes some examples of the poet's artistic heritage that have survived to the present day. The study of the poets life and work allows us to create an idea about the activity of the literary meetings organized in Karabakh in the 19th century.



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 09.01.2024 |
| | Son variant | 29.02.2024 |

**UOT 821.** DOI 10.54758/16801245_2024_20_1_40

# FRİDRİX DÜRRENMATTIN DEDEKTİVİNDƏ KAİNATA VƏ İNSANA MÜNASİBƏTİN BƏDİİ TƏCƏSSÜMÜ

**MƏRDANLI HUMAY HÜSEYNBALA qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, doktorant*
banuuu2010@gmail.com

***Açar sözlər:*** *Fridrich Dürrenmatt, kainat və insan, usyankar yazıçı, ədəbi eksperiment, ənənəvi dedektiv, yeni dünya modeli*

Bir vaxtlar xarici ədəbiyytaşünaslıqda müasir İsveçrə ədəbiyyatının əslində ümumi Alman ədəbiyyatının bir hissəsi olması barədə, onun müstəqil ədəbiyyat kimi formalaşıb inkişaf edə bilməyəcəyi fikri hökm sürürdü. Lakin belə bir tezis də mövcud idi:Ya Isveçrə yazıçıları ölkədə baş verən mədəni proseslərdən kənarda qalmalı, ya da Alman və Avropa ənənələrinə qoşulmaqla, milli qidalandırıcı dəyərləri itirməli idilər. İsveçrə ədəbiyyatşünasları vəziyyətdən çıxış yolu kimi müxtəlif istiqamətlər göstərirdilər. İsveçrə ədəbiyyatını durğunluqdan çıxarmaq istəyən və xalqın milli kaloriti ilə qidalanan Fridrix Dürrenmatt nəsri, onun dedektiv romanları əyalətçiliklə avropalaşma arasında mütənasiblik yaratmaq üçün təqdim edilən kompromiss variantların parlaq nümunəsi hesab olunur. İsveçrənin alman dilli ədəbiyyatında dahi yazıçılardan olan F.Dürrenmattın ədəbi fəaliyyəti XX əsrin 40-cı illərindən sonrakı dövrü əhatə edir. F.Dürrenmatt həm xarici və həm də yerli tədqiqatçılar üçün görkəmli dramaturq, qrotest teatr ustası olaraq qalır.

Məqalədə, Dürrenmatt nəsrinə xas olan və onu öz dövrünün yazıçılarından fərqlənldirən üslub xüsusiyyətləri araşdırılır. Yazıçının “der Richter und sein Henker” romanı tədqiqat obyekti kimi götürülərək, klassik dedektiv romanlardan həm ədəbi cəhətdən, həm də dilçilik yönümdən quruluş fərqi tədqiq olunur.

XX əsrin I yarısında İsveçrədə tam demokratiya və xüsusi inkişafın mövcudluğu barədə yaranmış milli mifi məhv edən “nahamvar, üsyankar yazıçılar” nəsli formalaşdı. Baxmayaraq ki, İsveçrə I və II Dünya müharibəlrindən kənarda qalmışdı, məhz bu müharibələrin faciəviliyi, həmin yazıçıların dünyagörüşünü formalaşdıran əsas faktor oldu. Bəşəriyyətin və mədəniyyətin tənəzzülünü, varlığın absurdluğunu sübut edən müharibənin eskataloji anlamı ədəbiyyatda yazıçılar tərəfindən yeni dünya modeli və yeni insan konsepsiyasının yaranmasına təsir etdi.

Heç şübhəsiz daim öz yaradıcılığında oxucunun daxili aləmini silkələyən, standart düşüncə tərzini dəyişməyə çalışan Fridrix Dürrenmatt “usyankar yazıçılar” nəslinə aiddir. Məhz bu sıradan olması, Dürrenmattın nəsr əsərlərinin, kütlə ədəbiyyatı kimi tanınan polis romanlarından çox fərqli xüsusiyyətlərə malik olmasını ortaya qoyur. Belə ki, yazıçının əsərlərində dövlətin kollektiv ənənələrə sadiq olan siyasətinə qarşı tənqidi münasibət aydın sezilir. Buna görə də, Alman dilli ədəbi məkanda Fridrix Dürrenmatt,özünəməxsus əsərləri və intellekti ilə dünya ədəbi xəzinəsini zənginləşdirən dramaturq, dedektiv ustalarından hesab olunur. Dürrenmatt yaradıcılığından olan “Der Besuch der alten Dame”, "Die Physiker", “Der Meteor" adlı komediyalarıxarici tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Lakin onun silsilə dedektiv romanları da diqqətdən kənarda qalmamalıvə oxucu tərəfindən mənimsənilməlidir.F.Dürrenmatt dünyanın nizamsızlığı barədə onda formalaşan fikirlərə bütün yaradıcılığı boyu sadiq qalmiş və eyni fikirləri bütün müsahibələrində təkrarlanmışdır. Ümumiyyətlə, təkrarlanan, lakin aktual səciyyəli mövzular Dürrenmatt yaradıcılığı üçün xarakterikdir.

F.Durrenmatt yüksək, fərqli intellektuallığa malik nəsr ustasıdır. Onun nəsrində adi hala çevrilmiş xüsusiyyətlərdən biri mübahisələrin açılmaması, fikir və mülahizələrin inkişaf etməməsidir. İnsan qabiliyyətlərinin son həddini axtarmaqdan usanmayan və bunu "Əsl yazıçı əməyi" adlandıran yazıçı, bu bədii oyunda kamilliyə çatanlardandır. O, insanın yatmış şüurunu oyatmağa, məntiqi nəticə çıxartmağa və gündən-günə qloballaşan, texnikiləşən dünyada insanın dəyərinin nisbi olduğunu ortya qoymağa çalışmışdır. İlk baxışda yazıçının əsərlərində fantastikanın üstünlük təşkil etdiyi görünməkdədir. O, qrotesk situasiyaları sosial qanunlar əsasında qurmağa çalışmış, cəmiyyətdə insanın öz daxili aləmi ilə ümumi maddi rifahı qarşı-qarşıya qoymuşdur. Buna görə də məhşur dedektiv ustası, İsveçrədə "xoşbəxt cəmiyyət"in ənənəvi dəyərlərini bəyənməyən birisi kimi qiymətləndirilmişdir. Yazıçıya xas olan üsyan ruhu, müasir əxlaq normalarını tənqid etmək və stereotiplərdən imtina F.Dürrenmatt nəsrinin problematikasını və bədii xüsusiyyətlərini müəyyənləşdirirdi. Ədəbiyyatşünas V.D.Sedelnikə görə, F.Dürrenmattın yaradıcılığı İsveçrədə mübahisəli ədəbi durum ilə səciyyələnən mədəni proseslərin baş verdiyi dövrü əhatə edir [3. s.19].

Q.Knappın alman ədəbiyyatşünaslığında qəbul olunmuş nöqteyi-nəzərinə əsasən Dürrenmattın yaradıcılığı bir neçə etapdan ibarətdir [4. s.97].

Yazıçının 1943-1951-ci illər ərzində yazdığı qısa hekayə və novellaları "Die Stadt" adlı toplusunda yer alıb. Müəllifin erkən nəsri ilə yanaşı Bazel və Sürix teatrlarında səhnəyə qoyulan "Der Blinde", "Romulus der Große", "Die Ehe des Herrn Missisippi" adlı ilk drammatik əsərləri də yarandı. 1951-ci ildə Dürrenmatt həm də "Der Richter und sein Henker" və "Der Verdacht" adlı iki dedektiv roman üzərində işlədi.

F.Dürrenmattın yaradıcılığının növbəti dövrü1952-1966-cı illərə təsadüf edir. Bu dövr müəllifin dramaturoloji bacarığının ön plana keçməsi ilə xarakterizə olunur. Eyni dövrdə həm Dürrenmatt "Der Besuch der alten Dame", "Die Physiker" əsərləri ilə, həm də onun həmvətəni Maks Friş öz yaradıcılığı ilə II Dünya müharibəsindən sonra yaranan boşluğu doldurdular. F.Dürrematt 1954-cü ildə nəşr etdirdiyi "Probleme des Theaters" adlı yazısında, əsas tezis kimi komediyanın cəmiyyətdəki reallığı əks etdirən əsas janr olduğunu irəli sürürdü.

1967-1972-ci illər Dürrenmattın yaradıcılığında üçüncü etapdır. Bu zaman kəsiyində o, dramatik əsərlər olan "Porträt eines Planeten", "Es steht geschrieben" üzərində işlədi. Amerika səyahətindən qayıtdıqdan sonra "Sätze aus Amerika" adlı publisist esse yazan yazıçı, 60-70-ci illərdə "Porträt eines Planeten" və "Der Mitmacher" pyeslərinin uğursuzluğu ilə əlaqəli yaradıcılıq böhranı yaşadı.

Yazıçının yaradıcılıq fəaliyyətinin yekunu kimi qiymətləndirilən 1973-1980-cı illər dördüncü etapdır. "Stoffe" məhz bu zamanda yazılan əsərdir. Bundan başqa, 1978-ci ildə İsveçrənin Sürix şəhərində Dürrenmattın rəssamlıq sərgisi baş tutdu. Yazıçının özünəməxsus dünyagörüşü çəkdiyi rəsm əsərlərində də əks olunurdu. Bu hadisə dramaturq üçün böyük əhəmiyyət kəsb edirdi.

Beşinci etap F.Dürrenmattın dramaturgiyadan uzaqlaşması ilə səciyyələnən 1981-1990-cı illəri əhatə edir. Bu dövrə aid olan "Justiz","Durcheinandertal" kimi dedektiv romanlar, eləcə də, novella, povest və hekayələr fəlsəfi ruhu ilə seçilən əsərlər hesab olunur. G.Knapp məhsur dramaturq və dedektiv ustasının fəaliyyətində "Weihnacht" (1943), "Der Folterknecht" (1943), "Der Sohn", "Der Alte" (1944-45), (1947), "Die Stadt" (1947), "Der Hund" (1951), "Der Tunnel" (1952), "Aus den Papieren eines Wärters" (1952) kimi ədəbi nümunələri 40-50-ci illərin erkən nəsrinə aid etmişdir. "Das Sterben der Pythia" (1976) hekayəsi, "Justiz" (1985) adlı dedektiv roman, "Minotaurus" və "Der Auftrag"adlı povestlər isə 70-80-cı illərin nəsri hesab olunur [4. s.34].

F.Dürrenmattın nəsri, eyni zamanda dramaturgiyası müxtəlif cərəyan və müasir ədəbi məktəblərin elementlərini özündə birləşdirən mürəkkəb fəlsəfi-estetik hadisədir. Yazıçının nəsr əsərləri bütövlükdə onun yaradıcılığının vacib hissəsidir. Onun dedektiv nəsrində olan spesifik xüsusiyyətləri öyrənmədən yaradıcılığını qiymətləndirmək, müəllifin bədii irsi barədə natamam fikir formalaşdırar.

Dürrenmatt qaldırdığı problemlərin çoxşaxəliliyini şərh edərkən “Mən müşahidəçi deyiləm, hər şeyi özüm uydururam. Uydurduğum elementlərlə reallığı göstərirəm” deyirdi[5.169]. Digər ekspressionistlər Kafka və Brextdən fərqli olaraq, F.Dürrenmatt reallığı öz şişirdilmiş uydurmaları əsasında yaratmışdır. Yazıçı tərəfindən həqiqətlər qrotesk səviyyəsinə çatdırılmış, onların dərk olunmayan tərəfləri və görünməyən proseslər cəmiyyət və siyasətin timsalında göstərilmişdir.

F.Dürrenmatt “Der Richter und sein Henker” adlanan dedektiv romanında “Xeyir” və “Şər” deyilən iki qüvvəni üz-üzə qoymuşdur. II Dünya müharibəsindən sonra Şərin, geniş beynəlxalq əlaqələri olan nasist cinayətkarlarla eyniləşdirilməsi təbii haldır. Roman bir giriş, üç nəqletmə fazası və sonluqdan ibarətdir. Ümumilikdə 21 bölmədən ibarət olan bədii nümunənin məzmunundan aydın olur ki, mövzu yalnız baş vermiş cinayətin araşdırılması deyil. Dedektiv elementlərdən istifadə, eyni zamanda oxucunu oturuşmuş düşüncədən yayındırmaq istəyinə bağlıdır. Bəzi məqamlarda müəllif, klassik dedektiv roman xüsusiyyətlərinə sadiq qaldığını hiss etdirir. Romanın cinayətlə başlaması, insanlar haqqında məlumatın və cinayətin baş verdiyi məkanın dəqiqliyi ilə təqdim edilməməsi və s.

F.Dürrenmattı bu sahədə fərqləndirən özünəməxsusluqlardan biri də, oxucunu analitik təhlildən yayındırmaq və onu açılmayan tapmaca üzərində düşünməyə vadar etməkdir. Analitik təhlil və hadisələrin xronoloji ardıcıllıqla işlənməsi isə dedektivin janr xüsusiyyətidir. Eyni zamanda, Berlaxın Çansdan gizlətdiyi istintaq sirləri də oxucunun obraza olan güvənini azaldır. Gastmanın gizləndiyi yerin müəyyən edildiyi anda, itin Berlaxa hücüm etməsi də oxucunu yayındırma məqsədi daşıyır.

Roman boyunca, bir çox səhnələrdə Dürrenmattın çaşdırıcı priyomlardan ustalıqla istifadə etdiyini müşahidə edirik. Məsələn, Berlaxın itin hücumuna məruz qaldığı vaxt, səs-küy salmaması normal hal deyil. Oxucuda şübhə yaradan məqamdır. Lakin yazıçı tərəfindən ortaya qoyulan “taleyə inam” yanaşması oxucunun şübhələrini ört-basdır edir. Ümumiyyətlə, Berlaxın davranışları arasında oxucunu təəccübləndirəcək məqamlar çoxdur. Berlaxı digər komissar obrazlarından fərqləndirən cəhət, onun, göl kənarında tapılan maşının Bielə gətirilməsinə göz yumması və ya Çansla söhbətlərində cəsədi görmədiyini bildirməsidir. Romanda bəzi hallarda ən yaxın köməkçisi Çans da onun hadisələrə laqeyd münasibətini anlaya bilmir. Məsələn, onun Çansın hadisə yerinə tək getmək istəyini qəbul etdi və özünün evdə tək qalacağını bildirdi. Bu məqam Çansın özünə də qəribə göründü. Öz köməkçisini izləmə fürsəti əldə edən komissar Berlax strateji mövqeyi ilə onu çıxılmaz vəziyyətə saldı və bunu romanın sonunda etiraf etdi.

Yazıçı bəzi məqamlarda özü haqda şərhlər verir. Bu şərhlərə görə Dürrenmatt arxasında güc, dövlət, qadağa və cəza olmayan bir polis kimi insanların ən kiçik davranışlarını belə təhlil edəndir. Ümumiyyətlə, fərqli vəziyyətlərdə insanların fərqli davranışları F.Dürrenmattın həyatı boyunca araşdıracağı bir problem idi. Özü haqqında olan şərhlər yazıçının Qastman obrazına olan marağının səbəbini ortaya qoyurdu. Dürrenmatta görə Qastman hər cür cinayəti törədə biləcək obrazdır. Müxtəlif insanların fərqli situasiyalarda fərqli davranışlarından çıxış edərək, o, özü üçün bir Qastman obrazı formalaşdırmış və “Was ist der Mensch?” (İnsan nədir?) sualını ortaya qoymuşdur. Bu Berlax və Qastmann obrazlarının görünməyən tərəflərini üzə çıxaran, cavabı bəlli olmayan bir sualdır.

F.Dürrenmattın, üzərində tədqiqat apardığımız “Der Richter und sein Henker” romanında yazıçı eyni zamanda romanın ədəbi cəhətdən dəyərini və üslubi dəyərini də ortaya qoyur. Bəzi nümunələrdə müəllif romanın əsas obrazları barədə alçaldıcı və kiçildici ifadələrdən istifadə edir. Hətta bəzi səhnələrdə təhlükəsizlik orqanları əməkdaşlarından bəhs edərkən, bu tip ifadələrdən istifadə edərək, onları tənqid edirdi. Beləliklə, F.Dürrenmattın adı çəkilən romanı dedektiv janrda olsa da, ənənəvi dedektiv roman çərçivəsindən kənarda qalır.

***Nəticə:*** Dürrenmattın ən böyük uğurları dedektivlə deyil, dramla əlaqələndirilir. Ancaq, müəllifin dedektiv romanları onun yaradıcılığının “yan məhsulu” kimi qiymətləndirilə bilməz. Buna səbəb, yazıçının dedektiv romanlarında məhşur tragikomediyalardakı kimi ciddi və dünyəvi problemlərin inkişaf etdirilməsidir.

F.Dürrenmattın sələfi hesab olunan Fridrix Qlayzer ilə fikir eyniliyi olsa da, ideyalarını həyata keçirtmə metodları fərqlidir: Dürrenmatt paradokslarla işləməyi, oxucunu, abstraktın başladığı nöqtəyə, məntiqi düşüncənin son həddinə çatdırmağı üstün tutur.

Dürrenmatt dedektivə üz tutmaqla oxucuya, cəmiyyətin real problemlərini özündə əks etdirən əsərlər təqdim etmişdir.

## ƏDƏBİYYAT


1. Дюрренматт, Ф. Судья и палач / Ф.Дюрренматт, –М.: Полюс, –1990. –64 с.
2. Дюрренматт Ф.// Нова філологія. –Запоріжжя: ЗДУ, –2003. №1 (16) –С.167-172
3. Седельник, В. Парадоксы и предостережения Фридриха Дюрренматта // –М.: Издательская группа «Прогресс»; Харьков: Фолио, –1997, –С. 5-24.
4. Knapp, G. Friedrich Durrenmatt / G.Knapp, –Stuttgart, –Weimar: Metzler, –1980. –141 s.
5. Dürrenmatt, F. Theaterprobleme // Theater-Schriften und Reden. Bd.1,2. –Zürich, –1966. –98 S.


## РЕЗЮМЕ

## ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ОТНОШЕНИЯ К МИРОЗДАНЬЮ И ЧЕЛОВЕКУ В ДЕТЕКТИВАХ ФРИДРИХА ДЮРРЕНМАТТА

***Мерданлы Г.Г.***

***Ключевые слова:*** *Фридрих Дюрренматт, мироздание и человек, писатель-бунтарь, литературный эксперимент, традиционный детектив, модель нового мира*

В статье проанализирована уникальность детективных романов Фридриха Дюрренматта, драматургические произведения которого широко изучаются мировыми исследователями. Хотя детективные произведения А.Кристи, оставившей большое наследие в мировой литературе, привлекали внимание читателей, популярность детективов, способных представить читателю мир с иной точки зрения, стала снижаться. Причиной тому было почти отсутствие места для экспериментов в детективном жанре и отсутствие новой сюжетной линии. Ф.Дюрренматт вывел швейцарскую литературу из застоя, предоставив в своих криминальных романах много места экспериментам. Уникальность писателя в том, что пробуждая подсознание человека и делая логические выводы из происходящего, показал, что человеческая ценность обесценивается в этом хаотичном мире. В то же время произведения автора интересны и с точки зрения национально-нравственных ценностей, стоящих на фоне многогранной тематики.

## SUMMARY

## THE ARTISTIC EMBODIMENT OF THE ATTITUDE TOWARDS THE UNIVERSE AND HUMAN IN FRIEDRICH DURRENMATT'S DETECTIVE

***Merdanli H.H.***

***Key words:*** *Friedrich Dürrenmatt, universe and human, rebel writer, literary experiment, traditional detective, new world model*

This article will analyze the uniqueness of the detective novels of Friedrich Dürrenmatt, whose dramaturgical works are widely studied by the world researchers. Although the detective works of A. Christie, who left a great legacy in the world literature, attracted the reader's attention, the popularity of detective stories that were able to introduce the world to the reader from a different perspective began to decline. The reason for this was almost no space for experiments in the detective genre and the lack of a new storyline. F.Dürrenmatt rescued Swiss literature from stagnation by giving a lot of space to experiments in his crime novels. It is the uniqueness of the writer to awaken the subconscious mind of a person and to draw logical conclusions from what is happening, to show that human value is cheapened in this chaotic world. At the same time, the author's works are also interesting from the point of view of national and moral values standing against the background of multifaceted topics.

Daxilolma tarixi: İlkin variant 23.01.2024
Son variant 29.02.2024

УДК (IRSTI) 16.01.11 DOI 10.54758/16801245_2024_20_1_44

# INTEGRATION AND ADAPTATION PROCESS OF REPATRIATES IN KAZAKHSTAN (ON THE DATA OF ETHNIC KAZAKHS FROM FOREIGN COUNTRIES)

**TAZHIBAYEVA SAULE ZHAKSYLYKBAYEVNA** ORCID
**KOZHAKHMETOVA GULSARA AMANGELDIEVNA** ORCID
**ZHUMAY NURMIRA** ORCID

*L.N. Gumilyov Eurasian National University, Astana, Kazakhstan*
*1- Doctor of Philological sciences, professor, 2- Senior lecturer , 3- PhD, ass.prof.*
*tazhibaeva_szh@enu.kz, kozhakhmetova_ga@enu.kz, zhumai_n_3@enu.kz*

***Key words:*** *the kandas, repatriates, ethnic Kazakhs, migration process, demography, socio-economic rights, adaptation, integration, information support.*

## Introduction

Migration policy of Kazakhstan at the end of the XX and beginning of the XXI centuries took into account the social, legal and economic conditions in the regions where ethnic Kazakh repatriates (kandas) arrived. The majority of Kazak repatriates returned before 2010 were from China, Mongolia, Russia and Central Asian countries. During the border changes in history, ethnic Kazakh people living on their ancestors’ land that passed into another country were separated from their motherland and they are called *irredenta*. The people in distant countries such as Afghanistan, Turkey, Iran and European countries are considered *diaspora* [1].

More than 30 years after Kazakhstan gained independence and the historical period of important steps in the development of the state has to do with the returning of the Kazakh repatriates to their homeland. The most important contribution of the kandas is the impact to the natural growth and national composition of independent Kazakhstan, as well as the the revival of the Kazakh language, Kazakh national traditions, the cultural and spiritual life and the socio-economic development of Kazakhstan. It is essential to note the achievements of Kazakh repatriates as the highly qualified specialists and representatives of intelligentsia (doctors and scientists, military specialists, lawyers, teachers, etc.) in various fields.

It is known that such a crucial matter to attract and resettle the ethnic Kazakh repatriates to their historical homeland can go hand in hand with some socio-economic, legal issues, settlement and employment that need to be resolved.

As part of the scientific project “Mechanisms of integrating the ethnic Kazakhs from China and Mongolia to Kazakhstan: sociocultural and linguo-ecological monitoring” (2023-2025), we conducted interviews (2023) with the Kazakh repatriates of the first years of independence from Mongolia and China living in the Akmola region and Astana city (age 22-70). Interview participants mentioned social-economic, legal and employment problems they came across, lack of information support, and language barrier in the first period of repatriation.

The government of Kazakhstan has adopted a number of special state programs and laws to ensure the return of the kandas to their historical homeland. Many research works on the main issues of the kandas migration have been carried out and the historical, legal, economic, sociocultural, educational, and linguistic aspects of adaptation and integration have been identified.

The laws regulating the process of integration of repatriates, national repatriation and adaptation programs have been developed, and specialized research centers in this area have been created.

**Discussion**

The main issues of the adaptation and integration process of ethnic Kazakh repatriates in the last decade of the XX century and the beginning of the XXI century are *the status of migrants, the impact of the migration process on demography and national composition, socio-economic rights, economic integration, the adaptation to education and language adaptation as an indicator of integration in society*.

During the first stage of repatriation there was a need to determine the status of the people returned to their historical homeland. In the regulatory documents of the Republic of Kazakhstan, the Kazakh repatriates became known as “oralman” (returned people). In the Law of the Republic of Kazakhstan “On Migration of the population” of December 13, 1997 this term is defined as “foreigners or stateless persons of Kazakh nationality permanently residing at the time of independence of the Republic of Kazakhstan. People who arrived in Kazakhstan from the places outside of Kazakhstan for the purpose of permanent residence” [2].

The reasons of changes of the Kazakh repatriation concept and its equivalents, such as “indigenous peoples”, “oralman”, “repatriate”, “kandas” in scientific literature has been analyzed [3]. The legal and social reasons that have served to change the concepts of ethnic migration over the past 30 years show the ineffectiveness of the terms emerged from legal status and public opinion as scientific terms. Scientists emphasize the need to study repatriation in Kazakhstan not according to a global formula, but from the point of historical, regional, ethnic conditions, using special theories and methods. This term should describe the return of ethnic Kazakh repatriates to their historical homeland.

There are media that inform the population about any significant events in the state. It is important that this historical event as the return of ethnic Kazakh repatriates to homeland be reported primarily in the media.

The Kazakh press emphasized the need to promote the return of ethnic Kazakhs as a big strategic policy to increase the political, economic and cultural potential of Kazakhstan. B. Shurshitbay (2010), who has studied the articles and messages, press reports, government regulations, archival documents, statistical data, and official letters in the media of Kazakhstan, emphasizes the need for open discussion of the repatriation process in the media [4]. The pace and scale of repatriation, the potential of laws and regulations protecting the rights of kandas were reported in the Kazakh press “Egemen Qazaqstan”, “Zhas Alash”, “Shalkar”, “Kosh”, “Aiqyn”, “Zhalyn”, “Zhuldyz” , “Parasat”, etc.

In the 1990s, migration of non-Kazakh nationalities from Kazakhstan led to a worsening of economic and demographic situation in the country. At that period returning of the Kazakh repatriates from other countries was one of the priority issues. The necessity to analyze this issue from a historical and demographic point determines the relevance of natural population growth and ethno-demographic development. Historical demography makes it possible to analyze migration issues from the point of historiography, to identify the main line of historical trends, significant phenomena and to use historical knowledge [5]. The “titular nation of the country” achieved numerical superiority with the help of the kandas people. The Kazakh people in multinational Kazakhstan are considered the main force responsible for the development of a civilized, innovative and industrial society. Therefore, one of the most important issues for Kazakh society is the social adaptation of kandas. In this regard, the higher the level of social adaptation of kandas, the higher resource provided for a certain region, and, conversely, the difficulty of adaptation to the place of residence aggravates the social situation [6].

Another important issue of adaptation and integration of kandas in Kazakhstan is legal regulation. During the migration process, the status, life and resettlement of the kandas in the

regions of Kazakhstan are monitored. However, due to some shortcomings in the migration law of 1997, the first Kazakh repatriates faced many difficulties. These intractable problems included employment, provision of land, labor tools, equipment, a language training center (in Russian-speaking communities), possibility of receiving the migrant's property when moving from another country or financial compensation, accommodation of relatives in one region due to ethno-cultural characteristics etc [7]. The issue of **legal rights** includes the creation of a legal framework to ensure an effective and transparent public service, planning of regional settlement, granting citizenship in a short time, adaptation services by state and non-state organizations, availability of information, ensuring social and economic rights, etc. D.A. Zhampeisov, who studied this issue from a comparative legal point, notes about expanding the scope of subjects of adaptation activities in the law on migration [8].

The **economic integration**, which goes hand in hand with the social situation, includes the need to create special centers that provide detailed information on the temporary accommodation of repatriates and the process of adaptation. In order to develop state migration policy in Kazakhstan it was essential to focus on the content and structure of economic integration mechanism for the current and future migration development. M.T. Zhetesova proposes to establish a new line of scientific research on the kandas migration, and tells about the need to systematize the institution regulating the migration process and to determine its main areas [9].

One of the major issues is the adaptation of the kandas children to the educational system. Kazakhstan is the country where the innovative potential of the younger generation always have a strategic advantage. Adaptation to the educational process is the need to achieve psychological balance at the emotional, informational-cognitive, communicative and behavioral levels in a short period of time by effective methods and means of adaptation [10]. Forming patriotism, its structural and content model, components, indicator and level in accordance with the educational process is considered [11].

Great emphasis is placed on the education of repatriates, job market, and language adaptation as the key indicator of integration into social and cultural life. The language factor has a great influence on the choice of region of Kazakh repatriates, since existing language barrier is one of the obstacles to the integration process. Russian as a functional language in the regions of its dominance limited the possibility of successful integration of kandas into the job market, social and cultural life of the country. In the northern regions, the opportunity to get a job was reduced for people who do not speak Russian well. This is evidenced by the fact that the state offers more benefits to the kandas sent to the north. In this regard, there are a number of studies on the adaptation mechanisms to innovative trends in the education system, paying attention to the methodological aspect of bilingual education of kandas children in Kazakhstan [12]. The ethnic Kazakh students from other countries face the problem of learning Russian as a foreign language, and also the need to study Kazakh as a means of communication and educational process. To overcome obstacles at the first stage of adaptation of ethnic Kazakh students to the higher education system, we need to take into account their communicative characteristics. Scientists note that teaching ethnic Kazakh students in higher educational institutions under the national educational program must be resolved [13].

One of the main factors of ethnointegration as part of the unity of ethnic Kazakh repatriates in society is **the language**. Internal and external factors affecting the linguistic adaptation and integration of kandas, the cultural and language barriers of the Kazakh repatriates are current problems. A.M. Dosanova conducted a comprehensive study of the cultural-mental and linguistic similarities and differences between Kazakh repatriates and local Kazakh people, the peculiarities of language adaptation of kandas students, and the situation of "language barrier" in acculturation. The scientists emphasizes that the language adaptation of Kazakh repatriates is their complete integration into the cultural and communicative environment of Kazakhstan [15]. In this complex

and contradictory process of integration, there is a need to emphasize the function of language as the main factor of ethnointegration.

**Results**

On 13 May 2020, according to the amendments in the migration legislation of Kazakhstan the term "oralman" was replaced by "kandas", which reflects the status of repatriates more specifically. Firstly, a positive attitude towards the term "oralman" has not been formed over the past years. Secondly, the word "oralman" seemed to alienate rather than bring people together. The media have recently begun to use the word "kandas". The status of kandas is given to "ethnic Kazakh repatriates and (or) their family members of Kazakh nationality who previously did not have the citizenship of Kazakhstan, who arrived in their historical homeland and received the appropriate status established by the law" [16].

It is worth noting the impact of historical migration on social demography and national composition of Kazakhstan. We believe that the main result of this historical migration is increasing of Kazakh people in the number over the past 30 years. According to the census, the number of Kazakhs in 1979 was 36,0%, in 1989 – 39,7%, in 1999 – 53,4%, in 2009 – 63,1%, according to the 2023 census (11.14.23) – 70,4%.

A variety of resources for the ethnic Kazakh repatriates, who have arrived or planned to move to Kazakhstan are important for getting migration requirements and closing gaps in the migration process. There are some resources for providing information support such as the e-government portal eGov.kz, the non-profit joint stock company "Otandastar Kory" and the web platform "Erulik.kz", etc.

The "electronic government" portal (eGov.kz) has been created as a result of the program for the availability of communication between the people and the state. It has been operating since 2006 according to the decree of the President of the RK No. 1471 of November 10, 2004. This portal is highly effective in providing reliable information about the status and legal rights of the kandas, and benefits from the state.

The non-profit joint stock company "Otandastar kory" with the aim of supporting ethnic Kazakhs in foreign countries, it began its work in October 2018. To meet the challenges aimed at supporting the ethnic Kazakh people in other countries, the Government of Kazakhstan developed and approved an Action Plan for 2018-2022 (May 18, 2018). The web platform "Erulik.kz" created within the framework of the "Otandastar kory" covers various aspects of the migration process. The concept "Erulik" comes from a Kazakh custom of inviting the people (relatives, neighbors, etc.) who have moved to the aul to treat them. It is the tradition with deep instructive meaning that brings people together. The Center of adaptation and integration in the web platform "Erulik.kz" includes information and reference services, employment, professional training, retraining and advanced training, training courses on the history, culture and traditions of Kazakhstan, the basics of legislation and opening a small business, legal services, assistance in obtaining and registration of citizenship of Kazakhstan, guaranteed amount of free medical assistance, teaching Kazakh and Russian languages and assistance in state social assistance. This platform allows selecting a suitable settlement, taking into account the socio-economic development of the six regions of Northern and Eastern Kazakhstan and other information, the needs of the people planning migration. In addition, a map of the location of the kandas in all regions of Kazakhstan for the period 1991-2023 is proposed.

Within the framework of the project mentioned above, interview with the kandas from Mongolia and China includes the issues of their social position. According to the respondents, the situation of the Kazakh repatriates in the country has improved somewhat over the past 10 years. The survey participants noted improvements in information and media support on moving to the country. All interview participants gave positive opinions about the country's migration policy despite the difficulties they had faced. They pointed out the rapid adaptation of the younger

generation of kandas to the new educational environment, the relationship with the local population and the care of the state.

**Conclusion**

The ethnic Kazakh people repatriation has become a significant period in the history of our country. Therefore, many Kazakhstani scientists considered the main issues of repatriation and devoted their research to them. We considered the problems of adaptation and integration of ethnic Kazakh repatriates from different countries in historical, legal, economic, sociocultural, educational, and linguistic aspects. Currently, a number of work is being done to improve the solution of these issues. Particularly, worth noting is the impact of kandas repatriates on social demography and national composition, positive change in status of kandas, socio-economic rights, economic integration, adaptation to education and language adaptation.

Opening of information support contact center in April 2019 is a great success in the migration process. The centers for adaptation and integration of kandas operate in several cities of Kazakhstan. The website of government services and online information “electronic Government” and other web platforms provide information about the repatriates in Kazakhstan, assistance, benefits, adaptation. We emphasize that positive solving of some problems are the factors influencing the development policy of Kazakhstan, being the basis of directions that must be taken into account in the future.

**LITERATURE**

1. Мендикулова, Г. Казахская диаспора: история и современность / Г.Мендикулова, – Алматы: Всемирная Ассоциация казахов, –2006. – 283 с.
2. Қазақстан Республикасының 1997 жылғы 13 желтоқсанда қабылданған «Халықтың көші-қоны туралы» Заңы: // Электрондық ресурс: https://www.zakon.kz
3. Бұлбұл, Ш. Қазақ репатриациясы ұғымы турасында: сипаттамасы, түрі және ерекшелігі / Л.Н. Гумилев атындағы Еуразия ұлттық университетінің хабаршысы. Тарихи ғылымдар. Философия. Дінтану сериясы № 2(143)/2023. 108-бет.
4. Шуршитбай Б. Қазақ баспасөзіндегі оралмандар мәселесі: тарихи талдау (1991-2009 ж ж.) / Тарих ғылымдарының кандидаты ғылыми дәрежесін алу үшін дайындалған дисс. авторефераты. 07.00.02 мамандығы бойынша – Астана, 2010. – 24 б.
5. Еңсенов Қ.А. Қазақстандағы көші-қон процестері және оның зерттелуі (1926-1959 жж.)/ тарих ғыл. канд. ... автореф. – Алматы,– 2007. – 29 б.
6. Байғабылов Н.О. Атамекеніне оралған қазақтардың мемлекет құрушы ұлт талаптарына әлеуметтік сәйкестенуі / 6D050100 – Әлеуметтану Философия докторы (PhD) ғылыми дәрежесін алу үшін дайындалған диссертация / – Астана, 2013. – 134б.
7. Қозғамбаева Г.Б. Моңғолиядағы қазақ диаспорасының тарихы: өткені мен бүгіні: монография / Г. Б. Қозғамбаева; Әл-Фараби атын. Қазақ ұлттық ун-ті... – Алматы: Қазақ университеті, 2017. –201 б.
8. Жампеисов Д.А. Отандастардың (оралмандардың) оралуын құқықтық реттеудің өзекті мәселелері мен болашағы: салыстырмалы-құқықтық реттеу / 6D030100 «Құқықтану» мамандығы бойынша философия докторы (PhD) ғылыми дәрежесін алу үшін дайындалған диссертация / –Семей: Қазақ инновациялық гуманитарлық заң университеті. 2013. –135 б.
9. Жетесова М.Т. Механизм экономической интеграции оралманов в казахстанское общество: / автореферат диссертации на соискание ученой степени кандидата экономических наук / – Алматы, 2007. – С. 32.
10 Завалко, Н.А. Педагогическое сопровождение адаптации оралманов в образовательном пространстве Казахстана: Монография / Н.А.Завалко, С.А.Нургалиева, Б.Н.Бокаев, – Алматы: «Кітап», –2010. – 160с.

11. Сағындықов, А. Оқу-тәрбие процесінде оралман-тыңдаушылардың патриоттық қасиеттерін қалыптастыру: / Педагогика ғылымдарының кандидаты ғылыми дәрежесін алу үшін дайындалған дисс. автореферате / 13.00.01 мамандығы бойынша. – Алматы, 2010. –24 б.
12. Есказинова, Ж.А. Мектеп білім беру мазмұнын жаңғырту жағдайында оралман-балаларды қостілді оқытудың дидактикалық негіздері / Философия докторы (PhD) дәрежесін алу үшін дайындалған диссертация: / 6D011900 – Шетел тілі: екі шетел тілі. Акад. Е.А.Бөкетов атын. Қарағанды мем. ун-ті... – Қарағанды, 2018. - 165 б.
13. Шалғынбаева, Қ.Қ., Қажғалиева А.М., Нұржанова Ә.С. Студенттердің ЖОО-на бейімделуі ғылыми зерттеу нысаны ретінде // Л.Н. Гумилев атындағы Еуразия ұлттық университетінің Хабаршысы. Педагогика. Психология. Әлеуметтану сериясы, № 1 (126)/2019. –130-139 б.
14. Досанова, А.М. Этникалық қазақтардың тілдік интеграциясы мен бейімделуі: монография / А.М. Досанова; әл-Фараби атындағы Қазақ ұлттық ун-ті... – Алматы: Қазақ университеті, –2016. –165 б.
15. Бокаев, Б.Н. Этноязыковая идентификация и адаптация репатриантов казахстана: мониторинг языкового процесса: / 6D020500 – Филология Диссертация на соискание ученой степени доктора философии (Ph.D). Евразийский национальный университет им. Л.Н. Гумилева. – Астана, 2011. -179с.
16. https://egov.kz/cms/kk/articles/for_foreigners/kandas_rights_conditions.

**XÜLASƏ**

**QAZAXISTANDA REPATRİANTLARIN İNTEQRASİYASI VƏ UYĞUNLAŞDIRILMASI PROSESİ (XARİCİ ÖLKƏLƏRDƏN OLAN ETNİK QAZAXLARA GÖRƏ)**

***Tajibaeva S. J., Kojaxmetova G. A., Jumay N.***

***Açar sözlər:*** *kandas, repatriantlar, etnik Qazaxlar, miqrasiya prosesi, demoqrafiya, sosial-iqtisadi hüquqlar, adaptasiya, inteqrasiya, informasiya təminatı.*

Məqalədə uyğunlaşma və inteqrasiya prosesinin bəzi məsələləri və Qazaxıstana qayıdan və ya qayıtmağı planlaşdıran kandaslara siyasi, inzibati, hüquqi və informasiya dəstəyi göstərmək üçün müasir yanaşmalar müzakirə olunur.

Qazaxıstanın müstəqilliyini elan etdiyi dövrdə etnik qazaxların tarixi vətənlərinə qayıtması böyük əhəmiyyət kəsb edən xüsusi bir hadisə idi. Qazax repatriantları kandasovun ilk miqrasiyasının başlamasından 30 ildən çox vaxt keçdi (qazax dilində "eyni qan adamları"deməkdir). Etnik qazaxların repatriasiya prosesi bütün Qazaxıstanın siyasi, iqtisadi və mədəni potensialının artırılması üçün çox mühüm strateji siyasətdir. XX əsrin sonlarındakı bu tarixi hadisə sosial demoqrafiyaya, Milli tərkibə, unudulmuş ənənələrin dirçəlməsinə təsir etdi və digər müsbət dəyişikliklərə səbəb oldu. Məlum olduğu kimi, miqrasiya prosesinin həll edilməsi lazım olan sosial-iqtisadi, hüquqi və digər problemləri var. Kandasovun qaytarılması və köçürülməsinin ilk illərində bir çox çətinliklərlə üzləşdi. Bununla birlikdə, problemlərin həllinə müasir yanaşmalar "karvanın hərəkət etdikcə tənzimləndiyini"göstərir. Bu baxımdan Qazax repatriantlarının statusundakı bəzi dəyişiklikləri və nailiyyətləri, sosial-iqtisadi hüquqları, iqtisadi inteqrasiya, təhsil və dil uyğunlaşmasını nəzərdən keçiririk.

**РЕЗЮМЕ**

**ПРОЦЕСС ИНТЕГРАЦИИ И АДАПТАЦИИ РЕПАТРИАНТОВ В КАЗАХСТАНЕ (ПО ДАННЫМ ЭТНИЧЕСКИХ КАЗАХОВ ИЗ ЗАРУБЕЖНЫХ СТРАН)**

***Тажибаева С.Ж., Кожахметова Г.А., Жумай Н.***

***Ключевые слова:*** *кандас, репатрианты, этнические казахи, миграционный процесс, демография, социально-экономические права, адаптация, интеграция, информационное обеспечение.*

Integration and adaptation process of repatriates in Kazakhstan (on the data of ethnic kazakhs from foreign countries)

В статье рассматриваются некоторые вопросы процесса адаптации и интеграции и современные подходы оказания политической, административной, правовой и информационной поддержки кандасам, вернувшимся в Казахстан или планирующим вернуться.

Возвращение этнических казахов на историческую родину в период провозглашения независимости Казахстана было особым событием огромной важности. Прошло более 30 лет с тех пор, как началась первая миграция казахских репатриантов кандасов (по-казахски означает «люди одной крови»). Процесс репатриации этнических казахов является очень важной стратегической политикой по повышению политического, экономического и культурного потенциала всего Казахстана. Это историческое событие конца XX века повлияло на социальную демографию, национальный состав, возрождение забытых традиций и имело другие положительные изменения. Как известно, миграционный процесс имеет социально-экономические, правовые и другие проблемы, которые необходимо решить. В первые годы возвращения и переселения кандасов столкнулись со многими трудностями. Однако современные подходы к решению проблем свидетельствуют о том, что «караван регулируется по мере движения». В связи с этим мы рассматриваем некоторые изменения и достижения в статусе казахских репатриантов, социально-экономических правах, экономической интеграции, образовании и языковой адаптации.

| Daxilolma tarixi: | İlkin variant | 06.02.2024 |
| --- | --- | --- |
| | Son variant | 23.02.2024 |

**UOT 327.** DOI 10.54758/16801245_2024_20_1_51

# POSTKOLONİALİZM DİSKURSU VƏ DİL SİYASƏTİ

**NAĞIYEVA NƏRGİZ CƏLİL qızı** ORCID

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, s.e.f.d., dosent*
*nargiz_nagiyeva@mail.ru*

***Açar sözlər:** kolonializm, postkolonializm, dil siyasəti, kolonizator*

Məlum olduğu kimi, ümumiyyətlə dil siyasəti sosial vasitə olaraq özünəməxsus xüsusiyyətlərə malikdir. Onun sosial mahiyyəti ilk növbədə müəyyən mənada ideologiya ilə müəyyən edilir. Yaxşı məlumdur ki, müstəmləkəçiliyin hərbi modeli bu siyasətin hegemonluğunun qurulmasında yalnız ilk addımdır. Bu həm bahalı üsuldur, həm də uzunmüddətli perspektivdə müstəmləkəçiyə o qədər də fayda vermir. Bu səbəbdən müstəmləkələrin öz mövcud (real) vəziyyətlərini qəbul etmələri və müstəmləkəçilərə sadiq qalmaları üçün bir çox başqa üsullar (strategiyalar) irəli sürülmüşdür. Dil dominantlığının yaradılması, dil siyasətinin fəal şəkildə aparılması bu yollardan biridir. Müstəmləkəçi üçün işğal etdiyi ölkədə yerli dili öz dili ilə əvəzlənməsi onun ekspansionizmində və yerini möhkəmlətməsində mühüm faydalar verir.

**Giriş.** Tarixən Fransa, İngiltərə, Portuqaliya və İspaniya kimi dövlətlərin müstəmləkəçilik siyasəti dünyanın böyük bir hissəsinə yayılmışdır. Bu imperiyalar müstəmləkəyə çevirdikləri ölkələrin maddi sərvətlərini ələ keçirməklə kifayətlənmir, onların mədəniyyətinə də təsir və təzyiq edirdilər. Müstəmləkəyə çevrilən dövlətlərin yerli dilləri öz yerini metropolların (ingilis, ispan, portuqal, fransız) dili ilə əvəz edirdilər. Bu gün Hindistan, Əfqanıstan, Pakistan, Malaziya, Filippin və demək olar ki, bir çox Asiya ölkələrində iki və daha çox rəsmi dövlət dili mövcuddur ki, bu da kolonializm siyasətinin nəticəsidir. Yeni müstəqillik qazanmış dövlətlərin bir çoxunda dövlət dili statusunda "ikinci ünsiyyət dili" faktoruna da yer ayrılmasına dair faktlar var. Bu daha çox Mərkəzi Asiya və Afrika ölkələrində müşahidə edilməkdədir.

Bir ölkənin dilini dəyişmək onu ana dilindən uzaqlaşdırmaq və ona başqa, yad bir xalqın dilini qəbul etdirmək deməkdir, bununla da o ölkənin xalqının varlığını öz varlığı ilə əvəz etmək deməkdir. Edmund Spenser üçün dil şəxsiyyət və ölkəyə sadiqlik deməkdir; beləliklə, fəth edilənin dilini öyrənməyə məcbur etməklə onun şəxsiyyətini dəyişdirmək mümkün ola bilər [1].

Müasir postkolonial ölkələrdə müasir dil siyasətini daha dəqiq dəyərləndirmək üçün metropoliya dillərinin kolonial ölkələrdə yayılmasının və dil siyasətinin kolonial dövrdə həyata keçirtdiyi funksiyanın araşdırılması mühüm əhəmiyyət kəsb edir. Avropa dillərinin Afrikada, Latın Amerikasında, Asiyada və və digər kolonial ərazilərdə yayılması avropalıların bu ölkələri koloniyalaşdırması ilə sıx bağlıdır. İngilislər və fransızlar öz dillərinin müstəmləkələrində istifadə edilməsini məcbur edirdilər. [2, s.90]

Hələ ilkin çağlarda Avropa ölkələrinin feodal münasibətlərdən kapitalist münasibətlərinə keçməsi sənayenin, elmin, iqtisadiyyatın (ticarətin) inkişafı, işçi qüvvəsinə tələbatın artması avropalıların yeni torpaqların axtarılmasında xüsusi rol oynayıb. Kolonializmin inkişafına böyük coğrafi kəşflər də əsas təkan verdi. Avropa dilləri XIX əsrin ortalarından kolonial ölkələrdə artıq möhkəmlənməyə başlamışdı və bu da yerli əhalinin avropalılaşdırılmasına hesablanmışdı. Fərqli kolonial ölkələrdə avropa dilləri fərqli xüsusiyyətlər daşıyırdı və bu avropa dillərinin ərazi variantlarının yaranması ilə bağlı idi (hind ingilisi, Afrika portuqalı və s.).

Müstəqillik qazandıqdan sonra bir çox Afrika koloniyaları portuqal dilini dövlət dili elan ediblər və Anqolada, Mozambikdə, Qvineya-Bisauda, Kabo-Verde, San-Toma və Prinsipidə portuqal dili yüksək statusa malikdir. Məhz Avropa dillərinin ilk əvvəl avropalılar və yerli əhali arasında vasitəçi olması baçlanğıcda avropalıların və yerli əhalinin iqtisadi və texniki inkişafının səviyyəsi ilə əlaqədar müəyyən rol oynamışdır. Belə ki, Avropada elmin, texnikanın, sənayenin inkişafı koloniyalaşdırılmış ölkələrdən qat-qat yüksək idi.

Müstəmləkəçilər yaxşı bilirdilər ki, zəbt olunmuş ölkələrdə onların təsir dairəsi həmin ərazilərdə Avropa dillərinin yayılmasından asılıdır. Beləliklə, Avropa dillərinin müstəmləkə ölkələrində kök salması iki vasitə ilə həyata keçirilirdi: a) yerli əhali ilə ünsiyyət; b) həmin dillərin məqsədyönlü şəkildə həyatın müxtəlif sferalarına daxil olması. Müxtəlif kolonial ölkələrdə dil siyasəti fərqli idi. Belçika, Böyük Britaniya müstəmləkələrində aşağı administrativ səviyyələrdə və ibtidai məktəblərdə yerli dillərin istifadəsi qadağan deyildi. Fransız və portuqal koloniyalarında isə yerli dillər hər yerdən sıxışdırılmışdı. Kolonial Afrikada yerli administrasiya öz dilini genişləndirərək özünə yerli əhalidən köməkçilər yaradır və afrikalıları Avropa ideologiyasını təbliğ etməyə təşviq edirdi. Fransız kolonizatorlar öz hərbi iştirakını Afrikada gücləndirmək və ideoloji təbliğatı genişləndirmək üçün fransız məktəbləri açırdı. Bu məktəblərdə tədris və təlim yalnız fransız dilində aparılırdı. Yerli dillərdən istifadə isə qadağan idi. "Antil burjuaziyası öz qulluqçularından başqa heç kimlə heç vaxt yerli ləhcədə danışmırdı. Martinika məktəblərində yerli dialektlərə xor baxmağı təlqin edirdilər. Buna kreolizm deyilir. Hətta bəzi ailələrdə belə, yerli ləhcədən istifadə etmək qadağan idi və analar bu dialektdən istifadə etdiklərinə görə uşaqlarını "yaramaz gənclər dəstəsi" adlandırırlar" [6, s.16].

Təhsil sistemi vasitəsilə kolonializm Avropa mədəniyyətini yaymağa çalışırdı. Bu məktəblərlə yanaşı, dini qurumların rəhbərliyi altında missioner dini məktəblər də açılırdı. Bu məktəblərdə dərslər fransız dili ilə yanaşı yerli dillərdə də aparılırdı. Bu da xristian dininin tez yayılmasına şərait yaradırdı. "Fransız dilinə və yazısına görə yayılan xristianlıq "Mundele"(ağ) statusuna yaxınlaşmaq üçün vasitə idi. Xristianlığı qəbul etmək, ağlara birləşmək (ağ olmaq) və ağ insanların davranışlarına sahiblənmək deməkdir" [3]. Kolonizatorlar heç də kütləvi savadlanmanın tərəfdarı deyildilər, çünki bu sonda sosial partlayışa gətirə bilərdi. Buna görə də, təlimə cəlb olunanlar məhdud sayda idilər. Fransız dili fransız koloniyalarında vahid rəsmi dil elan olunmuşdur. Bu o deməkdir ki, bütün qanunlar, sənədlər, rəsmi yazışmalar və qərarlar yalnız fransız dilində nəşr olunurdu və yayılırdı. Kalvetin də qeyd etdiyi kimi, "dil işğalçılığın silahına çevrilir, əgər o üstün səviyyəyə qaldırılarsa və siyasi hakimiyyətin əlində olan əhalinin böyük hissəsi arasında paylanarsa istismar alətinə çevrilir [4, s. 64].

Qeyd etdiyimiz kimi, müstəmləkə dili müstəmləkə ölkələrindəki məktəblərdə tədris olunurdu, bu dili bilmək onların sosial irəliləməsinə kömək edirdi. Müstəqilliyini əldə etdikdən sonra postkolonial ölkələrdə dil siyasəti daha fərqli və mürəkkəb vəziyyət alır və kolonial dövrün bir çox xüsusiyyətlərini özündə ehtiva edir. Ötən əsrin 50-60-cı illərində milli-azadlıq hərəkatı nəticəsində kolonializmə son qoyulmuş və dünya xəritəsində bir çox müstəqil dövlətlər yaranmışdır. Bir çox yeni, müstəqil dövlətlər qazandıqları siyasi müstəqilliklərini möhkəmləndirmək üçün nəhayət sosial-iqtisadi, ideoloji, siyasi, təhsil, mədəniyyət və dil sahəsində müstəmləkəçiliyin fəsadlarından qurtulmağı qarşılarına vəzifə qoymuşdular. Bu ölkələrdə baş verən sosial-iqtisadi transformasiyalar cəmiyyətin sosial strukturunda dəyişikliklərə səbəb olmuş və nəticədə bir sıra yeni dil problemlərinin yaranmasına səbəb olmuşdur. Bundan əlavə müharibədən sonrakı dövrdə bütün dünyada iqtisadi əlaqələr dərinləşir və genişlənir. Bütün ölkələr, o cümlədən iqtisadi cəhətdən geridə qalmış ölkələr elmi-texniki tərəqqiyə cəlb olunur ki, bu da ilk növbədə dil problemlərini yaradır.

Müstəmləkə asılılığından qurtulmuş bir çox dövlətlərdə millətlərarası ünsiyyətdə keçmiş metropoliyaların dillərindən istifadə olunur. Beləliklə, ingilis dili Qambiya, Qana, Keniya, Nigeriya, Papua Yeni Qvineyanın rəsmi dili kimi tanınır; fransız dili - Qabon, Zair, Konqo, Mali, Niger,

Toqo; Portuqal - Anqola, Qvineya-Bisau, Mozambik. Bir sıra üçüncü dünya ölkələrində iki rəsmi (və ya dövlət) dil istifadə olunur: məsələn, Keniyada - ingilis və fransız; Ekvatorial Qvineyada - fransız və ispan; Tanzaniyada, Uqandada - suahili və ingilis dili; Pakistanda - Urdu və İngilis, Hindistanda - hindi və ingilis. İki vasitəçi dilə fərqli sosial status verildiyi dövlətlər var: bir dil milli, digəri isə rəsmi sayılır. Məsələn, Mavritaniyada milli dil statusu ərəb dilinə aiddir, fransız dili isə rəsmi dil kimi tanınır.

1908-ci ildə Mahatma Qandi yazdığı bir pamfletdə Hindistanın problemlərini ingilislərin deyil, hindlilərin üzərinə atdı - çünki onlar ingiliscə danışırdılar. İngilis dili zülmün simvoluna çevrildi və müstəqillik hərəkatı gücləndikcə onun kökünün kəsilməsi daha çox istənilirdi. [5]

1947-ci ildə Hindistan müstəqillik qazandı. Onlar 1965-ci ilə qədər ingilis dilini rəsmi dil olaraq saxlamağa qərar verdilər. Daha sonra Hindistanda ingilis dili öz-özünə məhv olacağı güman edilirdi. Amma bu baş vermədi.

Nəyə görə müstəqillik əldə etmiş onilliklərlə zülm və zülmətdə yaşamış postkolonial dövlətlər onları istismar edən, məhv edən müstəmləkəçi dövlətlərin dilini nəinki rədd etmir hətta dövlət dili olaraq istifadə edirlər?

Dil tək ünsiyyət vasitəsi deyil, dil insanın kökündür, hansı millətə mənsub olmasıdır, beləliklə dilini itirən insan millətini, soy-kökünü itirir, dilini itirən dövlət dövlətçiliyini itirir. Bu ölkələrin insanları artıq "hibrid "insanlara, ölkələr isə "hibrid" ölkələrə çevrilirlər.

Dillə müəyyən sosial qrup arasında güclü əlaqə var. Dildə danışmaq dünyanı qəbul etmək, mədəniyyəti qəbul etmək deməkdir. F.Fanon "Qara dəri, ağ maskalar" kitabında müstəmləkə kontekstində dil haqqında müstəmləkəçilərin müstəmləkəçinin dilini mənimsəməyə məcbur etmə prosesindən danışır, burada məqsəd, onun qeyd etdiyi kimi, dil mənimsənilməsini xüsusi tipli dəyərə çevirməkdir. Bunu da Fanon "epidermisin irqi quruluşu" adlandırır. "Antil adalarından olan qaradərili insan fransızca nə qədər yaxşı danışırsa, o, bir o qədər ağdır, yəni tam hüquqlu insana bir o qədər yaxındır. Dilə yiyələnən, bu dildə ifadə olunan və ehtiva olunan bütün dünyaya sahib olar. Düşünürəm ki, bununla hara getdiyimi təxmin etmək çətin deyil: dil bilmək insana müstəsna güc verir" [6, s.14].

Fransız dilini mənimsəmək, guya ağlıq keyfiyyətini əldə etməyə bərabərdir. Guya ağ olmaq istəyən Antilli qara adam dilə nə qədər yaxşı yiyələnsə, bir o qədər ağaracaq. Amma ağlıq keyfiyyətini əldə etməklə qaradərili heç zaman ağ ola bilməz və bu qaradərili Fransada heç zaman özünə yer tapa bilməyəcək və təəssüflə qeyd etmək lazımdır ki, o, öz ölkəsində və öz kəndindədə özünə yer tapmır, çünki özünü artıq ağdərili kimi hesab edir və öz həmkəndlilərinə yuxarıdan aşağı baxır.

Nəyə görə qaradərili ağdərili olmaq istəyir? Nəyə görə qaradərili ağdərilini özündən üstün hesab edir və eyni zamanda ağdərilidə özünü qaradərilidən üstün hesab edir?

Tarixi kontekstə nəzər salsaq, qaradərilinin fransızca danışmaq istəməsi açıq-aydın görünür, çünki bu dil əlli il əvvəl ona qadağan olunmuş qapıları aça biləcək və o, bir açar rolunu oynayır. Bizim təsvirimizə uyğun gələn bir antiliyalı dilin bütün incəliklərinə, bütün ləzzətlərinə yiyələnməyə çalışacaq, istədiyi mədəniyyət səviyyəsinə çatdığını özünə sübut etmək üçün bütün mümkün vasitələri axtaracaq [6, s.34].

Afrikada müstəmləkəçilik sisteminin süqutundan sonra yeni yaranmış Afrika dövlətləri milli dillərin və mədəniyyətlərin yaradılması və inkişafı, eləcə də xalqlarının etnik-mədəni kimliyini qoruyub saxlamaq problemi ilə üzləşmişlər. Hazırda Afrikada müstəqil və suveren dövlətlərin sayı 53-dür. Keçmiş müstəmləkəçi dövlətlərin dillərinin qorunub saxlanılması və onlara de-yure və ya de-fakto rəsmi dil statusunun verilməsi Afrika ölkələrinə bir sıra üstünlüklər verir. Bu ölkələrin hamısı həm keçmiş metropoliyaları ilə, həm də Afrikanın digər ölkələri və ortaq dili paylaşdıqları dünya ölkələri ilə sıx iqtisadi əlaqələr saxlayır. Onların rəsmi dilləri həm də BMT və YUNESKO daxil olmaqla, bütün əsas beynəlxalq dövlətlərüstü təşkilatların rəsmi dilləridir. Afrika ölkələrində yerli dillərin inkişafına və onların təhsil sisteminin bütün səviyyələrində təbliğinə yönəlmiş dil

siyasətinin mənfi nəticələri bir qədər sonra ortaya çıxdı. Müstəmləkə sisteminin dağılmasından bəri formal təhsilin milli reallıqlara uyğunlaşdırılması və bütün səviyyələrdə tədris vasitəsi kimi Avropa dillərinin tədricən yerdəyişməsinə şərait yaradılması məsələləri regionun bir çox ölkələrində gündəmdə olub. Tanzaniyalı təhsil tədqiqatçısı Valter Bqoya Afrikada ən çox yayılmış dil olan ingilis dilini "ixrac əmtəəsi və müstəmləkə fəthinin və hökmranlığının dili" adlandırır və belə bir fikri ifadə edir ki, "xarici dilin süni şəkildə tətbiqi təkcə dil səviyyəsinin deyil bu dildə mükəmməlliyə nail olur, lakin tələbələr öz ana dillərində səlis danışıq qabiliyyətini itirirlər" [7, s.283–292].

Fransız müstəmləkəçilər həmişə biliblər ki, onların işğal olunmuş ərazilərdə təsir dərəcəsi bu ərazidə fransız dilinin yayılma dərəcəsindən çox asılıdır. Müstəmləkəçilik təhsil sistemi vasitəsilə Avropa mədəniyyətini yaymağa çalışırdı. Ciddi sərhədlərlə məhdudlaşan və müstəmləkəçiliyin ehtiyaclarını ödəməyə yönəlmiş bu sistem əsasən Avropa sivilizasiyasının dəyərlərini əks etdirir və Afrika mədəniyyətlərinin məktəb sistemində təsirinin zəifləməsinə səbəb olur.

Müstəmləkəçiliyin gətirdiyi digər nailiyyətlər arasında Avropa həyat tərzi də az aparıcı yer tutmur. Beləliklə, fransız dili zəruri akkulturasiyanın aşkar vasitəsi oldu. Beləliklə, Afrikada fransız dili ilə bağlı iki yanaşma ortaya çıxdı: bir tərəfdən fransız dili olmadan mədəni, iqtisadi və siyasi inkişafın mümkünsüzlüyü ideyasının yayılması, digər tərəfdən isə fransız dilinin imperializmin və mədəni yadlaşmanın aləti olmağı ideyasıdır. Elə bir Afrika ölkəsi yoxdur ki, onun hökuməti fransız dilindən xilas olub, onu milli dillə əvəzləmək arzusunda olmasın. Fransız dilini yerli dillə əvəz etmək istəyi onun hələ də çoxları tərəfindən xarici dil kimi qəbul edildiyini göstərir. Əgər belə deyilsə, o zaman niyə fransız dilinin son vaxtlara qədər müzakirə olunmayan statusu bu gün bu qədər mübahisələrə səbəb olur? Aydındır ki, praktikada heç bir Afrika hökuməti bu gün fransız dilini yerli dillə əvəz etməyə cürət edə bilməz [8, s.93] .

Afrika ölkələri son illərdə müstəmləkəçilik üzərində qələbə nəticəsində müstəqillik əldə etmələrinə baxmayaraq, Avropa dövlətlərinin siyasi fəaliyyəti dayandırılmadı. Əksinə, forma və məzmunca xeyli dəyişərək, əhatə dairəsini genişləndirdi. Onu da qeyd etmək lazımdır ki, müasir Afrikada Avropanın mövcudluğu həm də gənc dövlətlərin iqtisadi və siyasi həyatına nəzarət etmək istəyi ilə müəyyən edilir.

Q.Çaliand bunu təsdiq edərək qeyd edir ki, Qərb ölkələrinin müstəqil Afrikada mövcudluğu mineral ehtiyatların istismarı imkanları, habelə hərbi-siyasi mülahizələrlə müəyyən edilir [9, s. 55].

Fransa hökuməti keçmiş müstəmləkələrin hökumətləri ilə texniki, hərbi yardım, maliyyə və mədəni əməkdaşlıq haqqında bir sıra müqavilələr bağladı. Keçmiş Fransa koloniyaları üçün Fransanın hərbi himayədarlığı xüsusi gücə malik idi, çünki hər iki tərəfin imzaladığı müqavilələrin məxfi maddələri həm xarici təcavüz, həm də daxili siyasi münaqişələr zamanı Fransanın hərbi müdaxiləsini nəzərdə tuturdu. Fransanın texniki yardımı çərçivəsində kənd təsərrüfatında islahatlarla bağlı bir sıra layihələr hazırlanıb. Fransa şəhərsalma və memarlıq sahəsində inventarların birləşdirilməsi və sənədlərin qaydaya salınması baxımından hakimiyyət orqanlarına əhəmiyyətli köməklik göstərir. Nəqliyyat və rabitə sahəsində dəmir yollarının bərpası layihəsi həyata keçirilir. Beləliklə, Fransa bu günə qədər Afrika cəmiyyətinin bütün sahələrində fəal iştirak edir və bu, təbii ki, müstəqil Afrika ölkələrinin inkişafında iz buraxır.

Bir sıra müasir tədqiqatçılar Afrikada ənənəvi olaraq "ağ" "yuxarı" sinfə və "qara" "aşağı" təbəqəyə daimi bölünmənin olmayacağı normal bir cəmiyyət yaratmaq üçün zəruri olan Afrika dillərinin dirçəlişində israr edərək bu strategiyanı davam etdirirlər.

Afrikada ağ "yuxarı" sinfə və qara "aşağı" təbəqəyə daimi bölünmənin olmayacağı normal bir cəmiyyət yaratmaq üçün zəruri olan Afrika dillərinin dirçəlişində israrlı olaraq bir sıra müasir tədqiqatçılar bu strategiyanı davam etdirirlər [10, s.191].

## ƏDƏBİYYAT


1. Achebe Ch. English and the African Writer // Transition. 1965. № 18.
2. Хантингтон, С. Столкновение цивилизаций / С.Хантингтон, –М.: Neoclassic, –2019. –640
3. Guth, S. La Republique Populaire du Congo: Ecole et Societe. These de troisieme cycle / S. Guth. –Strasbourg: Universite de Strasbourg II, –1973. – 480 p.
4. Calvet, L.-J. Linguistique et colonialisme. Petit traite de glottophagie / L.-J. Calvet. –Paris: Payot, –1974. –250 p.
5. Ганди, М. Хинд Сварадж, или Индийское Самоуправление / К 150-летию со Дня рождения Махатмы Ганди. Стрелкова Г.В. –М.: Наука – Восточная литература.– 2019, –135 с.
6. Фанон, Ф. Черная кожа, белые маски / Ф.Фанон, –М.: Музей современного искусства “Гараж”, –2022, –224 с.
7. Bgoya Walter. The Effect of Globalization in Africa and the Choice in Language Publishing // International Review of Education / Internationale Zeitschrift für Erziehungswissen- schaft / Revue internationale l’éducation. 2001. July. Vol. 47, No 3–4. P. 283–292.
8. Багана, Ж. Французский язык в Африке: проблемы интерференции / Ж.Багана; [отв. Ред. В.А. Виноградов]; Ин-т языкознания РАН. –М.: Наука, –2006. –163.
9. Chaliand, G. L'enjeu africain: strategie des puissances / G. Chaliand. - P., 1980.-167 p.
10. Базиев, А.Т. Язык и нация / А.Т. Базиев, М.И. Исаев. –М.: Наука, –1973. –247 с.



**РЕЗЮМЕ**

**ПОСТКОЛОНИАЛЬНЫЙ ДИСКУРС И ЯЗЫКОВАЯ ПОЛИТИКА**

***Нагиева Н. Дж.***

***Ключевые слова:*** *колониализм, постколониализм, языкова политика, колонизатор*

Как известно, языковая политика в целом имеет свои особенности как социального инструмента. Ее социальная сущность в определенном смысле определяется прежде всего идеологией. Эта тенденция в отношении языка наблюдается в высокоразвитых колониальных странах Западной Европы. Хорошо известно, что военная модель колониализма является лишь первым шагом на пути установления гегемонии этой политики. Это дорогостоящий метод, но в долгосрочной перспективе он не очень выгоден колонизатору. По этой причине было предложено множество других методов (стратегий), чтобы заставить колонии принять свое нынешнее (реальное) положение и остаться верными колонизаторам. Одним из таких путей является установление языкового доминирования, активное проведение языковой политики. Для колонизатора замена местного языка своим собственным языком в оккупированной им стране дает важные преимущества в его экспансионизме и укреплении своего положения.

**SUMMARY**

**POSTCOLONIAL DISCOURSE AND LANGUAGE POLICY**

***Naghiyeva N.J.***

***Key words:*** *colonialism, postcolonialism, language policy, colonizer*

As is known, language policy in general has its own characteristics as a social instrument. Its social essence is, in a certain sense, determined primarily by ideology. This language trend is observed in the highly developed colonial countries of Western Europe. It is well known that the military model of colonialism is only the first step towards establishing the hegemony of this policy. This is an expensive method, but in the long run it is not very beneficial to the colonizer. For this reason, many other methods (strategies) were proposed to force the colonies to accept their current (real) situation and remain loyal to the colonizers. One of these ways is to establish linguistic dominance and actively pursue language policy. For the colonizer, replacing the local language with his own language in the country he occupied provides important advantages in his expansionism and strengthening his position.



| Daxilolma tarixi: | İlkin variant | 16.02.2024 |
| --- | --- | --- |
| | Son variant | 23.02.2024 |

**UOT 903** DOI 10.54758/16801245_2024_20_1_56

# QARAÇAY TÜRKLƏRİNİN TARİXİ – ARXEOLOJİ ABİDƏLƏRDƏ YAŞAYAN QƏDİM TARİXİ

**ƏSƏDOVA AYTƏN VAQİF qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
ayten.esedova@sdu.edu.az

***Açar sözlər:*** *Qafqaz, Koban, Qaraçay-Malkar, türk , xalq , abidə*

**Giriş.** Tarixdə Qara-Bulqar və ya Koban Bulqarları kimi adlandırılan Qafqaz Bulqarları məhz Qaraçay-Malkar türkləridir. Qaraçay türkləri Qafqazda Elbrus dağının qərbində və şərqində dağlıq ərazilərdə, Qafqazın yüksək zirvələri olan Yuxarı Koban, Zelençik, Malka, Baksan, Çegem və Terek vadilərində yaşayırlar. Qaraçayların formalaşmasında tarix boyu bu ərazilərdə olan kimmer, skif, bulqar, hun, qıpçaq türk tayfaları iştrak etmişdir.Tarixçi alimlər bu türk boyunu bulqarların davamçısı adlandırırlar. Qaraçayların formalaşmasında ilk orta əsrlərdə Qıpçaq türklərinin böyük rolu olmuşdur. 1959-cu il 22-26 iyul tarixində Nalçik şəhərində “Karaçay-Malkar xalqının etnik formalaşması” adlı sempoziyum keçirilmişdir. Bu sempoziyumun sonunda belə bir nəticəyə gəlinmişdir ki, Qaraçay-Malkar türklərinin etnik formalaşmasında bulqar, alan, qıpçaq və müxtəlif xalqların rolu olmuşdur.Tarix boyu qaraçayların formalaşmasında Qafqaz xalqlarının da rolu böyük olmuşdu. Qafqaz mədəniyyəti və tarixini öyrənən E.P. Alekseyeva qeyd edir ki, bulqarların bir qismi Vll əsrdə Xəzər yürüşlərindən qaçaraq Qafqazda bu günkü Stavropol, Pyatiqorski, Koban, Narsana, Malkarya və Şimali Osetiyada məskunlaşmışdılar. Onlar burda alanlarla qarışaraq Qaraçay-Malkarları formalaşdırmışdırlar. Bir sözlə hunların və alanların nəvələri olan Qaraçayların kökü şumerlərə qədər gedib çıxır.

Vl əsrdən etibarən Orhon-Yenisey ərazilərində görünən Göytürk yazılarının kökü Qafqazdakı Runik yazılarıdır. Qaraçayların yaşadığı ən böyük yaşayış məskənləri isə Koban və Hurzuk yaşayış məskənləri idi. Qədimdə Qaraçaylar da Malkar və digər Şimali Qafqaz xalqları kimi bütpərəst idilər. İslam dininin yayılması ilə onlar da bu dini qəbul etmişdirlər.

Qaraçay türklərinin tarixi, mədəniyyəti, həyat tərzləri haqqında IV-XIX əsrlərdə Qafqazda olan Avropalı, Rus və Osmanlı səyahətşünasların, tarixçilərin əlyazmalarında geniş məlumat verilir. Vl əsr tarixçiləri qaraçay və bulqarlar haqqında 569-cu ildə çox önəmli məlumatlar vermişdi. Bildirilirdi ki, Xəzər qapısı – Dərbənd və Xəzər sahilləri hunların ölkəsidir . Onların yanında hunlardan başqa fərqli dillərdə danışan tayfalar da yaşıyırdı [10, s.20] .

Qaraçaylar haqqında məlumata 1404-cü ildə Qafqazda olmuş baş yepiskop G.Johannesin yazılarında da rast gəlinir. O da qaraçaylar haqqında “Qara Çərkəz” deyə bəhs etmişdi. Eyni zamanda 1635-1653-cü illərdə Qafqazda missionerlik fəaliyyəti ilə məşğul olan italyan A.Lambertinin yazılarında da rast gəlinir. Qaraçay-Balkar türkləri və ya Malkar adına tarixdə yazılı olaraq rus qaynaqlarında 1629-cu ilə aid bir məktubda rast gəlinir. Terek bölgəsinin Rus qarnizonunun komandiri olan İ.A.Daşkovun Moskvaya göndərdiyi məktubda bu bölgə haqqında danışılır. Məktubda Balkanların yaşadığı dağlarda, gümüş mədənində aparılan işlər barədə söz açılır [2, s.11]. Daha bir məlumat isə XlV əsrə aid gürcü mənbələrində verilir.

Qaraçayların yaşadığı ərazilər haqqında səyahətçi Evliya Çələbi orta əsrlərdə məlumat verir. Bu ərazilərin yüksək dağlıq bölgə olduğu, burada yaşayanların heç vaxt aşağı oymaqlara enmədikləri və “ Macar “ adlı oymaqdan bəhs edir. Bu Macar oymağının Balkanların əfsanələrində

adı keçən Macar şəhəri olduğu bildirilir. Arxeoloji tədqiqatlar nəticəsində bu şəhərin qalıqları müasir Sevestopol şəhəri yaxınlığında aşkar edilmişdir. Onuda qeyd etmək lazımdır ki, Macar şəhərinin adına qaraçayların qədim əfsanələrində də rast gəlinir. Tarixçi, qafqazşünas, türkoloq alimlərin fikirləri müxtəlif olsada, bütün yanaşmalarda qaraçayların bir türk olduğu təsdiq edilir.

Alman şərqşünası Moritz Vagner 1843-cü ildə qaraçaylar haqqında “ Elbrus Tatarları” deyərək bəhs etmişdir. Qeyd etmək lazımdır ki, bir çox yazılı mənbələrdə və ya qeydlərdə Tatarlar türk deyə izah edilirdi [11, s.94] .

Bulqar tarixçisi B.Simenov qaraçayların dillərini bulqar türk dilinin varisləri sayaraq, qaraçay dillərini Bulqar dillərinin davamı adlandırmışdır.M.F.Kırzıoğlu özünün yazmış olduğu bir çox yazılarda bulqar türklərinin qaraçayların ataları olduğunu qeyd etmişdir. Hətta Xll əsrdə Nizami Gəncəvinin şeirlərində bəhs etdiyi Qafqaz bulqarları məhz bugünkü Qaraçay-Malkar türkləridir .

Qaraçay türklərinin soy kökünün bulqarlarla bağlı olduğunu arxeoloq-etnoqraf İ.Miziyev də təsdiq edir.Miziyev bildirirdi ki, Bulqarların ilk birliyinin mərkəzi məhs Koban ərazilərində yerləşirdi. Qaraçayların formalaşmasında xüsusi ilə adı çəkilənlər sırasında qıpçaqları da qeyd etməliyik. Bizans mənbələrində Koman-Kuman, İslam qaynaqlarında Kıpçak, Rus qaynaqlarında isə Polovest adlandırılan Qıpçaq türkləri monqol yürüşlərinə qədər Qara dənizin şimal sahilləri və Qafqazı 200 ilə qədər hakimiyyətləri altında saxlamışdırlar. Bu isə bölgənin etnik tərkibinin və mədəniyyətinin formalaşmasına güclü təsir etmişdi [12, s.177-178].

**Qaraçayların arxeoloji abidələrdə yaşayan tarixi:** Qaraçayların yaşadığı ərazilərin tunc dövrü yaşayış məskənlərinin tarixi haqqında Qara dənizin şimalında eradan əvvəl 3300-2700-cü illər də Yanma və Afanasyev arxeoloji mədəniyyəti əsasında izləyirik. Maykop abidələrindən də bu ərazilərin qədim tarixi haqqında geniş məlumat alırıq. Tədqiqatçı alimlərin araşdırmaları, yazıları ilə yanaşı arxeoloji tapıntılar da qaraçayların türk olduğunu təsdiq edir.1930-cu illərin əvvələrində A.Miller Şimali Osetiyada arxeoloji araşdırmalar apararkən Bulqar türklərinə aid qulplu asma qazan parçaları tapmışdır. Miller tədqiqatlarında belə nəticəyə gəlmişdirki Yuxarı Kubanda (Kazak-Azak, Azov sahilləri) yaşayan bulqarların ataları daha əvvəl Qafqazda-Osetiyada və Malkarda yaşayan türklər idi. Onların bir qismi köç etmiş, bir qismi isə Qafqazda qalmışdılar [1, s.17 ] .

Qaraçayların yaşadığı ərazilərdə “Maykop və Koban mədəniyyəti” ( tunc-erkən dəmir dövrü- kimmerlər) mövcud olmuşdur. Bu mədəniyyətin ən əsas əlaməti məhz kurqan tipli qəbir abidələridir. Bu qəbir tipləri isə qədimdən türklərə aid olub, türklərin yaşadığı bütün ərazilərdə rast gəlinir. Bu formalı qəbir abidələri Qafqazda kimmer, skif tayfalarının dövründən (e.ə.Vll əsrdən), bizim eranın XVlll əsrinə qədər türk xalqlarının adət-ənənəsində qorunub saxlanmışdır. Kurqan mədəniyyətinin bu ərazilərdə olmasını təsdiq edən qəbir abidələri Nalçik ərazilərində tapılmışdır. Eradan əvvəl lV əsrlərə aid olan Nalçik məzarlığının skiflərə aid olduğu təsdiq edilmişdir. Tədqiqatlar zamanı Kurqan qəbirlərinə Malkarda Billim kəndində, Krasnodarda, Çeçen-İnquş ərazilərində bəzi kəndlərdə, Kabardey ərazilərində də rast gəlinir [5]. Arxeoloji tədqiqatlar zamanı bu ərazilərdə daş döşəməli dairəvi kurqanlar da aşkar edilmişdir. Bu məzarlardan müxtəlif çeşidli (ovçuluq ləvazimatları-ox ucluqları) daş alətlər, silahlar və həmin dövr abidələrində çox da rast gəlinməyən fərqli metal əşyalar aşkar edilmişdir. Maykop mədəniyyətinə aid tapıntılarla İran, Anadolu, Mesopotomiya və Ege əraziləri ilə olan mədəni əlaqələri də öyrənirik. Maykop ərazilərində aşkar edilən Kalermes arxeoloji qazıntılarına və dəmir dövrünə aid Skif kurqanları olduqca önəmlidir. Bu tapıntıların çoxu Sank Peterburq və Maykop muzeyində sərgilənir. 200 mindən çox eksponatı olan Maykop muzeyində Qafqazda türklərin (hun, xəzər, Qızıl Ordu və Elxanilər) dövrünü əks etdirən əsərlər diqqət çəkir.

Yuxarı Koban ərazilərində aparılan tədqiqatlar zamanı 100 metr yüksəklikdə olan bir təpə üzərində qala aşkar edilmişdir. Koban vadisinin strateji gözətçi ərazisi olan buranı bir çox arxeoloqlar neolit dövründən istifadə edildiyini bildirirlər. Qalanın özü isə 2008-2009-cu ildən arxeoloqlar tərəfindən hər tərəfli öyrənilərək xəzərlərə ( türk) aid damğalar ( möhür izləri ) aşkar etmişdilər. Qala ətrafında Qızıl Ordu dövrünə aid digər müdafiə tikililəri və üst təbəqəyə aid qadın

və kişi məzarları aşkar edilmişdir [4, s.243]. Qaraçay qəbir daşlarında ən çox rast gəlinən məzar üzəri rəsmlərdə ay və ulduza rast gəlinir. Bunu həm İslam, həmdə Türk rəmzi kimi dəyərləndirmək olar.

Qaraçayların izlərini təsdiq edən daha bir arxeoloji abidələr Qaraçay-İnquş ərazilərində, Malkaryada Çegem, Laşkuta kəndlərində və Yuxarı Çegem, Ligit, Kaşha-Tav ərazilərində də aşkar edilmişdir. Bu ərazilərdə Bulqar türklərindən qalma qəbirlər qaraçaylar ilə bulqarlar arasındakı etnik bağlantını təsdiq edir. Eyni zamanda 1960-1962-ci illərdə Qaraçaydakı Xumara şəhərinin qazıntılarında yazı nümunələri aşkar edilmişdir. Orta əsr müəllifi Məsudi Xumara (Humara) şəhərinin Xəzər dənizi yaxınlığında, İtil irmağından aralıda yerləşdiyini bildirirdi. Bu şəhər Qafqaz bulqarlarının və Xəzər xaqanlığının hərbi, siyasi, mədəni, iqtisadi mərkəzi olmuşdur. Xumara şəhərində 20 hektardan çox ərazidə qədim şəhər qalıqları aşkar edilmişdir. Bulqar türklərindən qalan bu şəhərin ətrafı blok daş divarlarla əhatələnmişdi. Burada tapılan yazıları 1962-ci ildə A.M. Şçerbak araşdıraraq Don və Talas kitabələri ilə eyniləşdirmiş və bu yazıları Qərb türklərinə aid əlifba ilə eyniləşdirirdi. Eyni ilə bu yazıları 1963-cü ildə V.A. Kuznetsov da tədqiq edərək yazıları Orxon-Yenisey yazıları ilə oxşar olduğunu və bir türk yazısı olduğunu qeyd etmişdir. M.A. Habiç bu yazıların çox az bir hissəsini tam araşdıraraq Türk dilli alanlara aid olduğunu irəli sürmüşdür. Ümumilikdə Xumara (Humara), Teşikle, Koban, Tokmak-Qaya, Sarıtuz, Terek və digər ərazilərində (çay sahili ərazilərdə əsasən) aşkar edilən yazıların 74-ü tədqiq edilərək tam nəticəyə gəlinmişdir. Bu yazıların məhz Bulqar türklərinə aid olması tam təsdiq edilmişdir. Arxeoloq H.Bici də yazıların Bulqar türklərinə aid olduğunu təsdiq etmişdi. 1963-cü ildə tədqiqatçı X.X. Bici və S.Y.Bayçora bu yazıların iki ayrı türk ləhcəsində və əlifbasında yazıldığını sübut etmişdilər. Bunların biri Qafqaz Bulqar türklərinə (Qaraçaylara), digəri isə Uyğur türklərinə aitdir [1; 3.s.20-30].

Qaraçay ərazisində aşkar edilən Xl əsrə aid bir kitabə üzərində aparılan araşdırmalar zamanı Qaraçay-Alan əlaqələri ortaya çıxmışdır.Yazılarda türk ifadələrinin yer alması qaraçayların türk olmasını bir daha təsdiq edir [4, s.225 ]. Qeyd etmək lazımdır ki, alanlar bizim eranın ilk əsrlərindən Aral gölü ilə Qafqaz ərazilərində görülməyə başlanılmışdır. Qərb tədqiqatçıları onları İran tayfalarının cənub qoluna aid etdiyi halda, antik mənbələrinin çoxunda isə alanlar sarmatların boylarından biri olaraq qəbul edilmiş və eyni zamanda skif və massagetlərə də bağlanılmışdır [13, s.63].

Daş divarlarla əhatələnən və doqquz qülləli Xumara şəhərində aparılan tədqiqatlar zamanı çox saylı yazı nümunələri ilə yanaşı qədim daş evlər də aşkar edilmişdir. Əldə olan məlumatlara görə bu şəhər Qafqaz bulqarlarının və Xəzər xaqanlığının hərbi,siyasi,iqtisadi mərkəzi olmuşdu. Bu şəhərin Vlll əsrdə ərəb istilasına qarşı bulqar və alanlar tərəfindən salındığı bildirilir. Bu evlərin memarlıq üslubu Bulqar türklərinin evlərinin üslubunda idi. Tarixi qaynaqlara görə daş yonma memarlığında və üslubunda türklərin öz dəsti xətti var idi. Bununla yanaşı bu ərazilərdə təbii coğrafi şəraitə uyğun olaraq qalın ağac kötükləri ilə inşa edilən evlərə də rast gəlinir. Əsasən Bulqar Türklərinin şəhər və kəndlərinin əksəriyyəti çay kənarında salınırdı. Qaraçaylar bu tip evləri öz mədəniyyətlərində son dövrlərə qədər qoruyub saxlayırlar. Qaraçayların ən qədim ev formaları " töngetmə " adı verilən kötük evlərdir [2, s.19 ] .

Qaraçayların yaşadığı ərazilərdə mövcud olmuş qədim Macar şəhəri yerində aşkar edilən arxeoloji abidələrdə Orta Asiya mədəniyyətini (türk) izləyirik. Sovet dövründə ( 1920-1990-ci illər) aparılan araşdırmalar zamanı Macar şəhərindən çoxlu qədim təndirlər tapılmışdır. Bu formalı təndirlərin istifadəsi Qaraçay xalqında da rast gəlinir [8, s.11] .

Qaraçayların formalaşmasında xüsusi rolu olan Qıpçaqların və Qıpçak türkləri ilə Qaraçay türklərini oxşar izlərini arxeoloji abidələrlə də təsdiq etmək olur. Don və Volqa çayları hövzəsində XI əsrdən etibarən yerləşən qıpçaqlar moğol baskını ilə Şimali Qafqazda yayılmağa başladılar. 1395-ci ildə Qızıl Orda dövlətinə məğlub olub, Terek ərazisində olan məğlubiyyətdən sonra qıpçaqların bir qismi Qafqaz dağlarına sığınmışdırlar. Məhz Qaraçay-Malkar bölgəsində olan qədim qəbirlərdə, arxeoloji abidələrdə qıpçaq izlərini görmək olur [6, s.67]. Arxeoloji qazıntılar nəticəsində Qaraçay-Malkar türklərinin yaşadığı ərazilərdə qıpçaqların özlərinə aid çoxlu məzar və

heykəllər aşkar edilmişdir. Eyni məzarlar formalarını qaraçaylarda da izləyirik. Koban çayının sol tərəfində Kubina kəndindən 5 km. aralı ərazidə qəbir abidələri aşkar edilmişdir. Bu məzarların aşağı hissəsi daşla hörülmüşdür. Məzarlarda insan skleti ilə yanaşı , at skletinə də rast gəlinir. Qeyd etmək lazımdır ki, atların ölü ilə dəfni skiflərdə geniş yayılmışdır [9] . Eyni prosesi hunlarda da görürük. Baytal, Çaphan bölgəsində aşkar edilən bu qəbirlər XlV-XVl əsrlərə aid edilib Qıpçaq türklərindən qaldığı təsdiq edilmişdir. Məşhur rus alimi E.P. Alekseyeva bu qəbir abidələrini araşdıraraq 400 illik bir məzardakı ölü dəfn etmə adətlərinin Qıpçak türklərinin adətləri ilə eyni olduğunu isbat etmişdir [7, s.53] . Onlar qəbirlərin üzərində böyük qüllə, daşdan ev formalı tikili, hətta kiçik ehramlarda tikirdilər. Tikililərin üzü şərqə doğru tikilirdi. Bir çox qəbirlərdə qədəhlər də aşkar edilmişdir. Tədqiqatçı G.Rubrusk bildirirdi ki, qədəhlər tapılan məzarlar zənginlərə aid idi. Onlar əsasən yuxarı Çagemdə yaşayan qıpçaq əsilli Malkar türkləri idi. Burada türklərdən qalma sivri təpəli, yarı-piramida şəklində qəbirüstü abidələr aşkar edilmişdir. Qıpçaq heykəlləri isə Qaraçayda Zelencik ərazilərində aşkar edilmişdir.

**NƏTİCƏ:** Araşdırdığımız Qaraçay türklərinə aid tarixi-arxeoloji abidələr bütün yazılı mənbələri təsdiqləməklə yanaşı, hər izində türkləri yansıdır. Tunc dövründən bu yana öyrənilən tarixi, arxeoloji, memarlıq abidələrində həmin ərazinin etnik tərkibinin formalaşmasında türk tayfalarını, onlarının köçünün təsirini görürük. Bütün bunlar abidələrdə qədimdən günümüzə qədər gəlib çatmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, tarixi-arxeoloji abidələr yeganə mənbədirki hər formasında mənsub olduğu xalqın izini, mədəniyyətini, kimliyini qoruyub saxlayır. Bu səbəbdən Şimali Qafqazda türklərə məxsus abidələrin öyrənilməsi həm türk xalqlarının tarixi, həmdə Qafqazda tarix boyu baş vermiş tarixi-siyasi, etnik proseslərin öyrənilməsi baxımından çox önəmlidir.

## ƏDƏBİYYAT

1. Adiloğlu A. Qaraçay-Malkar türklərinin etnik oluşumunda Bulqar ve Sabir hunlarının rolü //Türk Dünyası dil ve edebiyat dergisi 24 say. Devlet Arşivleri Genel Müdürlüğü. –s.7-34
2. Adilhan A. Karaçay-Balkar türklerinin kökeni //Türk tarihi araşdırmaları. –s.30
3. Байчоров, С.Я. Древнетюркские памятники Европы / С.Я.Байчоров, –Ставрополь, 1989. – 310 с.
4. Hasan, B. Kuzey Kafkazya ve Karaçay Türkleri // 4. Uluslararası Türk Şöleni Türk kültürü sempozyumu bildirileri. Editör: A.Ceylan. –Güneş vakfı-Aralık, –2018.–s.239-264
5. История Балкарии в трудах И.Мизиева: [в.3томах] / –Нальчик: Издательство М. и В. Котляровых, –2010. –368 с.
6. Mehmet Ç. Ortaçağda Kafkasya Havzasında Kıpçaklar / Karadeniz İncelemeleri Dergisi, –2015-(19).s.57-74
7. Tuncay A. Kafkaslardan Anadoluya Karaçay-Malkarlılar ve göçleri (1853-1910). /Doktora tezi. –Bursa, –2016. –226 s.
8. Janos Sipos-Ufuk Tavkul.Karaçay –Malkar halk şarkıları / –Ankara, –2018. –464 s.
9. Həsənov Z. Çar skiflər (Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi) / –Bakı: Əbilov, Zeynalov və oğulları, –2005. –480 s.
10. Adilhan, A. Türkoloji mekaleler. Karaçay-Malkar türkleri. Tarihi Edebiyyat dili. / Türküstan Kutubxonasi, –2010.
11. Adilhan, A. Karaçay-Malkar türkleri / A. Adilhan, Ankara: Kızılay, –2005. –s.250
12. Kafesoğlu, İ. Türk Milli kültürü / İ.Kafesoğlu, İstanbul: Boğaziçi Yayınları, –1998. –s.178
13. Artamanov, M.İ. Hazar tarihi, türkler, yahudiler, ruslar, çev, ahsen, batur, lll-bas / –İstanbul: Selenge yayınları, –2008. –s.64

**РЕЗЮМЕ**
**ДРЕВНЯЯ ИСТОРИЯ КАРАЧАЕВСКИХ ТУРОК ЖИВУЩАЯ В АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКАХ**
***Асадова А.В.***

***Ключевые слова:*** *Кавказ, Кобан, Карачаево-Малкар, тюрки, народ, памятник.*

В данной теме обсуждается древняя история тюрков-карачаевцев, проживающих на Северном Кавказе. Большую роль в формировании тюрков-карачаевцев сыграли киммерийцы, скифы, тюрки-кипчаки. Изучение могил, поселений, эпиграфических и культурных памятников, обнаруженных в районах проживания карачаевцев, подтверждает их тюркское происхождение. Тема, которую мы исследуем, очень важна с точки зрения изучения истории и культуры не только карачаевцев, но и тюркских народов, проживающих на Северном Кавказе.

**SUMMARY**
**THE ANCIENT HISTORY OF THE KARACHAI TURKS LIVING IN ARCHAEOLOGICAL SITES**
***Asadova A.V.***

***Key words:*** *Caucasus, Koban, Karachay-Malkar, Turkish, people, monument*

In this topic, the ancient history of the Karachay Turks living in the North Caucasus is discussed. The Cimmerians, Scythians, Kipchak Turks played a great role in the formation of the Karachay Turks. The study of graves, settlements, epigraphic and cultural monuments found in the areas inhabited by the Karachays confirms that they are of Turkish origin. The topic we are researching is very important from the point of view of studying the history and culture of not only the Karachays, but also the Turkic peoples living in the North Caucasus.

.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 26.12.2023 |
| | Son variant | 05.02.2024 |

**UOT 3.327** DOI 10.54758/16801245_2024_20_1_61

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İTALİYA RESPUBLİKASI ARASINDA SİYASİ – DİPLOMATİK MÜNASİBƏTLƏR: YARANMA, İNKİŞAF, NƏTİCƏ

**ORXAN MUSA** ORCID

*Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan, doktorant*
O.musa@atmu.edu.az

***Açar sözlər:*** *Azərbaycan, İtaliya, siyas- diplomatik münasibətlər, prezidentlərin görüşləri, səfirliklər, iqtisadi – mədəni/ humanitar əməkdaşlıq, nəticə.*

**Giriş.** Azərbaycan dövlətçiliyinin bərpası onun beynəlxalq birliyə siyasi və diplomatik inteqrasiyasını da şərtləndirmiş oldu. Bu kontekstdə də Azərbaycanın müstəqilliyinin dövlətlər tərəfindən rəsmi – hüquqi tanınması və onlarla siyasi – diplomatik münasibətlər qurulması zərurətə çevrildi. Belə dövlətlər arasında isə çox haqlı və əsaslı olaraq İtaliya da önə çəkildi və onunla münasibətlərə yetərli üstünlük verildi.

Azərbaycan Respublikasının (AR-in) belə bir əsaslandırılmış dövləti marağını, yanaşma və mövqeyini xeyli sanballı dəyərləndirmə, fakt və, ən başlıcası da, ikitərəfli əlaqələrin indiki qaneedici nəticələri də təsdiqləyir.

**Əlaqələrin yaranması.** Fikrimizcə, öncə, burada belə bir vacib tarixi – siyasi arayışa da ehtiyac vardır. Belə ki, Azərbaycanla İtaliya arasındakı çoxyönlü tarixi əlaqələrin, yəni fərqli müstəvili, məzmunlu hərbi – siyasi – diplomatik – iqtisadi – mədəni təmasların keçmişinə aid aşağıdakı hadisələr, faktlar qeyd edilə bilər:

1. Qədim Roma sərkərdələri Pompeylə Antoninin və XII legionun ölkəmizə hərbi yürüşləri.
2. Orta çağ Azərbaycan dövlətlərinin (Ağqoyunlularla Səfəvilərin) orta əsr İtaliya feodal – dəniz - şəhər respublikaları (Venesiya, Genuya, Florensiya) ilə çoxşaxəli və davamlı əlaqələri.
3. Venesiyalı tacir – səyyahlardan Marko Polo, Minadoi və b. ölkəmizdə olmaları. Bizcə, italyan “Karmelitlərin xronikası”nda [12, s.15-23] özünə yeralan müvafiq tarixi faktlar da bu baxımdan xüsusilə diqqətçəkicidir.
4. İtaliyanın Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ilə siyasi əlaqələr yaratması və Bakıda diplomatik təmsilçiliyini (konsul L.Qrikurov və hərbi attaşe E.İnsom) [2] açması kimi önəmli tədbirlər.
5. Qafqaz (Azərbaycan) üzərində İtaliya mandatı məsələsi ətrafında diplomatik proses [14, s.365 -374].
6. SSRİ dönəmində məlum dövlət siyasəti və hakim idealogiyanın imkan verdiyi hüdudlarda və ölçülərdə gerçəkləşdirilən əməkdaşlıq əsasən, mədəni əlaqələr, ələlxüsus da, musiqi sahəsində birgə fəaliyyət, həmçinin 1972 – ci ildə Bakı ilə Neapolun qardaşlaşması və s.).

Müasir dövrə gəldikdə isə, Azərbaycan – İtaliya rəsmi siyasi və diplomatik təmasları, əsasən, 1992-ci ilin lap əvvəlində başladı. Belə ki, həmin il yanvarın 1-də İtaliya Respublikası (İR) Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini tanıdı və mayın 8-də isə dövlətlərarası diplomatik münasibətlər yaradıldı [8]. Bu tarixi hadisə xüsusi diplomatik aktla, yəni protokol ilə hüquqi cəhətdən təsbit olundu. İR 1997-ci ildə Azərbaycan dövlətində səfirlik açdı; sözgəlişi, olduqca

önəmli və diqqəti cəlb edən bir diplomatik məqam: bu, İR –in Güney Qafqaz dövlətlərində təsis etdiyi ilk səfirlikdir [5].

İtaliyanın respublikamızdakı ilk səfiri A. Fallovalita olmuşdur. Ondan sonra isə səfirliyə M.Kosta, C.Maşia, M.Boldi, C.Kutillo, A.Massari başçılıq etmişlər [11]. İndiki səfir C.Taffuridir. Həmçinin M.Kosta Genuya şəhərində, Liquriya, Lombardiya və digər regionlarda, D.Koko isə Kataniya şəhərində AR-in fəxri konsulları olaraq fəaliyyət göstərmişlər [5].

AR rəhbərliyi hələ 1992 – ci ilin iyulunda R.Ağayevi səfir vəzifəsinə təsdiqləmişdi [15, s.69]. Ancaq ölkəmizdəki siyasi proseslərlə əlaqədar olaraq belə bir diplomatik addımın atılması alınmadı. Səfirliyin rəsmi təsisatı 2003 – cü ildə gerçəkləşdi. İlk böyük elçi E.Məmmədyarov oldu. İtaliyadakı səfirlərimizin sırasına həm də E.Kərimov, V. Sadıqov, M.Əhmədzadə daxildirlər. 2022 – ci ilin oktyabrından etibarən isə səfirliyə R.Aslanov rəhbərlik edir.

Yuxarıda yazılanlardan da bəlli olduğu kimi, AR – İR siyasi və diplomatik münasibətlərinin yaradılması prosesi çoxşaxəli birgə fəaliyyətlə və tədbirlərlə səciyyələnir. Bu, proses – mərhələ isə əlaqələrin sonrakı inkişafı və sanballı nəticələrindən ötrü möhkəm özül, yetərli potensial və s. olmuşdur.

**Münasibətlərin inkişafı.** Qurulmaqda və genişlənməkdə olan siyasi – diplomatik əlaqələrin mərkəzi məsələlərinin ən başlıcalarından birini də Ermənistan – Azərbaycan münaqişəsənin tezliklə və ədalətli həllinə yönəlik birgə səylər təşkil edir. İtaliyanın AR-in haqq işinə verdiyi ilkin diplomatik dəstək təqdirəlayiqdir. Buna ATƏM- in Minsk Konfransının ilk sədri, İtaliya diplomatı M.Raffaellinin hədər gedən diplomatik səyləri [13, s. 125-128] də dəlalət edir.

Belə ki, o, Minsk Konfransının sədri olaraq:

- 1992 – 1993 – cü illərdə münaqişə bölgəsinə səfərlər etmişdi;
- bir sıra sülhyaratma təkliflərini irəli sürmüşdü;
- konfliktin dinc yollarla nizamlanmasına dair Roma – Paris – Vyana "Cədvəl" lərinin ərsəyə gəlməsində mühüm rol oynamışdı və s.
- İtaliya ATƏT - in münaqişənin danışıqlarla tənzimlənməsi ilə "məşğul olan məşhur" (hazırda iflas edən) Minsk Qrupunun üzvü kimi də sülhyaradıcı fəaliyyət göstərdi. Amma məlum çoxlu səbəblər üzündən əməli nəticələr hasil olunmadı.

Respublikalararası siyasi – diplomatik əlaqələrin daha da möhkəmlənməsində və inkişafında dövlət başçılarının vaxtaşırı qarşılıqlı faydalı və müxtəlif səviyyəli səfərlərinin də önəmi əsla danılmazdır. Bu, çoxölçülü əhəmiyyət dəyərləndirilərkən aşağıdakı diqqətçəkici müddəa və qənaətlər xüsusilə vurğulanmalıdır. Belə ki, həmin səfərlər:

a) çoxyönlü birgə fəaliyyət sahəsində strateji hədəflərin müəyyənləşdirilməsində aparıcı rol oynayır;

b) Avropanın enerji və , bununla həm də, geosiyasi təhlükəsizliyinə yetərli, etibarlı və davamlı imkanlar və şərait yaradır;

c) onların gedişində xeyli sanballı sənədin (müqavilə, bəyannamə, protokol və s.) imzalanması ilə dövlətlərarası iqtisadi – ticarət və mədəni – hümanitar əməkdaşlığın siyasi, diplomatik, hüquqi əsaslarını daha da möhkəmləndirir və s.

İR – in Azərbaycanın müstəqilliyini tanımasından ötən müddətdə prezidentlərin bir xeyli qarşılıqlı dövlət, rəsmi və işgüzar səfərləri olmuşdur. Onlara 1997 – ci ildə Azərbaycanın o vaxtkı prezidenti Heydər Əliyevin rəsmi səfəri [2] ilə təkan verildi. Bu səfər:

- daha çox ikitərəfli münasibətlərin prinsiplərinin müzakirəsi (bununla bağlı Birgə Bəyannamə də qəbul olundu) və imzalanan diplomatik sənədlərin bolluğu ilə diqqəti cəlb edir [1];
- respublikaların rəhbərlərinin (H.Əliyevlə O.Skalfaronun) əhatəli və faydalı danışıqları ilə səciyyələnir;
- Azərbaycanın dövlət başçılarının İR-ə, ümumiyyətlə, ilk səfəri sayılır;

• iki dövlət arasındakı münasibətlərin inkişafında yeni dönəmin başlanğıcı kimi də dəyərləndirilir.

Danışıqlar İtaliyanın - Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə əlaqədar məsələdə - tutduğu obyektiv və ardıcıl mövqeyə sadiqliyini bir daha yenilədi və təsdiqlədi. Tərəflər münaqişənin ATƏT- in Lissabonda 1996-cı ildə keçirilən sammitində bəyənilən sənəddə ifadə və elan edilən prinsiplər əsasında nizamlanmasnda həmfikir olduqlarını bildirdilər. (Sözgəlişi, həmin sənəd ATƏT-in o vaxtkı fəaliyyətdə olan sədri F.Kottinin bəyanatı idi [13,s.138-139].

Dövlət başçılarının sonrakı yüksək səviyyəli qarşılıqlı səfərləri ikitərəfli siyasi – diplomatik münasibətlərin dinamik və problemlərsiz inkişafına təsiri baxımından xeyli diqqətçəkicidir və mühüm elmi maraq doğurur. Bu məqamla bağlı aparılan təhlillərə və ümumiləşdirmələrə əsasən aşağıdakıları vurğulamaq lazım gəlir.

**I.** AR-in Prezidenti İlham Əliyev:

**a)** dövlət başçısı olaraq İtaliyaya ilk –rəsmi səfərini 2005 – ci ilin fevralında etmişdir. Səfərin gedişində [5]:

• prezident A.Çampi ilə danışıqlar aparılmışdır;

• AR –İR Birgə Bəyannaməsi qəbul edilmişdir;

• 8 sənəd imzalanmışdır;

**b)** 2- ci rəsmi səfərini 2008 – ci ilin noyabrında gerçəkləşdirmişdir. Bu səfər [2]:

• Baş nazir S.Berluskoninin dəvəti əsasında olmuşdur;

• başlıca olaraq iqtisadiyyatyönümlü strateji məsələlərin müzakirəsinə həsr edilmişdir;

**c)** 2011 – ci ilin iyununda dövlət başçısı C.Napolitanonun dəvətini qəbul edərək İtaliya tarixinə aid Romada keçirilən önəmli bir siyasi – rəsmi tədbirə qatılmışdır;

**d)** daha bir rəsmi səfərini 2014 – cü ilin iyul ayında həyata keçirmişdir. Həmin səfər ərzində (5):

• prezidentlərin təkbətək və geniş tərkibdə görüşləri olmuşdur;

• o, bir sıra elmi – mədəni səciyyəli tədbirlərdə iştirak etmişdir;

• dövlətlərarası humanitar – mədəni əməkdaşlığa aid sazişlər və s. bağlanmışdır;

**e)** 2020 – ci ilin fevralında strateji tərəfdaş – dost ölkəyə dövlət səfərinə gedibdir. Bu səfər [5]:

• AR prezidentinin İR-ə ilk ali səviyyəli – dövlət səfəri sayılır;

• liderlərin daha bir təkbətək və geniş tərkibli görüşləri ilə də diqqəti çəkir;

• qanunvericilik hakimiyyətlərinin əlaqələrinin daha da genişləndirilməsinə təkan verməsi baxımından da fərqlənir. (Bunu AR prezidentinin Senatın və Deputatlar Palatasının sədrləri (M.Kasellati; R.Fiko) ilə apardığı müvafiq müzakirələr də təsdiqləyir);

• 28 sənədin imzalanması cəhətdən də seçilir və mühüm önəmə malikdir. (Onlardan çoxölçülü Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə, Xarici İşlər nazirliklərinin Anlaşma Memorandumu və . s qeyd etmək olar);

**ə)** habelə 2022-ci ilin sentyabrında orada işgüzar səfərdə [10] olmuşdur. Səfər dövlətlərarası siyasi – diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar keçirilən çoxsaylı tədbirlərdə iştirakdan ötrü təşkil edilmişdi). Səfər vaxtı o:

• həmkarı S.Mattarella ilə görüşmüşdü;

• mətbuata çoxlu müsahibələr vermişdi;

• "çoxtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan – İtaliya münasibətləri" kimi dəyərli bir elmi – siyasi qənaətini açıqlamışdı;

• "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən keçirilən "Dünya, Avropa və İtaliyaya baxış" mövzusundakı 48-ci beynəlxalq Çernobbio forumuna qatılmışdı [3]. Habelə Azərbaycan – İtaliya Universitetinin yaradılmasında aid sənədlərin mübadiləsi mərasimində, səfirliyimizin yeni binasının açılışında iştirak etmiş və "il Sole 24 Ore" qəzetinin müxbiri R.Boncorniyə geniş müsahibə vermişdi [9]. (Yeri gəlmişkən, bu səfər və onun gedişatında həyata

keçirilən tədbirlər İR-in xeyli mətbuat orqanında, yəni "il Giornale Diplomatico", "Gazetta Diplomatica" və digərlərində, həm də "Askanews" və s. xəbər agentliklərinin məlumat – materiallarında ətraflı işıqlandırılmışdır).

**II.** İtaliya ali rəhbərliyi də AR -ə yüksək səviyyəli və digər səciyyəli səfərlər təşkil etmişdir. Belə ki, 2018-ci ilin iyulunda prezident S.Mattarella ölkəmizə rəsmi səfərə gəldi. Bu təşrif İR prezidentlərinin AR-ə, ümumiyyətlə, ilk və rəsmi səfəri hesab olunur. Səfər çərçivəsində S.Mattarella:

• ADA universitetində "Azərbaycan və İtaliya: inkişaf edən dostluğun dərin kökləri və əməkdaşlığımızın gələcəyi" mövzusunda çıxış etdi;

• qarşılıqlı təltifetmə mərasiminə qatıldı;

• Azərbaycandakı dini icmaların təmsilçiləri ilə görüşdü;

• bir neçə mədəni tədbirdə oldu və s.

Azərbaycanla İtaliya arasındakı siyasi – diplomatik münasibətlərin inkişafında habelə onların dövlət – hökumət xadimlərinin və müvafiq strukturları - qurumlarının rəhbər işçilərinin çoxyönlü, uğurlu, qarşılıqlı rəsmi səfərləri də təqdirolunasıdır. Onların arasında isə Mehriban Əliyevanın Azərbaycanın Birinci xanımı, AR – in Birinci Vitse – prezidenti və Heydər Əliyev Fondunun prezidenti kimi məqamlar – statuslardakı səfərləri xüsusi yer tutur. Onun:

• 2011-ci ilin noyabr – dekabrındakı səfəri dövlət müstəqilliyimizin 20-ci ildönümünün təbliğatı ilə əlaqədar idi [5]. Barəsində nüfuzlu "Roma xronikaları" və başqa mətbuat orqanlarının da bəhs etdikləri bu səfərin gedişində İR-in Baş nazirinin xanımı E.Monti ilə təhsil sahəsində əməkdaşlıqla bağlı önəmli fikir mübadiləsi olmuşdu;

• 2012-ci ilin aprelində M.Əliyeva İtaliyaya yeni bir səfər etdi. Bu səfərdə məqsəd [5] İtaliyada ilk dəfə olaraq keçirilən Azərbaycan mədəniyyəti günlərində iştirakdan ibarət idi;

• 2018-ci ilin sentyabrındakı səfəri zamanı: prezident S.Mattarella, Senatın sədri M.Kasellati və digər rəsmi şəxslərlə səmərəli görüşləri keçirildi; AXC-nin yaranmasının 100 illiyi ilə əlaqədar konfransda çıxışı oldu. (Yeri gəlmişkən, çıxışda əsas yeri tutan və maraq doğuran məsələlərdən birini də - konfransın mövzusunun əhatə etdiyi problem "AR ilə İR arasında strateji tərəfdaşlıq münasibətləri" təşkil edirdi); habelə Vatikanda Roma Papası Fransisklə və Müqəddəs Taxt – Tacın rəsmilərindən Dövlət katibi P.Parolin, kardinal C.Ravazi ilə dini məsələlərə və humanitar əməkdaşlığa dair danışıqları da baş tutdu; həm də Müqəddəs Sebastian katakombalarının açılış mərasimində iştirakı məmnuniyyətlə qarşılandı və s.

Azərbaycanla İtaliyanın siyasi – diplomatik münasibətlərinin inkişafında onların beynəlxalq və regional təşkilatlardakı birgə fəaliyyətinin rolu və önəmi də müsbət qiymətləndirilə bilər. Belə işbirliyi, öz növbəsində, AR-in müxtəlif forumlardakı siyasi – diplomatik dialoq və anlaşma – uzlaşma imkanlarını və səylərini xeyli çoxaltmışdır.

Beynəlxalq təşkilatlardakı AR–İR əməkdaşlığı ikinci tərəfin birincinin Qərbə (Avroatlantikaya) inteqrasiyasına göstərdiyi müsbət təsiri də şərtləndirir və önə çəkir. Bu hal həmçinin Azərbaycan – İtaliya siyasi və diplomatik münasibətlərinin ölçülərinin böyüməsinin və miqyasının genişlənməsinin təminatında diqqətçəkici rol oynayır. Nəticə etibarı ilə, İtaliya Qərb siyasi – diplomatik sistemində Azərbaycanın etibarlı müttəfiqinə və strateji tərəfdaşına çevrilir.

**Nəticə: yekun müddəalar və qənaətlər.**

Araşdırmalar əsasında gəlinən qənaətlər və nəticələr aşağıdakı fikir və mülahizələrlə ümumiləşdirilə və ifadə edilə bilər:

1. Dövlətlərarası siyasi – diplomatik münasibətlərin qurulması və inkişafına aid səciyyəvi, yüksək qiymətləndirilə biləcək çoxşaxəli göstəricilər:

• qarşılıqlı təbii – iqtisadi maraqlar və beynəlxalq – siyasi zərurət; tarixi - ənənəvi miras və təcrübə;prinsipal siyasi iradə və mövqe;

